RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 264 (10009) 16 dekabr 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Tarixdə ilk dəfə



## Dünya Türk Dili Ailəsi Günü təsis edildi

Azərbaycan, türk, qazax, qırğız, türkmən və özbək dillərinin daxil olduğu türk dilində təxminən 12 milyon kvadratkilometr ərazini əhatə edən ərazidə 200 milyondan çox insan danışır. Dünya Türk Dili Ailəsi Gününün elan edilməsi türk dilinin dünya miqyasında tanınması, qorunması və təbliği baxımından mühüm tarixi hadisə kimi dəyərləndirilir.

Qeyd edək ki, 15 dekabr tarixinin seçilməsi təsadüfi deyil. Məhz bu gün - 1893-cü il dekabrın 15-də məşhur danimarkalı alim Vilhelm Tomsen Orxon-Yenisey yazılarını deşifrə edərək türk dillərinin ən qədim yazılı abidələrinin sirrini dünyaya açmışdır. Bu hadisə türk dilinin tarixi dərinliyini, zənginliyini və mədəni potensialını elmi şəkildə təsdiqləyən dönüş nöqtəsi hesab olunur.

UNESCO-nun qəbul etdiyi qərarda vurğulanır ki, türk dili ailəsinə daxil olan dillər bu gün Avrasiya məkanında geniş coğrafiyada yayılıb. Bu dillər təkcə kommunikasiya vasitəsi deyil, eyni zamanda minilliklər boyu formalaşmış sivilizasiya, dövlətçilik ənənəsi, mədəniyyət və mənəvi irsin daşıyıcısıdır.

Beynəlxalq təşkilatın bu addımı türk dünyası üçün simvolik və strateji əhəmiyyət daşıyır. Qərar türk dillərinin qorunması, gənc nəsillərə ötürülməsi, elmi-akademik tədqiqatların genişləndirilməsi və beynəlxalq mədəni dialoqda türk dilinin rolunun gücləndirilməsi baxımından yeni imkanlar açır. Beləliklə, dekabrın 15-inin Dünya Türk Dili Ailəsi Günü kimi təsis edilməsi türk dili və türk dünyası üçün qürurverici, gələcəyə ümid verən və mədəni birlik ideyasını gücləndirən əlamətdar beynəlxalq hadisədir. Bu günün qeyd edilməsi həmçinin türk dilinin qlobal səviyyədə daha yaxşı tanınmasına, türk xalqları arasında ortaq bir dil birliyinin qurulmasına xidmət edir.

Dünya Türk Dili Ailəsi Günü yalnız dilin əhəmiyyətini deyil, həm də türk mədəniyyətinin zənginliyini və müxtəlifliyini önə çıxarır. Türk dili, sadəcə, bir kommunikasiya vasitəsi deyil, həm də bir xalqın düşüncə tərzini, dünyagörüşünü və mədəniyyətini ifadə edən bir vasitədir. Türk dünyasında hər bir ölkə və toplum öz dilini fərqli şəkildə inkişaf etdirib. Ancaq bütün bunlar ortaq bir irsə, ortaq köklərə dayanır.

6

## Azərbaycan vətəndaşları heç bir fövqəladə hadisənin qarşısında tək deyillər



**Xalqımız tarixinin, taleyinin ən əlamətdar, ən şərəfli günlərini yaşayır. Azərbaycan Prezidenti İlham Əliyevin imzası ilə yazılan müasir tariximizin hər səhifəsi qəlbimizi qürur hissilə doldurur.**

Ümummilli Lider Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan Prezidentin uzaqgörən daxili və xarici siyasəti nəticəsində sivil dünyanın nüfuzlu elmi, mədəni, siyasi elitasının bir araya gəldiyi, aktual qlobal problemlərin müzakirə olunduğu mühüm strateji mərkəzə çevrilib. Respublikamızın beynəlxalq arenada tutduğu mövqe, qazandığı böyük nüfuz yalnız dünyanın ən inkişaf etmiş qüdrətli dövlətləri ilə müqayisə oluna bilər.

Təbii ki, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi altında yenilməz Azərbaycan Ordusu tərəfindən işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün, suverenliyimizin bərpası qazanılan uğurların zirvəsində dayanır.

5



## Azərbaycan Prezidenti "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan olunması təşəbbüsünü irəli sürüb

**Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi və xilaskarlıq missiyası sayəsində müstəqil Azərbaycan dövləti qurulub möhkəmlənmiş, Ulu Öndərin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi təməlini yaratmışdır.**

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uzaqgörən strategiyası, sarsılmaz liderliyi və Silahlı Qüvvələrimizin misilsiz qəhrəmanlığı sayəsində Vətən müharibəsində qazandığımız Zəfər və lokal xarakterli antiterror əməliyyatı nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa edilmişdir.

AZƏRTAC xəbər verir ki, suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev amnistiya elan edilməsi təşəbbüsünü irəli sürüb.

Amnistiya aktının layihəsinə əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistan Respublikasının mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur.

Bununla yanaşı, layihəyə əsasən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaqdır.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunan amnistiya aktının tətbiq ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacağı ehtimal edilir. Belə ki, amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

## Azərbaycan bölgəni əməkdaşlıq ünvanına çevirir



Son beş ildə Azərbaycanın normallaşma istiqamətində atdığı addımlar, bu prosesə verdiyi əməli töhfələr hazırda bölgədə müşahidə olunan faktiki sülhün səbəbidir. Bu yöndə əldə olunan uğurlar isə təkcə Cənubi Qafqazın inkişafı ilə məhdudlaşmaqla qalmır, daha geniş coğrafiyaya hərtərəfli əlaqələr üçün mühüm şərait yaradır. Bakının sülh səyləri həm bölgənin sabitliyinə mühüm töhfə verir, həm də burada investisiya imkanlarının, əməkdaşlığın artmasına geniş imkanlar açır.

Dekabrın 8-də Bratislavada Prezident İlham Əliyevin və Slovakiya Prezidenti Peter Pelleqrininin mətbuata bəyanatlarla çıxışı zamanı dövlətimizin rəhbəri söylədi ki, Azərbaycan öz xarici siyasət prioritetlərini çoxdan müəyyən edib: "Biz eyni zamanda bu gün Şərqlə Qərb arasında müəyyən bir körpü rolunu oynayırıq. İnfrastruktura, bağlantılara, nəqliyyat sektoruna qoyduğumuz sərmayə bu gün imkan verir ki, Azərbaycan "Şərq-Qərb" nəqliyyat dəhlizinin önəmli parçasına çevrilsin. Biz Orta dəhliz layihəsində fəal iştirak edirik. Orta Asiyanı Avropa ilə birləşdirən ən etibarlı və ən təhlükəsiz marşrut Azərbaycan ərazisindən keçir".

7

## Enerji, əməkdaşlıq və dəhliz diplomatiyası



Ekspertlər Cənubi Qafqazın dərin siyasi transformasiyalar mərhələsinə daxil olduğunu, regionda yeni strateji güc balansı və geosiyasi qüvvələr nisbətinin Azərbaycanın xeyrinə dəyişdiyini vurğulayırlar. Onların buna tam əsası var. Regionumuz həqiqi mənada geosiyasi yeniləşmənin növbəti mərhələsinə qədəm qoyub. Bununla Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi qələbənin təsiri ilə formalaşan regional geosiyasi yeniləşmənin bir mərhələsinin başa çatdığını və eyni zamanda proseslərin yeni dinamika aldığını demək olar. Ekspertlər də, əslində, postmüharibə dönəmində regional miqyasda geosiyasi transformasiyanın ikinci mərhələsindən bəhs edirlər. Bu mərhələləri politoloji olaraq belə xarakterizə etmək olar: ilk növbədə qeyd edək ki, "birinci mərhələ" adlandırdığımız dövr 2020-2025-ci illəri əhatə edir. Regiondaxili geosiyasi mühitdə onun başlıca əlamətinə diqqət yetirməliyik. Belə ki, Azərbaycanın qalib gəldiyi 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda sülh, sabitlik, əməkdaşlıq və təhlükəsizliyin yeni prinsiplərinin formalaşması başa çatıb. Həmin prinsiplərə əsaslanan münasibətlərin yeni sisteminin təsiri ilə Cənubi Qafqaza yönələn kənar pozucu təsirlər, faktiki olaraq, neytrallaşdırılıb. Bununla geosiyasi kontekstdə tarixi dəyişiklik baş verib: Cənubi Qafqazın geosiyasi konfiqurasiyası regionun maraqları üzərində bərqərar olmağa başlayıb. Təşəbbüsün regiondaxili proseslərin nüfuzetmə potensialına keçməsi növbəti mərhələ üçün lazımi baza yaradıb.

8

## "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 1, maddə 19 (Cild I) 1-ci maddəsinə "il" sözündən sonra "martın 31-dək" sözləri əlavə edilsin və həmin maddədə "sessiyasının beşinci iclasında" sözləri "sessiyasında" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Bu Konstitusiya Qanunu 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2025-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Anqola Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il sentyabrın 25-də Nyu York şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Anqola Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2025-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Dominikan Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il sentyabrın 24-də Nyu York şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Dominikan Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2025-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il sentyabrın 19-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2025-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Maldiv Respublikası Hökuməti arasında ümumvətəndaş pasport sahiblərinin viza tələbindən qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il sentyabrın 24-də Nyu York şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Maldiv Respublikası Hökuməti arasında ümumvətəndaş pasport sahiblərinin viza tələbindən qarşılıqlı azad edilməsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2025-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Cibuti Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il sentyabrın 23-də Nyu York şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Cibuti Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2025-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Bəhreyn Krallığı Hökuməti arasında diplomatik pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il sentyabrın 25-də Nyu York şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Bəhreyn Krallığı Hökuməti arasında diplomatik pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2025-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Surinam Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il sentyabrın 22-də Nyu York şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Surinam Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2025-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Qvineya-Bisau Respublikası Hökuməti arasında diplomatik, xidməti və xüsusi pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il sentyabrın 23-də Nyu York şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Qvineya-Bisau Respublikası Hökuməti arasında diplomatik, xidməti və xüsusi pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2025-ci il*

## "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Qazaxıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il oktyabrın 21-də Astana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Qazaxıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2025-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texniki əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il noyabrın 4-də Əlcəzair şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Əlcəzair Xalq Demokratik Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi və texniki əməkdaşlıq üzrə Birgə Komissiyanın yaradılması haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Əlcəzair Xalq Demokratik Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2025-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il oktyabrın 21-dəAstana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2025-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il oktyabrın 21-də Astana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2025-ci il*

## "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qazaxıstan Respublikasının Strateji Planlaşdırma və İslahatlar Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il oktyabrın 21-də Astana şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Qazaxıstan Respublikasının Strateji Planlaşdırma və İslahatlar Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2025-ci il*

## İdxal-ixrac, tranzit, nəqliyyat və logistika üzrə fəaliyyətin rəqəmsallaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xarici ticarətin tənzimlənməsi sahəsində dövlət idarəetmə mexanizminin təkmilləşdirilməsi, dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin səmərəli şəkildə əlaqələndirilməsi, o cümlədən idxal-ixrac, tranzit, nəqliyyat və logistika əməliyyatları üzrə vahid giriş imkanı əsasında tam rəqəmsal mühitin yaradılması və yük axınlarının "ağıllı" idarə edilməsi sisteminin tətbiqi məqsədilə **qərara alıram:**

1. "Bir pəncərə"informasiya sistemi (bundan sonra - Sistem) yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. xarici ticarət fəaliyyətinin həyata keçirilməsi ilə bağlı Sistem vasitəsilə aşağıdakılar təmin edilir:

2.1.1. tələb olunan sənədlərin, o cümlədən kommersiya və nəqliyyat sənədlərinin təqdim edilməsi;

2.1.2. nəqliyyat vasitələrinə və daşınan mallara dair tələb olunan sənədlərin və məlumatların elektron qaydada tərtib edilməsi;

2.1.3. sərhədkeçmə prosedurları, daşıma qaydaları və şərtləri ilə bağlı məlumat verilməsi, eləcə də istifadəçilərin müraciətlərinin qəbulu və cavablandırılması;

2.1.4. yükdaşıma müqavilələrinin elektron qaydada bağlanılması, eləcə də bağlanılmış müqavilələrin təqdim olunması;

2.1.5. daşınan yüklərin bütün hərəkət marşrutu boyunca izlənilməsi;

2.1.6. ödənişlər aparılması, eləcə də həmin fəaliyyətlə bağlı statistik məlumatların əldə edilməsi;

2.2. Sistemin sahibi funksiyalarını Azərbaycan Respublikasının Nazirlər Kabineti, operatoru funksiyalarını isə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir;

2.3. Sistemlə lisenziya və icazələr (o cümlədən uyğunluğunun qiymətləndirilməsi ilə bağlı sertifikatlar və şəhadətnamələr), gömrük, vergi, qida təhlükəsizliyi, kənd təsərrüfatı, avtomobil nəqliyyatı sahələrində dövlət xidmətləri göstərilməsi, vergi ödəyicilərinin dövlət qeydiyyatı və uçotu, fiziki şəxslərin identikləşdirilməsi, ölkəyə gəlməsi, qeydiyyatı və ölkədən getməsi ilə bağlı informasiya sistemləri və ehtiyatları, habelə mülki aviasiya, dəmir yolları və dəniz nəqliyyatı sahələrində fəaliyyət göstərən qurumların, eləcə də ödənişlər aparılması, mülki məsuliyyətin və daşınan yüklərin sığortalanması üzrə ödəniş xidməti təchizatçılarının (kredit təşkilatlarının) və sığorta təşkilatlarının informasiya sistemləri və ehtiyatları arasında Azərbaycan Respublikasının normativ hüquqi aktları (məlumatların tərkibinin və məlumat mübadiləsinin hüquqi əsaslarını tənzimləyən) ilə müəyyən edilmiş hədlərdə məlumat mübadiləsi Elektron Hökumət İnformasiya Sistemi üzərindən aparılır.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. doqquz ay müddətində:

3.1.1. Sistemin əsasnaməsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. beynəlxalq təcrübə nəzərə alınmaqla, idxal-ixrac, tranzit, nəqliyyat və logistika sahələrində fəaliyyətin rəqəmsallaşdırılmasının təmin olunması məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin təklifləri əsasında Sistemin fəaliyyətinin təmin olunması üçün zəruri tədbirlər görsün;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

4.1. Sistemin aparılması, fəaliyyətinin təşkili və inkişafı üçün zəruri tədbirlər görsün;

4.2. Sistemin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün;

4.3. Sistem vasitəsilə aparılan əməliyyatlara dair aylıq hesabatı onunla inteqrasiya olunan informasiya sistemlərinin və ehtiyatlarının mülkiyyətçilərinə (sahiblərinə və ya operatorlarına) təqdim etsin.

5. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2025-ci il*

# Avstraliya İttifaqının Baş naziri zati-aliləri cənab Entoni Albanizə

Hörmətli cənab Baş nazir!

Sidneydə Hanuka bayramı ilə əlaqədar keçirilən mərasim zamanı törədilmiş terror aktı nəticəsində çox sayda insanın həlak olması və yaralanması barədə xəbər bizi olduqca sarsıtdı.

Biz dinc insanlara qarşı yönəlmiş bu dəhşətli terror əməlindən hədsiz dərəcədə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Avstraliya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2025-ci il*

# "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

**Müşahidə Şurasının üzvləri:**

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktorunun müavini.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2025-ci il*

# A.Ə.Hüseynin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Aida Əli qızı Hüseyn Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2025-ci il*

# Vahid Cümşüd oğlu Axundov



Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Tanınmış ictimai xadim, iqtisad elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar elm xadimi və Əməkdar dövlət qulluqçusu Vahid Cümşüd oğlu Axundov 2025-ci il dekabrın14-də ömrünün 84-cü ilində vəfat etmişdir.

Vahid Axundov 1942-ci il fevralın 2-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1959-1964-cü illərdə Azərbaycan Neft və Kimya İnstitutunda mühəndis-iqtisadçı ixtisası üzrə ali təhsil almışdır.

Vahid Axundov 1969-cu ildə iqtisad elmləri namizədi və 1981-ci ildə iqtisad elmləri doktoru alimlik dərəcələrini, 1986-cı ildə professor elmi adını almışdır.

Əmək fəaliyyətinə 1959-cu ildən başlayan Vahid Axundov 1964-cü ilədək Bakı dəri-qalantereya fabrikində və Bakı avtomobil ehtiyatı hissələri zavodunda müxtəlif işlərdə çalışmışdır. O, 1965-1966-cı illərdə Azərbaycan Respublikası Dövlət Plan Komitəsində iqtisadçı, 1966-1970-ci illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda böyük və baş iqtisadçı, 1970-1987-ci illərdə Azərbaycan Respublikası Dövlət Plan Komitəsinin Elmi Tədqiqat İqtisadiyyat və Planlaşdırma İnstitutunda şöbə müdiri, elmi işlər üzrə direktor müavini və direktor, 1987-1991-ci illərdə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda elmi işlər üzrə prorektor vəzifələrini tutmuşdur.

Vahid Axundov 1991-1993-cü illərdə Azərbaycan Respublikası Prezidentinin müşaviri və Azərbaycan Respublikasının iqtisadi siyasət üzrə Dövlət müşaviri, 1993-cü ilin may-noyabr aylarında Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadi siyasət və beynəlxalq əməkdaşlıq mərkəzinin direktoru - Baş nazirin baş iqtisadi müşaviri olmuşdur. O, 1993-cü ildən 2017-ci ilədək Azərbaycan Respublikasının İqtisadi siyasət məsələləri üzrə Dövlət müşaviri vəzifəsini icra etmişdir.

Vahid Axundov uzun illər Azərbaycanın milli maraqlarının qorunması naminə bilik və bacarığını əsirgəməyərək, peşəkarlığı və təşəbbüskarlığı sayəsində ölkədə iqtisadi islahatların uğurla aparılmasında, iqtisadiyyatın bütün sahələrinin dinamikliyinin təmin olunmasına yönəlmiş dövlət proqramları və konsepsiyalarının hazırlanıb müvəffəqiyyətlə gerçəkləşdirilməsində təqdirəlayiq fəaliyyət göstərmişdir. Öz işində hər zaman obyektivlik və prinsipiallıq nümayiş etdirməklə dövlətçilik mövqeyindən çıxış etməsi ona dərin hörmət və ehtiram qazandırmışdır. Vahid Axundovun tədqiqatçı alim kimi iqtisadiyyatın ayrı-ayrı problemlərinin öyrənilməsinə dair 150-dən artıq sanballı araşdırması mütəxəssislər tərəfindən rəğbətlə qarşılanmışdır.

Vahid Axundovun dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyəti və iqtisad elminin inkişafındakı xidmətləri yüksək qiymətləndirilmişdir. O, 1992-ci ildə "Əməkdar elm xadimi", 2006-cı ildə "Əməkdar dövlət qulluqçusu" fəxri adlarına layiq görülmüş, 2007-ci ildə "Şöhrət", 2012-ci ildə "Şərəf" ordenləri ilə təltif edilmişdir.

Tanınmış ictimai xadim, bacarıqlı təşkilatçı və təvazökar insan Vahid Cümşüd oğlu Axundovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

***Allah rəhmət eləsin!***

***İlham ƏLİYEV, Mehriban ƏLİYEVA, Əli ƏSƏDOV, Sahibə QAFAROVA, Samir NURİYEV, Eldar ƏZİZOV, Şahmar MÖVSÜMOV, Natiq ƏMİROV, Mikayıl CABBAROV, Azər ƏMİRASLANOV, Ziyad SƏMƏDZADƏ***

# 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA) Şurasının 2025-ci il 2 oktyabr tarixli iclasında 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının (FIFA U-20 World Cup) 2027-ci ildə Azərbaycanda və Özbəkistanda keçirilməsi barədə qərar qəbul edilmişdir.

Azərbaycanın 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatı kimi mötəbər bir idman tədbirinə evsahibliyi etməsi onun idman ölkəsi kimi artan nüfuzunun daha da möhkəmlənməsinə, gələcəkdə belə mühüm layihələrin respublikamızda yüksək səviyyədə təşkilinə müsbət təsir göstərəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının 2027-ci ildə Azərbaycanda layiqincə keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Samir Şərifov - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsi sədrinin müavini**

Azərbaycan Respublikasının gənclər və idman naziri

**Təşkilat Komitəsinin üzvləri:**

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti

Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının prezidenti

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı.

2. 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə bağlı Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA) ilə əlaqələndirmə işlərinin aparılması Azərbaycan Futbol Federasiyaları Assosiasiyasına həvalə edilsin.

3. Təşkilat Komitəsi 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə bağlı zəruri məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,15 dekabr 2025-ci il*

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin aşağıdakı əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələr verilsin:

**“general-leytenant” ali hərbi rütbəsi**

general-mayor Adil Ələsgər oğlu Abdullayevə

**“general-mayor” ali hərbi rütbəsi**

polkovnik Fərhad Nəriman oğlu Səmədova

polkovnik Seymur Taleh oğlu Qaraşova

**“daxili xidmət general-mayoru” ali xüsusi rütbəsi**

daxili xidmət polkovniki Vaqif Tofiq oğlu İbrahimova.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2025-ci il*

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Mirzəyev Rəfail Xalid oğlu- general-leytenant

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Abdullayev Qüdrət Həsən oğlu - general-mayor

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Adıgözəlov Elçin Şirxan oğlu - general-mayor

Məmmədov Vidadi Məmmədoğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Hüseynov Xaliq Tapdıq oğlu - polkovnik

Musayev Füzuli İsa oğlu - polkovnik

Səmədov Hikmət Vasif oğlu - polkovnik

Nəcəfov Peyman Mehman oğlu - polkovnik-leytenant

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Əsədov Elxan Xəlil oğlu

**"Tərəqqi" medalı ilə**

Əhmədov Eldar Paşa oğlu

Əmrahov Azad Tahir oğlu

Quliyev Elçin Malik oğlu

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Mirzəyev Şahin Əyyub oğlu - general-mayor

Məmmədli Cavid Qafar oğlu - polkovnik

Ağasiyev Ağasi Murad oğlu - polkovnik-leytenant

Cəfərov Natiq Oqtay oğlu - polkovnik-leytenant

Əsgərov Vüqar Nadirəli oğlu - polkovnik-leytenant

Əliyev Rüfət Zöhrab oğlu - mayor

Rzayev Akif Məhərrəm oğlu - mayor

Qalayev Zamin Zelan oğlu - gizir

Məmmədova Sevinc Xəzər qızı - gizir

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Əmiraslanov Xəzər Kamal oğlu

Əsədov Rüfət Nadir oğlu

İbrahimov Elçin Eldəniz oğlu

Qurbanov Kamal Vaqif oğlu

Nəsirov İsmayıl Rauf oğlu

Ömərli Vüsalə Saleh qızı

**2-ci dərəcəli "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Fəradov Rüfət Lətif oğlu - daxili xidmət general-mayoru

**3-cü dərəcəli "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Nəsirli Mehmandar İslam oğlu - daxili xidmət polkovnik-leytenantı

Zeynalov Famil Tofiq oğlu - daxili xidmət baş leytenantı

Cəfərov Ehtiram Fazil oğlu - daxili xidmət baş çavuşu

Əkbərov Azər Valeh oğlu - daxili xidmət baş çavuşu

Ələskərov Murad Kamal oğlu - daxili xidmət baş çavuşu

Həsənov Cəsarət Ziyəddin oğlu - daxili xidmət baş çavuşu

Həsənov Ramil Amil oğlu - daxili xidmət baş çavuşu

Xəlilov Ramil Ələkbər oğlu - daxili xidmət baş çavuşu

İmanov Yəhya Səfər oğlu - daxili xidmət baş çavuşu

Rzayev Məhəmməd Amil oğlu - daxili xidmət baş çavuşu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2025-ci il*

# Baş prokuror Qətərdə işgüzar səfərdədir

**Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 14-də Qətər Dövlətinin paytaxtı Doha şəhərinə rəsmi səfərə gedib.**



Səfər çərçivəsində baş prokuror qlobal korrupsiyaya qarşı mübarizədə mükəmməllik mükafatının təqdimetmə mərasimində iştirak edib.

Tədbirdə Qətər Dövlətinin əmiri Şeyx Təmim bin Həməd Al Tani, BMT-nin və Qətər Dövlətinin yüksəksəviyyəli rəsmiləri, müxtəlif ölkələrin nümayəndə heyətləri və beynəlxalq ekspertlər iştirak ediblər.

Məlumat üçün qeyd edilməlidir ki, 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlığa qarşı İdarəsinin (UNODC) dəstəyi ilə təsis edilən mükafatın məqsədi korrupsiyaya qarşı mübarizənin vacibliyini təbliğ, BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasının implementasiyasını təşviq və bu sahədə nailiyyətləri ictimaiyyətə təqdim etməkdir.

Tədbir çərçivəsində baş prokuror Qətər Dövlətinin Qanunun Aliliyi və Korrupsiyaya qarşı Mübarizə Mərkəzinin (ROLACC) sədri və qeyd edilən mükafatın Himayəçilər Şurasının sədri Ali Al Marri arasında görüş keçirib.

Görüşdə ölkələrimiz arasında siyasi rəhbərliklər səviyyəsində dostluq münasibətlərindən qaynaqlanan yüksək dinamika ilə inkişaf edən qarşılıqlı əlaqələr vurğulanıb və korrupsiyaya qarşı mübarizə sahəsində təcrübə mübadiləsinin vacibliyi qeyd edilib, həmçinin birgə layihələr müzakirə olunub.

Səfər çərçivəsində baş prokuror həmçinin BMT baş katibinin terrorçuluqla mübarizə üzrə müavini Alexander Zuyevlə görüşdə tərəflər arasında qarşılıqlı maraq kəsb edən bir sıra məsələlər üzrə müzakirələr aparıb. Bundan başqa, Azərbaycanın terrorçuluqla, korrupsiyaya qarşı mübarizə ilə bağlı bir sıra təşəbbüslərinin BMT tərəfindən dəstəkləndiyi bildirilib.

Görüşlərdə ölkəmizin Qətər Dövlətindəki fövqəladə və səlahiyyətli səfiri Adış Məmmədov da iştirak edib.

Səfər çərçivəsində baş prokuror Kamran Əliyev həmçinin ölkəmizin Qətər Dövlətindəki səfirliyini ziyarət edib, səfirlik əməkdaşları ilə görüşüb.

Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyətinin Doha şəhərində fəaliyyətə başlayacaq BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasına Tərəf Dövlətlərin 11-ci Assambleyasında iştirak edəcəyi gözlənilir.

# Dövlət Gömrük Komitəsinin sədri Zaqatalada vətəndaşlarla görüşüb

**Dövlət Gömrük Komitəsinin (DGK) sədri Şahin Bağırov Zaqatala rayon Heydər Əliyev Mərkəzində Zaqatala, Balakən, Qax, Şəki və Oğuz rayonlarından olan vətəndaşlarla görüşüb.**



Komitədən AZƏRTAC-a bildirilib ki, DGK sədri görüşdən öncə Zaqatala şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Zaqatala, Balakən, Qax, Şəki və Oğuz rayonlarının sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Görüş zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

# Ankarada Dünya Türk Dili Ailəsi Günü münasibətilə panel müzakirələr keçirilib

AZƏRTAC xəbər verir ki, tədbir Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, UNESCO və Atatürk Mədəniyyət, Dil və Tarix üzrə Ali Şuranın dəstəyi ilə Türk Dilçilik Cəmiyyəti tərəfindən təşkil edilib.

Türk Dilçilik Cəmiyyətinin sədri, professor Osman Mert çıxışında türk xalqlarının kimliyinin təməli kimi dilə hörmətlə yanaşmağın əhəmiyyətini vurğulayıb, Türk Dövlətləri Təşkilatı məkanında dil sahəsində sıx əməkdaşlığın vacibliyini qeyd edib.

UNESCO yanında Türkiyə Milli Komissiyasının rəhbəri, professor Ocan Oğuz UNESCO-nun Səmərqənddə keçirilmiş iclasının gündəliyinə Dünya Türk Dili Ailəsi Gününün elan edilməsi ilə bağlı qərarın salınmasına töhfə verən işlərdən danışıb.

Atatürk Mədəniyyət, Dil və Tarix üzrə Ali Şuranın rəhbəri, professor Derya Örs mədəniyyət və dilin dövlətin "yumşaq gücünün" vacib komponentləri olduğunu qeyd edib.

"Dilə nə qədər çox hörmət edilərsə, xalq və dövlət bir o qədər hörmətli olar. Türk dillərinin gənclər arasında təbliği bu gün xüsusilə vacibdir", - deyə Derya Örs ortaq türk əlifbasının qəbul edilməsinin zəruriliyini bildirib.

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Sərdar Çam Prezident Rəcəb Tayyib Ərdoğanın mədəniyyət sahəsi də daxil olmaqla, türk dövlətlərinin inteqrasiyasına töhfəsini vurğulayıb. Nazir müavini türk dövlətləri arasında mədəniyyətlərarası əlaqələrin daha da möhkəmlənəcəyinə əminliyini bildirib.

Tədbir panel müzakirələri ilə davam etdirilib.

## "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 66 nömrəli qərarı ilə təsdiq edilmiş "Ağır və yüngül xəsarət növlərinin Siyahısı"nın Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərə şamil edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 oktyabr tarixli 158 nömrəli Qərarının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 385** **Bakı şəhəri, 10 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 16 oktyabr tarixli 560 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 78; 2025, № 2, maddə 187, № 9, maddə 868) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasının dövlət sərhədində profilaktik zolaq və baytar-sanitar rejiminə dair Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.3-cü bəndin "Qeyd" hissəsinin ikinci abzasında "olan səfirliyi" sözləri "fəaliyyət göstərən diplomatik nümayəndəliyi və ya konsulluğu" sözləri ilə əvəz edilsin;

1.2. 4.1-ci bəndin ikinci abzası ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 may tarixli 98 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu , 2001, № 5, maddə 348 (Cild I) ilə təsdiq edilmiş "Uşaqlar üçün valideynlərinin aliment tutulan, manat və xarici valyuta ilə aldıqları əmək haqqının və (və ya) başqa gəlirlərinin növləri"nə aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

"6-1. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarına verilən vergiyə və digər icbari ödənişlərə cəlb olunmayan ödənişlərdən aliment tutulmur.".

3. "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 mart tarixli 40 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 254 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 612) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş "Dövlət sirri təşkil edən məlumatlardan istifadə edilməsi, informasiyanı mühafizə vasitələrinin yara dılması, habelə dövlət sirrinin mühafizəsi üzrə tədbirlər görülməsi və (və ya) xidmətlər göstərilməsi ilə bağlı işlərin icrasına müəssisə, idarə və təşkilatların buraxılması üçün icazənin alınması Qaydası"nın 2-ci hissəsinin dördüncü abzasına "nümayəndəliklərində" sözündən sonra ", habelə konsulluqlarında" sözləri əlavə edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət sirrinin yayılmasının qarşısının alınması Qaydası"nın 12-ci hissəsi üzrə:

3.2.1. altıncı abzasa "nümayəndəliklərinə" sözündən sonra "və konsulluqlarına" sözləri əlavə edilsin;

3.2.2. yeddinci abzasda "ölkədəki diplomatik nümayəndəliklərinə" sözləri "ölkədə fəaliyyət göstərən diplomatik nümayəndəliyinə və ya konsulluğuna" sözləri ilə əvəz edilsin.

4. "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1230 (Cild I); 2024, № 1, maddə 116, № 2, maddə 208, № 5 (II kitab), maddə 612; 2025, № 4 (II kitab), maddə 406, № 5, maddə 520; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 oktyabr tarixli 316 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Qərarla təsdiq edilmiş "İxrac nəzarətinin aparılması Qaydaları"nın 2.2-ci bəndinə "nümayəndəlikləri" sözündən sonra "və konsulluqları" sözləri əlavə edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş "İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xarici iqtisadi əlaqələrin həyata keçirilməsinə xüsusi icazənin verilməsindən əvvəl və sonra yoxlamaların aparılması Qaydası"nın 2.3-cü bəndinə və 3.1.1.2-ci yarımbəndinin birinci cümləsinə "nümayəndəliklərinin" sözündən sonra "və konsulluqlarının" sözləri əlavə edilsin;

4.3. həmin Qərarla təsdiq edilmiş "İkili təyinatlı mallardan (işlərdən, xidmətlərdən, əqli fəaliyyətin nəticələrindən) sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.4 -cü bəndinə "nümayəndəlikləri" sözündən sonra "və konsulluqları" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 13 iyul tarixli 110 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 736 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin blanklarının ciddi hesabat sənədi kimi uçotu Qaydaları"nın 3.7-ci bəndində "xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərində" sözləri "diplomatik nümayəndəliklərində və konsull uqlarında" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 44 (Cild I); 2024, № 4, maddə 453, № 9, maddə 1085; 2025, № 8, maddə 806; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 5 noyabr tarixli 332 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası"nda "Qeydlər"in 1-ci hissəsinin ikinci cümləsində "səfir vəzifəsində çalışan şəxslərə, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəliklərinin (Baş konsulluqlar daxil olmaqla) Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən rəhbərlərinə" sözləri "səfirlərə, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin rəhbərlərinə və baş konsullara" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 sentyabr tarixli 131 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 735 (Cild I); 2024, № 2, maddə 209) ilə təsdiq edilmiş "İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)"nın 1.4-cü bəndinə "nümayəndəlikləri," sözündən sonra "konsulluqları," sözü əlavə edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013 -cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1223 (Cild I); 2024, № 2, maddə 217, № 3, maddə 314, № 4, maddə 468, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.3-cü bəndin birinci abzasında "diplomatik xidmət əməkdaşları və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslər" sözləri "diplomatik xidmət orqanı əməkdaşları" sözləri ilə, "xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin və konsulluqlarının mühafizəsini həyata keçirən hərbi qulluqçular" sözləri "diplomatik nümayəndəliklərinin və konsulluqlarının mühafizəsini həyata keçirən şəxslər" sözləri ilə, "xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin və konsulluqlarının" sözləri isə "diplomatik nümayəndəliklərin və konsulluqların" sözləri ilə əvəz edilsin və həmin abzasa "təqdim edilməklə" sözlərindən sonra ("Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 14.2.2.1-ci, 14.2.2.2-ci və 14.2.3.1-ci maddələrində nəzərdə tutulan vəzifələrə münasibətdə vəzifələrə təyin edilmə və həmin vəzifələrdən azad edilmə (geri çağırılma) ilə bağlı müvafiq sənədlər əsasında)" sözləri əlavə edilsin;

8.2. aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsinin şamil edildiyi şəxslərin xaricdə işlədikləri dövrdə əldə etdikləri vəsait və əmlak Azərbaycan Respublikasına bu Qaydaların 2.3-cü bəndinin birinci abzasına uyğun olaraq gətirilir.".

9. "Ağır, az ağır və yüngül xəsarət növlərinin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 avqust tarixli 269 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 1003 (Cild I) ikinci abzası 1-ci hissə hesab edilsin və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Siyahı Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarına da şamil edilir.".

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 13 oktyabr tarixli 429 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1892 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndəsi və onun aparatı haqqında Əsasnamə"nin 6.2-ci bəndində "9.1-ci maddəsində" sözləri "15.4-cü maddəsində" sözləri ilə əvəz edilsin.

11. "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli, 7 noyabr tarixli 333 nömrəli və 1 dekabr tarixli 357 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

11.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"nın 1.4.2.2.4.3-cü yarımbəndində "konsulluq" sözü "konsul" sözü ilə əvəz edilsin;

11.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə" üzrə:

11.2.1. "1.2.0. "Beynəlxalq münasibətlər" köməkçi bölməsinə "nümayəndəliklərin" sözündən sonra "və konsulluqların" sözləri əlavə edilsin;

11.2.2. "1.2.3. "Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları" paraqrafı aşağıdakı redaksiyada verilsin:

"1.2.3. "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları" paraqrafına Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının saxlanılması ilə bağlı xərclər daxildir.";

11.2.3. "6.1.2. "Əmək qabiliyyətinin itirilməsi", "6.1.3. "Yaşa görə" və "6.1.4. "Qəyyumluq" paraqraflarının ikinci abzaslarına "xüsusi" sözünd ən sonra "və diplomatik" sözləri əlavə edilsin;

11.3. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı" üzrə:

11.3.1. "211300. Diplomatik və ticarət nümayəndəliklərində çalışan işçilərin əməkhaqqı, təmsilçilik və birdəfəlik yerləşmə müavinəti" paraqrafında "Diplomatik" sözü "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərdə, konsulluqlarında" sözləri ilə əvəz edilsin və həmin paraqrafa "müavinəti" sözündən sonra ", habelə 18 yaşına çatmamış uşaqlarına və övladlığa götürdüyü şəxslərə görə aylıq müavinət" sözləri əlavə edilsin;

11.3.2. "221700. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə malların satın alınması" paraqrafında, "222140. Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə cari təmir xərcləri", "222350. Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə rabitə xidmətləri haqlarının ödənilməsi" maddələrində "və" sözü "nümayəndəlikləri və konsulluqları, habelə" sözləri ilə əvəz edilsin;

11.4. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə" üzrə:

11.4.1. "211000. "Əməkhaqqı" köməkçi bölməsində "Diplomatik" sözü "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində, konsulluqlarında" sözləri ilə əvəz edilsin və həmin bölməyə "müavinəti" sözündən sonra ", habelə 18 yaşına çatmamış uşaqlarına və övladlığa götürdüyü şəxslərə görə aylıq müavinət" sözləri əlavə edilsin;

11.4.2. "211300. "Diplomatik və ticarət nümayəndəliklərində çalışan işçilərin əməkhaqqı, təmsilçilik və birdəfəlik yerləşmə müavinəti" paraqrafında "Diplomatik" sözü "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində, konsulluqlarında" sözləri ilə əvəz edilsin və həmin paraqrafa birinci halda "müavinəti" sözündən sonra ", habelə 18 yaşına çatmamış uşaqlarına və övladlığa götürdüyü şəxslərə görə aylıq müavinət" sözləri, "diplomatik" sözündən sonra "nümayəndəlikləri, konsulluqları" sözləri, ikinci halda "müavinəti" sözündən sonra isə ", habelə qəbul edilən dövlətdə onlarla birlikdə yaşayan 18 yaşına çatmamış uşaqlarına və övladlığa götürdüyü şəxslərə görə aylıq müavinət" sözləri əlavə edilsin;

11.4.3. "221000. "Malların satınalınması" köməkçi bölməsinə, "221700. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə malların satınalınması" paraqrafına (hər iki halda), "222100. "Cari təmir" paraqrafının üçüncü cümləsinə, "222140. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə cari təmir xərcləri" maddəsinə (hər iki halda), "222300. "Telekommunikasiya və poçt rabitəsi xidmətləri haqqının ödənilməsi" paraqrafına, "222350. "Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə rabitə xidmətləri haqlarının ödənilməsi" maddəsinə (hər iki halda) və "311900. "Sair torpaq, tikili və avadanlıqlar" paraqrafına "və ticarət" sözlərindən əvvəl "nümayəndəlikləri, konsulluqları" sözləri əlavə edilsin;

11.4.4. "222290. "Digər kommunal xidmətlərin haqqının ödənilməsi" və "222520. "Xarici ezamiyyətlər" maddələrində "səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərinə" sözləri "diplomatik nümayəndəliklərinə, konsulluqlarına və xarici ölkələrdə ticarət nümayəndəliklərinə" sözləri ilə əvəz edilsin;

11.4.5. "222442. "Sanitariya-gigiyena və digər xidmət haqqı xərcləri" yarımbəndinə "nümayəndəliklərinə" sözündən sonra "və konsulluqlarına" sözləri əlavə edilsin;

11.4.6. "222500. "Ezamiyyə xərcləri" paraqrafının birinci cümləsində "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinə və konsulluqlarına işə təyin olunan, bu orqanlarda fəaliyyətini başa çatdırıb geri qayıdan əməkdaşın və onun ailə üzvlərinin, habelə diplomatik xidmət əməkdaşının illik məzuniyyətlə bağlı Azərbaycan Respublikasına eyni vaxtda gəlməsi və işlədiyi dövlətə qayıtması üçün nəqliyyat üzrə xərclər" sözləri "müvafiq vəzifəyə təyin olunan və geri çağırılan, habelə xidmətinə xitam verilən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində, konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının və "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 13.15-ci, 13.17-ci maddələrində nəzərdə tutulan şəxslərin xidmət keçdiyi dövlətə və onun müvafiq şəhərinə getmək və Azərbaycan Respublikasına qayıtmaqla əlaqədar tutduğu vəzifə və ailə üzvlərinin sayı nəzərə alınmaqla nəqliyyat xərcləri, habelə həmin şəxslərin əmək məzuniyyəti ilə (növbəti məzuniyyətlə) əlaqədar onların və ailə üzvlərinin, habelə həmin şəxslərin əmək məzuniyyətinə (növbəti məzuniyyətə) çıxıb-çıxmamasından asılı olmayaraq ailə üzvlərinin ildə bir dəfə Azərbaycan Respublikasına gəlmək və xidmət keçdiyi dövlətə və onun müvafiq şəhərinə getmək həddində nəqliyyat xərcləri" sözləri ilə əvəz edilsin;

11.4.7. "222920. "İstehlakyönlü müxtəlif xidmətlər" maddəsində "səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərinin əməkdaşlarının və onların" sözləri "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində, konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının, habelə "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 13.15-ci,

13.17-ci maddələrində nəzərdə tutulan şəxslərin və onlarla birlikdə yaşayan" sözləri ilə əvəz edilsin;

11.4.8. "222990. "Sair xərclər" maddəsinə "kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə bağlı xərclər," sözlərindən sonra "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 13.16-cı maddəsində nəzərdə tutulan şəxslərə, onlarla birlikdə yaşayan ailə üzvlərinə verilən təminat və kompensasiyalarla bağlı xərclər, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının mühafizəsi ilə bağlı bütün növ xərclər" sözləri əlavə edilsin;

11.4.9. "312900. "Sair torpaq, tikili və avadanlıqların əsaslı təmiri" paraqrafına "və ticarət" sözlərindən əvvəl "nümayəndəliklərinin, konsulluqlarının" sözləri əlavə edilsin;

11.5. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin proqram təsnifatı"nın 6.1.10-cu sırasında "Yerli diplomatların" sözləri "Diplomatik xidmət əməkdaşlarının" sözləri ilə əvəz edilsin.

12. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ağır və yüngül xəsarət növlərinin Siyahısı"nın Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərə şamil edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 oktyabr tarixli 158 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 875 (Cild I) ləğv edilsin.

*Əli ƏSƏDOV,*
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 6 dekabr tarixli 193 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 388** **Bakı şəhəri, 10 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 6 dekabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1242 (Cild I); 2025, № 5, maddə 518) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "I. Büdcədən maliyyələşdirilən qurumlar: "bölməsi üzrə:

1.1. 1-ci hissə ləğv edilsin;

1.2. 10-cu hissədən "və Uşaq Sosial-Psixoloji Reabilitasiya və İdman Sağlamlıq Mərkəzi (Buzovna qəsəbəsi)" sözləri çıxarılsın;

1.3. 44-cü hissənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 45-55-ci hissələr əlavə edilsin:

"45. "Astara Gənclər evi" sosial xidmət müəssisəsi;

46. "Füzuli Gənclər evi" sosial xidmət müəssisəsi;

47. "Goranboy Gənclər evi" sosial xidmət müəssisəsi;

48. "Kürdəmir Gənclər evi" sosial xidmət müəssisəsi;

49. "Lənkəran Gənclər evi" sosial xidmət müəssisəsi;

50. "Sabirabad Gənclər evi" sosial xidmət müəssisəsi;

51. "Siyəzən Gənclər evi" sosial xidmət müəssisəsi;

52. "Zərdab Gənclər evi" sosial xidmət müəssisəsi;

53. "Pirallahı Gənclər evi" sosial xidmət müəssisəsi;

54. "Quba Gənclər evi" sosial xidmət müəssisəsi;

55. "Tərtər Gənclər evi" sosial xidmət müəssisəsi.".

2. "II. Təsərrüfathesablı qurumlar:" bölməsi üzrə:

2.1.3-cü hissədə "Heydər Əliyev adına İdman Konsert Kompleksi" sözləri "Heydər Əliyev adına İdman-Konsert Kompleksi" MMC" sözləri ilə əvəz edilsin;

2.2. 6-cı hissədə "Respublika Olimpiya Mərkəzi" sözləri "Bakı Atletika Mərkəzi" MMC" sözləri ilə əvəz edilsin;

2.3. 21-ci hissədə "Kür" Olimpiya Tədris İdman Mərkəzi" sözləri "Kür" Olimpiya Tədris İdman Mərkəzi" MMC" sözləri ilə əvəz edilsin;

2.4. 33-cü hissədə "Şəhər" sözü "Sumqayıt şəhər" sözləri ilə əvəz edilsin;

2.5. 67-ci hissənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 68-76-cı hissələr əlavə edilsin:

"68. "Bakı Olimpiya İdman Kompleksi" MMC;

69. "Neftçala Olimpiya İdman Kompleksi" MMC;

70. "Maştağa Olimpiya İdman Kompleksi" MMC;

71. "Salyan Olimpiya İdman Kompleksi" MMC;

72. "Boradigah İdman Zalı" MMC;

73. "Voleybol Mərkəzi" MMC;

74. "Şüvəlan Ağırlıqqaldırma Mərkəzi" MMC;

75. "Qarabağ İdman Obyektləri" MMC;

76. Bakı Şəhər Halqası Əməliyyat Şirkəti.".

3. "III. Publik hüquqi şəxslər:" bölməsi üzrə:

3.1. 2-ci hissədə "Milli İdman Tibb və Reabilitasiya İnstitutu" sözləri "Milli İdman Tibb və Reabilitasiya Elmi-Praktiki İnstitutu" sözləri ilə əvəz edilsin;

3.2. 2-ci hissəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin bölməyə aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3. Azərbaycan İdman Akademiyası.".

*Əli ƏSƏDOV,*
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 iyun tarixli 144 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 389** **Bakı şəhəri, 10 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"nin 16-cı hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 iyun tarixli 144 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 572 (Cild I); 2024, № 3, maddə 309) 2-ci hissəsinin "Kollegiyanın üzvləri:" bölməsinin 8-ci abzasından "Dövlət Bədən Tərbiyəsi və" sözləri çıxarılsın.

*Əli ƏSƏDOV,*
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 26oktyabr tarixli 161 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yüksək İdman Ustalığı Məktəbinin Nümunəvi Əsasnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 390** **Bakı şəhəri, 10 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 26 oktyabr tarixli 161 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 878 (CildI) ilə təsdiq edilmiş "Yüksək İdman Ustalığı Məktəbinin Nümunəvi Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 5.1-ci bənddən "və Respublika İdman Tibb Mərkəzi" sözləri çıxarılsın.

2. 5.2-ci bənddə "Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının" sözləri "Azərbaycan İdman Akademiyasının" sözləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
***Azərbaycan Respublikasının Baş naziri***

## "Pambıq qəbulu qəbzinin forması və verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 15 oktyabr tarixli 177 nömrəli Qərarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 391** **Bakı şəhəri, 11 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Pambıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 218-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 439 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Pambıq qəbulu qəbzinin forması və verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 15 oktyabr tarixli 177 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, №10, maddə 908 (Cild I) ləğv edilsin.

*Əli ƏSƏDOV,*
***Azərbaycan Respublikasının Baş naziri***

# Fövqəladə Hallar Nazirliyi – 20 il

**"Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan qaldırmaqdan daha asandır".**

*Heydər ƏLİYEV*
*Ümummilli Lider*



# Azərbaycan vətəndaşları heç bir fövqəladə hadisənin qarşısında tək deyillər

*Əvvəli 1-ci səh.*

Ulu Öndərin ordu quruculuğu istiqamətində apardığı siyasəti, həyata keçirdiyi islahatları müasir dövrün tələblərinə uyğun davam etdirən Prezident İlham Əliyev ölkənin müdafiə qüdrətinin möhkəmləndirilməsinə, Silahlı Qüvvələrimizin ən müasir silah-sursatla, hərbi avadanlıqlarla təmin olunmasına xüsusi diqqət yetirməklə qələbə əzmində olan ordu formalaşdırdı. Nəticədə qüdrətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə cəmi 44 gün davam edən Vətən müharibəsində tətbiq etdiyi dünya hərb tarixində misli görünməmiş unikal döyüş taktikası ilə hətta ən mükəmməl silahlı qüvvələrə malik olan supergücləri belə heyrətləndirdi, "Dəmir yumruq" əməliyyatı nəticəsində 30 ilə yaxın müddətdə Ermənistanın işğal altında saxladığı dədə-baba torpaqlarımızı azad etdi. Haqqın və ədalətin bərpa edilməsi naminə başlanan müharibə Xalq-Prezident-Ordu birliyinin yenilməz güc olduğunu bütün dünyaya göstərdi. 2023-cü il sentyabrın 19-20-də keçirilən və cəmi 23 saat davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində erməni separatizminə son qoyuldu, Azərbaycanın dövlət suverenliyi tam şəkildə bərpa olundu və ölkə ərazisinin hər qarışında Konstitusiyanın qüvvəsi təmin edildi. 2023-cü il oktyabrın 15-də isə Müzəffər Ali Baş Komandan İlham Əliyev Ağdərə, Xocavənd, Xankəndi və Xocalı şəhərlərində Azərbaycanın Dövlət Bayrağını ucaltdı. Bununla da Azərbaycan Prezidenti bu vəzifəyə seçilməsinin 20-ci ildönümündə öz xalqına daha bir möhtəşəm qələbə sevincini yaşatdı.

Zəfərdən sonra dövlətimizin başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş rayonlarımıza ardıcıl səfərləri, Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı yenidənqurma, quruculuq-abadlıq işlərini şəxsən nəzarətdə saxlamaları nəticəsində ərazilərimiz sürətlə yenidən qurulur, dirçəldilir, tarixinə, mədəni irsinə, ənənələrinə, dini mirasına qovuşur, bu torpaqlara həyat geri qayıdır.

Tarixinin ən qüdrətli dövrünü yaşayan bugünkü Azərbaycan dövləti vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsini özünün ən ali vəzifələrindən hesab edir. Qüdrətli Azərbaycanın banisi, bütün dövrlərin ən böyük azərbaycanlısı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə təbii və texnogen hadisələrə çevik və uzaqgörən reaksiyası, faciə ilə üzləşmiş vətəndaşların yanında olması, dövlətin bütün resurslarını insanların düşdüyü çətin vəziyyətin aradan qaldırılmasına yönəltməsi Ulu Öndərin xalqın təhlükəsiz həyat və fəaliyyətinin təmin edilməsi işinə nə qədər əhəmiyyət verdiyini göstərirdi. Dahi rəhbər fəlakətlərin vaxtında xəbərdar edilməsi, qarşısının alınması, nəticələrinin effektli şəkildə aradan qaldırılması üçün aidiyyəti strukturlardan vəzifələrinə məsuliyyətli yanaşmağı hər zaman tələb edir, bu işi daim nəzarətində saxlayırdı. Respublikanın rəhbəri Heydər Əliyevin 1971-ci il oktyabrın 20-də indiki Neft Emalı Zavodunun 7-ci rezervuar stansiyasının 3-cü sexində güclü yanğın baş verən əraziyə gəlməsi, yanğınsöndürənlərlə birgə olması ölkəmizin yanğın təhlükəsizliyi tarixinə şanlı səhifələrdən biri kimi daxil olub. 1974-cü il sentyabrın 13-də Biləcəri dəmiryol stansiyasında sərnişin və yük qatarlarının toqquşması səbəbindən xeyli sayda insanın ölümü ilə nəticələnən hadisə zamanı dərhal əraziyə gələn respublikanın rəhbəri Heydər Əliyevin göstərişi ilə xəsarət alanlara yüksəkkeyfiyyətli tibbi yardım göstərildi, həlak olanların yaxınları diqqət və qayğı ilə əhatə olundu, onlara yardımlar edildi. 1981-ci ilin noyabr-dekabr aylarında İsmayıllı rayonunda baş vermiş güclü zəlzələ ilə əlaqədar hadisə yerinə gələn respublikanın rəhbəri zəlzələnin fəsadları ilə yerindəcə tanış oldu, təbii fəlakətdən zərərçəkənlərlə görüşdü, aidiyyəti qurumlara verdiyi tapşırıqlar əsasında qısa vaxt ərzində zərərçəkmişlər müvəqqəti çadırlarda yerləşdirildi, onlar lazımi ərzaq, içməli su və isti geyimlə təmin olundu, dağılan infrastrukturun bərpası sürətlə həyata keçirildi. 1986-cı il aprelin 26-da Çernobıl AES-də baş vermiş güclü partlayış, 1986-cı il avqustun 30-da Novorossiysk yaxınlığında sərnişin teploxodu "Admiral Naximov"la yük gəmisi "Pyotr Vasev"in toqquşması ilə əlaqədar yaranmış ağır nəticələrin aradan qaldırılmasında dahi rəhbər əsl lider, müdrik və uzaqgörən şəxsiyyət kimi tarixdə silinməz izlər qoydu.

1994-cü ilin mart və iyul aylarında Bakı Metropolitenində törədilmiş terror aktları, 1995-ci il oktyabrın 28-də tarixin ən böyük metro qəzası - "Ulduz" və "Nərimanov" stansiyaları arasındakı tuneldə qatarın alışması nəticəsində yaşanan faciələr, 2000-ci ilin mart ayında Bayıl yamacında torpaq sürüşməsi, həmin ilin noyabr ayında Bakı şəhərində baş vermiş zəlzələ və digər təbii və texnogen qəzalar zamanı Ulu Öndər dərhal hadisə yerinə gəlir, yaranmış vəziyyətlə yerində tanış olur, dövlətin bütün aidiyyəti strukturlarını yaranmış fövqəladə hadisənin nəticələrinin aradan qaldırılmasına səfərbər edirdi. Ümummilli Lider fövqəladə hallarla mübarizəyə məsul idarə və təşkilatların ayrı-ayrılıqda vəzifələrinin öhdəsindən istənilən səviyyədə gəlmək iqtidarında olmadığını və yalnız bu sahədə vahid dövlət orqanının yaradılması ilə mövcud vəziyyətin aradan qaldırılmasının mümkünlüyü ideyasını müdrik uzaqgörənliklə ortaya qoydu. Hökumətin əhalinin mühafizəsinə hazırlıq məsələsini bir daha gündəliyə gətirən Ulu Öndər 8 iyun 2001-ci ildə Rusiya Federasiyasının keçmiş fövqəladə hallar naziri Sergey Şoyqunu qəbul edərkən Azərbaycanda yaradılmasını nəzərdə tutduğu Fövqəladə Hallar Nazirliyinin əsas fəaliyyət istiqamətlərini bəyan etdi.

Fövqəladə Hallar Nazirliyi yaradılana qədər ölkəmizdə baş verən təbii fəlakətlərin və texnogen qəzaların qarşısının alınması, nəticələrinin aradan qaldırılması işləri müxtəlif qurumlar tərəfindən ayrı-ayrılıqda həyata keçirildiyi üçün pərakəndəliyə yol verilirdi. Eyni zamanda yanğın-xilasetmə əməliyyatlarında istifadə olunan texniki vasitələrlə təminat çox aşağı səviyyədə olmaqla qurumların balansındakı bina və qurğuların, xüsusi təyinatlı texnika və avadanlıqların xeyli hissəsi fiziki və mənəvi köhnəlməyə məruz qalmışdı.

Beləliklə, Heydər Əliyev siyasi kursunu uğurla davam və inkişaf etdirən, ölkə vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi məsələlərinə son dərəcə həssas yanaşan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2005-ci il dekabrın 16-da təbii və texnogen xarakterli fövqəladə halların vaxtında xəbərdar edilməsi, nəticələrinin çevik və effektli şəkildə aradan qaldırılması işinin vahid mərkəzdən idarə olunması məqsədilə Fövqəladə Hallar Nazirliyi yaradıldı. Bununla da fəlakətlərlə mübarizə işinin təşkilinə dövlət səviyyəsində sistemli yanaşmada yeni bir mərhələnin əsası qoyuldu. Əhalinin mülki müdafiəsinin, yanğın təhlükəsizliyinin, su hövzələrində insanların təhlükəsizliyinin təmini, xilasetmə və qəza-xilasetmə işlərinin təşkili, ölkə ərazisində radioaktiv tullantıların zərərsizləşdirilməsi, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyə və tikintidə təhlükəsizliyə nəzarət kimi mühüm vəzifələri yerinə yetirən bir neçə dövlət qurumunun Fövqəladə Hallar Nazirliyinin tabeliyinə verilməsi əhalinin və ərazilərin fövqəladə hallardan etibarlı müdafiəsinin təmin olunması sahəsində köklü dəyişikliklərin əsasını qoydu.

Fövqəladə Hallar Nazirliyi yaradılandan dərhal sonra fəaliyyətinin düzgün qurulması üçün vahid strategiya formalaşdırılaraq inkişafın ən vacib istiqamətləri müəyyənləşdirildi. Bunlar nazirliyin maddi-texniki təminatı və kadr potensialının gücləndirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, infrastrukturunun və beynəlxalq əlaqələrinin formalaşdırılması və digər istiqamətlər idi. Çünki qeyd etdiyim məsələlər həll edilmədən fövqəladə hallarla uğurlu mübarizədən söhbət gedə bilməzdi. Xüsusi vurğulamaq istəyirəm ki, məhz Prezident İlham Əliyev tərəfindən nazirliyə ilk gündən göstərilən diqqət və qayğı sayəsində bu məsələlər ən yüksək səviyyədə öz həllini tapdı, bütün mütərəqqi təşəbbüslər reallığa çevrildi.

Qısa müddətdə qanunvericilik bazasının təkmilləşdirilməsi üçün onlarca normativ hüquqi sənəd hazırlandı, qüvvədə olan qanunvericilik aktlarına əlavə və dəyişikliklər edildi, nazirliyin strukturuna daxil olan dövlət agentlikləri və xidmətlərin əsasnamələri, nazirliyin və onun müvafiq qurumlarının rəmzləri təsdiq olundu.

Fövqəladə Hallar Nazirliyi yaradılarkən tabeliyinə verilən qurumların balansında olan xüsusi təyinatlı texnika və avadanlıqların əksər hissəsi fiziki və mənəvi köhnəlməyə məruz qalmış və müasir tələblərə cavab vermirdi. Dövlət başçısının diqqət və qayğısı sayəsində qısa zamanda nazirliyin texnika parkının müasirləşdirilməsi istiqamətində ciddi addımlar atıldı, büdcə vəsaitləri hesabına dünyanın ən qabaqcıl ölkələrinin istehsalı olan müxtəlif təyinatlı maşın və avadanlıqlar alınaraq istismara verildi. Artıq müasir yanğınsöndürmə, qəza-xilasetmə texnika və avadanlıqlarının, müasir radiosistemli və çoxfunksiyalı xüsusi təyinatlı avtomobillərin, mina və hərbi sursatların aşkar edilməsi və zərərsizləşdirilməsi vasitələrinin, dənizdə xilasetmə əməliyyatları üçün yüksəksürətli və çoxfunksiyalı katerlərin, xilasedici qayıqların, axtarış gəmilərinin, yanğınsöndürmə və digər xilasetmə funksiyalarını həyata keçirən "Be-200ÇS" amfibiya-təyyarəsinin, helikopterlərin, tikintilərin mövcud texniki təhlükəsizlik norma və qaydalarına uyğun aparılmasına nəzarəti həyata keçirmək üçün səyyar laboratoriyaların, müasir dozimetrik, radiometrik və spektrometrik vasitələrin, fövqəladə hadisə baş vermiş müxtəlif ərazilərdə qısa müddət ərzində zərərçəkmiş və xəstələrə tam həcmli tibbi yardım göstərmək üçün mobil hospitalların, yüzlərlə müxtəlif təyinatlı digər xüsusi texniki vasitələrin imkanlarından iş prosesində bacarıqla istifadə edilir. Ötən illər ərzində alınan tək xüsusi texnikaların sayı 1134, o cümlədən yanğınsöndürmə avtomobillərinin sayı 789-dur. Bundan əlavə, yüzlərlə digər texniki vasitələr alınıb.

Qısa müddətdə Bakıda və bölgələrdə 9 regional mərkəzin fəaliyyəti təmin edildi, qurumların istifadəsi üçün yararsız inzibati və texniki binalar, depolar əsaslı təmir olundu, yeniləri tikildi. Təkcə bir faktı qeyd edim ki, yola salınan illər ərzində yalnız yanğından mühafizə üzrə 80 yeni depo binası tikilərək istifadəyə verilib.

Kadr potensialının gücləndirilməsi məqsədilə gənc və perspektivli əməkdaşların yüksək bilik və təcrübəyə yiyələnmələri üçün xarici ölkələrin mötəbər ali təhsil müəssisələrinə göndərilməsi, müxtəlif kurs və təlimlərdə iştirakları təşkil edildi. Bununla belə, bu addımlar bütövlükdə kadr hazırlığı sahəsində qarşıda dayanan məsələlərin köklü həllini təmin etmirdi. Odur ki, 2008-ci ildə Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamla xüsusi ixtisaslı ali təhsilli kadrların hazırlanmasını, əməkdaşların ixtisaslarının artırılmasını və fövqəladə hallar sahəsində elmi-tədqiqat işlərinin aparılmasını təmin etmək məqsədilə Fövqəladə Hallar Nazirliyinin Akademiyasının yaradılması ümumilikdə fövqəladə hallarla mübarizə sahəsində mühüm hadisə sayılmalıdır. 2009-cu ildən kursant qəbulunu həyata keçirən akademiyada qısa müddətdə müasir tipli şəhərcik salınıb, beynəlxalq tələblərə cavab verən təhsil infrastrukturu yaradılaraq ən son avadanlıqlarla təchiz edilib. Nazirliyin fəaliyyətinin cəmi üçüncü ilində yaradılan akademiya hazırda bir sıra xarici ölkələrin analoji ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq münasibətləri quraraq, intensiv təcrübə mübadiləsi həyata keçirir. Son elmi-texniki nailiyyətlərin tədris prosesində tətbiq olunması, pedaqoji heyətin gündəlik fəaliyyətinin yeni, mütərəqqi iş metodları ilə qurulması sayəsində yüksəkkeyfiyyətli təhsil alan kursantlar bu gün nazirlik sistemində ən müxtəlif vəzifələrdə uğurla xidmət aparırlar. Qeyd edim ki, ötən müddət ərzində akademiya bakalavriat pilləsi üzrə 1650, magistratura pilləsi üzrə 121 nəfər məzun yetişdirib.

Azərbaycan Prezidenti İlham Əliyevin 2007-ci il dekabrın 17-də Bakıda, Azadlıq meydanında Fövqəladə Hallar Nazirliyinin aldığı xüsusi təyinatlı texnika və avadanlıqların təqdimatında, 2008-ci il noyabrın 12-də nazirliyin yeni istifadəyə verilmiş inzibati binasının açılış mərasimində, 2011-ci il fevralın 23-də Mülki müdafiə qoşunlarına döyüş bayrağının təqdimatında, 2012-ci il yanvarın 24-də Xəzər Hövzə Qəza-xilasetmə Xidməti üçün alınmış kəsici-sorucu yerqazan qurğuların, tədqiqat katerlərinin və yedək gəmilərinin təqdimatında, 2013-cü il aprelin 17-də Mingəçevir Su Anbarının perimetr və akvatoriya sərhədlərində qurulan inteqrə olunmuş təhlükəsizlik sisteminin təqdimatında, 2013-cü il dekabrın 27-də FHN Akademiyasının beynəlxalq standartlara cavab verən yeni binasının açılış mərasimində, 2018-ci il dekabrın 27-də nazirliyin İdman-Sağlamlıq Mərkəzinin açılışında, 2022-ci il dekabrın 9-da nazirlik tərəfindən alınmış və işğaldan azad olunmuş ərazilərdə istifadə ediləcək xüsusi təyinatlı texnikaların təqdimatında iştirakı Fövqəladə Hallar Nazirliyinin 20 illik tarixinin unudulmaz hadisələridir. Hər gəlişində kollektivimizə sonsuz sevinc bəxş edən dövlətimizin başçısının dərinməzmunlu, proqram xarakterli çıxışı, tapşırıq və tövsiyələri fəaliyyət istiqamətləri kimi qəbul edilib.

Nazirliyin fəaliyyət sahələrinə uyğun texnoloji yeniliklər daim izlənilir, iş prosesində ən son innovativ yanaşmalar tətbiq edilir. Mütəmadi olaraq nazirliyin Aparatı və struktur bölmələrinin daxili proseslərinin avtomatlaşdırılması, məlumatların proqram təminatları vasitəsilə vahid mərkəzi məlumat bazasına ötürülməsi, sürətli və dayanıqlı məlumat mübadiləsinin təmin edilməsi, kritik sistemlərin təhlükəsizlik nəzarətinin gücləndirilməsi və kibertəhdidlərin aşkarlanması üçün müasir texnoloji yanaşmalar və süni intellekt əsaslı analiz metodları tətbiq olunur.

Qısa zamanda fəaliyyəti yüksək səviyyədə təşkil edilən "112" qaynar telefon xətti bu gün vətəndaşlarımızın, habelə ölkəyə gələn qonaqların təhlükə anında müraciət edərək operativ yardım aldığı mühüm bir vasitəyə çevrilib. Təkcə bir rəqəmi qeyd etsək, insanların Fövqəladə Hallar Nazirliyinə olan güvəni barədə aydın təsəvvür yaranmış olar. Belə ki, yanğın, partlayış, avtoqəza, tikintidə, sənayedə və dağ-mədən işlərində təhlükəsizlik qaydalarının pozulması və digər məsələlərlə bağlı "112" qaynar xəttinə 2024-cü il ərzində 2,2 milyona yaxın və ya orta hesabla hər gün 6 mindən artıq zəng daxil olub.

Kadrların peşəkar səviyyədə formalaşması üçün nəzəri bilik nə qədər vacibdirsə, praktiki vərdişlər də bir o qədər əhəmiyyətlidir. Məhz bu səbəbdən, mütəmadi olaraq müxtəlif təlimlər keçirilir. Təlimlərdə şəxsi heyətə həm də yeni texnika və avadanlıqlarla işləmək qaydaları praktiki olaraq real əməliyyat vəziyyətinə yaxın şəraitdə aşılanır. Bu çərçivədə, "Xəzər-2009", "Xəzər-2010", "Xəzər-2013", "Xəzər-2015" taktiki, "Xəzər-2017", "Bakı-2023" beynəlxalq, "Bakı-2025" əməliyyat-taktiki təlimlərini xüsusi qeyd etmək istəyirəm. Göstərilən təlimlər FHN-in malik olduğu maddi-texniki bazanı, kadr potensialını və fövqəladə hadisələrə çevik reaksiya imkanlarını nümayiş etdirməklə yanaşı, mülki müdafiə işinin lazımınca təşkil olunmasında, komandir-rəis heyətinin idarəetmə qabiliyyətinin yüksəldilməsində, axtarış, yanğın-xilasetmə işlərində iştirak edən şəxsi heyətin praktiki vərdişlərinin təkmilləşdirilməsində mühüm rol oynayıb.

Ümummilli Lider Heydər Əliyevin "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan qaldırmaqdan daha asandır" kəlamını öz fəaliyyət prinsipi kimi qəbul edən Fövqəladə Hallar Nazirliyi fövqəladə halların vaxtında xəbərdar edilməsi və maarifləndirməni zəruri fəaliyyət istiqamətləri sırasında müəyyən edib. Nazirliyin nəzarət qurumları tərəfindən ölkə ərazisi üçün xarakterik olan təbii və texnogen mənşəli fövqəladə halların mütəmadi monitorinqi aparılır, mümkün fövqəladə hal riski mütəxəssislərimiz tərəfindən qiymətləndirilir və bunun nəticəsindən asılı olaraq zəruri qabaqlayıcı tədbirlərin görülməsi təmin edilir. Belə ki, ötən illər ərzində orta hesabla hər il 70 minə yaxın obyektdə yanğın-texniki müayinə, 4 minə yaxın obyektdə tikintiyə dövlət nəzarəti, 3,3 mindən artıq obyektdə təhlükə potensiallı qurğu və avadanlıqlar üzrə texniki müayinə, 200-ə yaxın obyektdə nüvə və radioloji təhlükəsizlik üzrə nəzarət-yoxlama tədbirləri həyata keçirilib, 1700-dən artıq kiçikhəcmli gəmiyə texniki baxış keçirilib.

Məhz bütün bunların nəticəsidir ki, nazirliyin geridə qoyduğumuz illər ərzində baş vermiş müxtəlif mürəkkəblik dərəcəsinə malik fövqəladə hallarla mübarizədən uğurla çıxdığını əminliklə deyə bilərik. Ötən illər ərzində yaşayış, sənaye və iaşə sektorunda, o cümlədən iri ticarət mərkəzlərində, meşə və açıq sahələrdə baş vermiş yanğınlar, sel və daşqınlar, uçqun, dağıntı və sürüşmə hadisələri, zəlzələlər, çoxsaylı qəza və digər fövqəladə hadisələr zamanı operativ və effektli müdaxilə tədbirləri ilə nazirliyin yanğın-xilasetmə qurumları öz peşəkarlıqlarını nümayiş etdiriblər. Bununla bağlı belə bir statistik rəqəmləri bölüşmək yerinə düşərdi - bütövlükdə, son 20 il ərzində ölkə iqtisadiyyatının üç dəfədən çox böyüdüyünü, çoxsaylı yeni istehsal müəssisələri və iş yerlərinin yaradıldığını, çoxşaxəli kommunikasiya sistemlərinin istifadəyə verildiyini, irimiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını, əhalinin sayının 2007-ci ildə təxminən 8 milyon yarımdan artaraq 2024-cü ildə 10 milyonu keçməsini nəzərə almaqla, 2007-ci ildə ölkə üzrə 4517 təbii və texnogen mənşəli hadisə qeydə alınmışdısa, 2024-cü il ərzində bu rəqəm 14856-ya bərabər olub. Bununla belə, hadisələrin sayında böyük artıma baxmayaraq, 2007-ci ildə göstərilən hadisələrdə 131 nəfər insan tələfatı qeydə alınmışdısa, 2024-cü ildə təbii və texnogen mənşəli hadisələrdə 83 nəfər həyatını itirib. Hesab edirəm ki, hadisələrin sayında bu qədər artım qarşısında insan itkisinin sayında azalma Fövqəladə Hallar Nazirliyinin çevik və effektli fəaliyyətinin mühüm göstəricisi olmaqla əldə etdiyimiz ən ciddi uğurlardan biri kimi dəyərləndirilməlidir. Bundan əlavə, nazirlik yaranandan 2024-cü il də daxil olmaqla, yanğın-xilasetmə qurumları tərəfindən yanğınlar, dağıntılar, qəzalar və digər fövqəladə hallar zamanı ümumilikdə 29 minə yaxın zərərçəkmiş, o cümlədən su hövzələrində batma təhlükəsində olan 5700-ə yaxın şəxs xilas edilib.

Nazirliyin qüvvələri ötən illər ərzində müxtəlif ölkələrdə baş vermiş fəlakətlərin nəticələrinin aradan qaldırılması, həmçinin humanitar yardımların çatdırılması əməliyyatlarını da uğurla yerinə yetiriblər. Belə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, 2010-cu ildə Rusiyada, 2010-cu və 2016-cı illərdə İsraildə, 2017-ci ildə Gürcüstanda, 2021-ci, 2022-ci və 2024-cü illərdə qardaş Türkiyədəki meşə yanğınlarının, 2010-cu ildə Pakistandakı daşqınların, 2011-ci və 2023-cü illərdə Türkiyədəki zəlzələlərin, 2012-ci ildə Rusiyadakı daşqınların, həmin il İrandakı zəlzələnin, 2014-cü ildə Əfqanıstanda leysan yağışlarının törətdiyi fəsadların, Serbiya və Bosniya və Hersoqovinada daşqınların nəticələrinin aradan qaldırılması üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən müvafiq kömək göstərilib. Həmçinin Azərbaycan Respublikasının Hökuməti səviyyəsində 2010-cu ildə Haitidəki zəlzələnin, 2013-cü ildə Filippindəki qasırğanın fəsadlarının aradan qaldırılması məqsədilə və Somalidə aclıqdan əziyyət çəkən insanlar üçün maddi yardımlar edilib. 2013-cü ildə Misirdəki iğtişaşlarla əlaqədar burada yaşayan azərbaycanlıların, 2015-ci ildə Nepaldakı zəlzələ nəticəsində fəlakət zonasındakı soydaşlarımızın və xarici ölkə vətəndaşlarının nazirliyin təyyarəsi ilə təcili təxliyəsi həyata keçirilib. 2017-ci ildə Azərbaycan Hökuməti adından Cibutiyə, həmçinin Myanmada Rohingya müsəlmanlarına qarşı kütləvi zorakılıq zəminində əziyyət çəkən insanlara humanitar yardımlar çatdırılıb. Nazirlik əməkdaşlarının bacarıq və peşəkarlığı, fövqəladə hallarla mübarizədə tətbiq etdikləri səmərəli üsul və vasitələr, göstərdikləri şücaət xarici tərəfdaşlar tərəfindən yüksək qiymətləndirilir, dünyanın bir çox ölkələrinin müvafiq xidmətləri üçün nümunə hesab olunur.

Nazirliyin əməkdaşlarının fiziki sağlamlığına xüsusi diqqət yetirilir və onların idmanla məşğul olması hər zaman təşviq edilir. Bunun nəticəsidir ki, müxtəlif idman növləri üzrə (taekvondo, karate, güləş, cüdo, boks, kikboksinq, ağırlıqqaldırma, stolüstü tennis, voleybol, minifutbol və s.) nazirliyin komandaları, əməkdaşları və idmançı üzvləri Olimpiya Oyunları, İslam Həmrəyliyi Oyunları, MDB Oyunları, Dünya və Avropa çempionatları, beynəlxalq turnir və respublika yarışlarında uğurla çıxış edərək 256 qızıl, 318 gümüş və 532 bürünc medal qazanıblar.

Fövqəladə halların sərhəd tanımaması və onun istənilən vaxt istənilən ölkənin ərazisində baş verməsi ehtimalı dövlətlərin bu sahədə əməkdaşlıq münasibətlərini labüd edir. Bu səbəbdən, ötən illər ərzində dünyanın bir çox ölkələrinin uyğun qurumları, habelə müvafiq beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı münasibətlər qurulub. Bu münasibətlər çərçivəsində müxtəlif səviyyəli qarşılıqlı səfərlər təşkil olunur, təcrübə mübadiləsi aparılır, əməkdaşlarımızın beynəlxalq təlim, seminar və treninqlərdə fəal iştirakı təmin olunur. Yeri gəlmişkən, bu ilin iyul ayında Bakı şəhərində Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) İcraiyyə Şurasının 58-ci və təşkilatın Baş Assambleyasının 3-cü növbədənkənar sessiyası keçirilib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sessiya iştirakçılarına müraciətində qeyd edildiyi kimi, bu sessiyanın Azərbaycanda keçirilməsi ölkəmizin qlobal təhlükəsizlik, fəlakət risklərinin azaldılması və mülki müdafiə məsələlərinə verdiyi önəmin bariz nümunəsidir. Assambleyanın növbədənkənar sessiyasında Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin nümayəndəsinin BMMT-nin Baş katibi seçilməsi isə sözsüz ki, ölkəmizin qlobal nüfuzundan, durmadan artan beynəlxalq çəkisindən xəbər verir.

Bir məsələni xüsusi vurğulamaq istəyirəm - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva daim təbii və texnogen hadisələr zamanı zərərçəkən insanların yanında olur, onların problemlərinin həllinə xüsusi həssaslıqla, diqqət və qayğı ilə yanaşır, operativ olaraq irimiqyaslı hadisələrin baş verdiyi bölgələrə səfərləri zamanı fəlakətin nəticələrinin qısa müddətdə aradan qaldırılması üçün dövlətin bütün resurslarını səfərbər edirlər. 2010-cu ilin yaz aylarında Aran bölgəsində Kür və Araz çaylarında yaranmış daşqınların vurduğu ziyanın, 2012-ci ilin may ayında Zaqatala, Balakən və Qax rayonlarında, 2019-cu ilin fevral ayında Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş verən güclü zəlzələlərin nəticələrinin aradan qaldırılması ilə əlaqədar görülmüş tədbirlər ölkə rəhbərliyinin ağır məqamda daim xalqla bir yerdə olmasının, insanların dərd-sərinin, problemlərinin həllini həmişə diqqətdə saxlamasının bariz nümunələridir. Dövlət başçısının xüsusi nəzarəti altında daşqın və zəlzələlərin ziyan vurduğu rayonlarda ən müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının, sosial təyinatlı və infrastruktur obyeklərinin tikintisi həyata keçirilib, əhali yeni, müasir evlərlə təmin edilib. Dövlət başçısının imzaladığı sərəncamlara uyğun olaraq, Kür-Araz daşqınları ilə əlaqədar ümumilikdə 4481 ev, şimal-qərb bölgəsində baş vermiş zəlzələ ilə əlaqədar 5668 ev, 2019-cu il zəlzələsi ilə əlaqədar isə 695 ev və 3 ədəd çoxmənzilli bina tikilib, 2247 ev isə bərpa olunaraq vətəndaşların istifadəsinə verilib. Bu istiqamətdə Heydər Əliyev Fondunun gördüyü böyük işlər də xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Həmçinin bütün dünya ölkələrinin yeni növ koronavirus (COVID-19) pandemiyası ilə üzləşdiyi vaxtda atılan cəsarətli və müdrik addımlar sayəsində Azərbaycan koronavirusa qarşı mübarizə tədbirlərinin effektivliyi ilə seçilən ölkələr sırasında ön cərgədə qərar tutdu. Ölkə rəhbərliyinin tapşırıqlarına əsasən Fövqəladə Hallar Nazirliyi də həmin dövrdə tam səfərbər olaraq üzərinə düşən vəzifələri şərəflə yerinə yetirdi. Bu tapşırıqlara uyğun olaraq, sərhəd-keçid məntəqələri yaxınlığında qəbul-çeşidləmə məntəqələri yaradıldı, qısa müddətdə modul tipli hospitalın fəaliyyəti, karantin rejimi tətbiq olunan müddətdə vətəndaşlara təcili psixoloji yardımın göstərilməsi və əhali arasında maarifləndirmə işləri təşkil olundu, müvafiq obyektlərdə mütəmadi olaraq dezinfeksiya işləri həyata keçirildi.

Belə nümunələr çox çəkmək olar. Heç bir fəlakətin qarşısında tək olmayan vətəndaşlarımız 2003-cü ildə cənab İlham Əliyevin Prezident seçilərkən dediyi "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" sözünə sadiqliyinin ən müxtəlif və mürəkkəb hadisələr zamanı canlı şahidləri olublar.

Olduqca qürurvericidir ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın taleyüklü məsələlərin həllində yaxından iştirakı, cəmiyyətin bütün sahələrini əhatə edən əməli fəaliyyəti təkcə ölkəmizdə deyil, beynəlxalq aləmdə də rəğbətlə qarşılanır. Mehriban xanım Əliyeva daim təbii və texnogen hadisələr zamanı zərərçəkən insanların yanında olur, onların problemlərinin həllinə xüsusi həssaslıqla, diqqət və qayğı ilə yanaşır, hadisələrin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işləri diqqətində saxlayır. Operativ olaraq irimiqyaslı hadisələrin baş verdiyi bölgələrə səfərləri zamanı fəlakətin nəticələrinin çevik aradan qaldırılması üçün dövlətin resurslarını səfərbər edən Birinci vitse-prezident elə 2019-cu ilin fevral ayında Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş verən güclü zəlzələnin fəsadlarının qısa müddətdə aradan qaldırılmasını nəzarətdə saxlayıb, nəticə etibarilə, ən müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binaları, sosial təyinatlı və infrastruktur obyekləri tikilib, əhali yeni, müasir evlərlə təmin edilib.

Bir məqama xüsusi toxunmaq lazımdır. Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan, paytaxt Bakı dünya əhəmiyyətli qlobal tədbirlərin uğurla keçirildiyi məkana çevrilib. Bu çərçivədə, böyük təcrübəyə, güclü kadr potensialına və müasir maddi-texniki bazaya malik Fövqəladə Hallar Nazirliyi ölkəmizin beynəlxalq arenada əldə etdiyi nailiyyətlərə də öz töhfəsini verir. Belə ki, ən müxtəlif istiqamətlər, istər mədəniyyət, istər idman, istər ekoloji və digər sahələr üzrə mötəbər beynəlxalq tədbirlərə, o cümlədən "Eurovision-2012" mahnı müsabiqəsinə, I Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, XV Avropa Gənclər Yay Olimpiya Festivalına, "Formula-1" yarışlarına, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29), III MDB Oyunlarına və digər tədbirlərə uğurla evsahibliyi edən respublikamızda təhlükəsizliyin yüksək səviyyədə təşkil olunması, baş verə biləcək istənilən fövqəladə hadisənin qarşısının vaxtında alınması istiqamətində nazirliyin aidiyyəti üzrə gördüyü tədbirləri qeyd etmək istərdim.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızı 30 ilə yaxın müddətdə işğal altında saxlayan Ermənistanla apardığı 44 günlük şanlı Vətən müharibəsi zamanı Fövqəladə Hallar Nazirliyinin də qüvvə və vasitələri səfərbər olunaraq, əhalinin aidiyyəti üzrə təhlükəsizliyinin təmin edilməsi istiqamətində zəruri tədbirlər həyata keçirdi. Nazirliyin qüvvələri Vətən müharibəsi günlərində cəbhəboyu zonada yaşayan əhalinin təhlükəsiz məntəqələrdə yerləşdirilməsi və hər cür təminatının təşkili, döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin təyyarə və helikopterlərlə təxliyəsi, Ermənistanın mülki obyektlərə endirdiyi zərbələr nəticəsində yaranan yanğın və dağıntıların operativ aradan qaldırılması, zərərçəkmişlərin xilas edilməsi, onlara psixoloji yardımın təşkili kimi vəzifələri şərəflə yerinə yetirdi. Bu gün isə nazirliyin yerli strukturları işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə əməliyyatını, aparılan irimiqyaslı bərpa-yenidənqurma işləri ilə bağlı tikinti, texniki, yanğın və nüvə təhlükəsizliyinə nəzarəti həyata keçirir, doğma Qarabağ və Şərqi Zəngəzurda fövqəladə hallarla uğurla mübarizə aparır.

20 il ərzində hər zaman ali dövlət qayğısı ilə əhatə olunmuş Fövqəladə Hallar Nazirliyi bu gün istənilən fövqəladə hadisə ilə uğurla mübarizə aparmaq imkanına malik peşəkar bir qurumdur. Ötən dövr ərzində maddi-texniki baza və infrastrukturun möhkəmləndirilməsi, kadr potensialının gücləndirilməsi, strukturun optimallaşdırılması, istər regional, istərsə də beynəlxalq səviyyədə əməkdaşlıq münasibətlərinin dərinləşdirilməsi, fövqəladə hadisələrə çevik reaksiya imkanlarının artırılması, ən başlıcası isə insan həyatının qorunması sahəsində əldə etdiyimiz bütün nailiyyətlərin əsasında dövlətimizin başçısının bizə göstərdiyi ali etimadı, diqqət və qayğısı dayanır. Nazirliyin şəxsi heyətinin sosial vəziyyətinin, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, mütəmadi olaraq xidmətdə fərqlənən əməkdaşlarının fəxri adlara, orden və medallara layiq görülməsi, ali hərbi və xüsusi rütbələrlə təltif edilməsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin qarşımızda qoyduğu mühüm vəzifələrin uğurla yerinə yetirilməsi üçün bizi daha da həvəsləndirir. Geridə qoyduğumuz illər ərzində cənab Prezidentin imzaladığı müvafiq sərəncamlarla nazirliyin xidmətdə fərqlənən 513 əməkdaşının müxtəlif orden və medallara, 34 nəfərin fəxri adlara layiq görülməsi dövlət başçısının kollektivimizə olan ali diqqət və qayğısının bariz göstəricisidir.

**Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinə ən yüksək qiyməti də möhtərəm Prezidentimiz cənab İlham Əliyev verib: "Fövqəladə Hallar Nazirliyinin yaranması, formalaşması və bugünkü uğurlu fəaliyyəti Azərbaycanın inkişafı üçün çox müsbət rol oynamışdır. İstər mülki məsələlərdə, istər təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasında Fövqəladə Hallar Nazirliyinin fəaliyyətini biz görürük, Azərbaycan ictimaiyyəti də görür və bunu yüksək qiymətləndirir".**

**Kəmaləddin HEYDƏROV,**
*Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik*




# Tarixdə ilk dəfə

## Dünya Türk Dili Ailəsi Günü təsis edildi

**Dünən bəşər tarixində ilk dəfə olaraq 15 dekabr təqvim günü Dünya Türk Dili Ailəsi Günü kimi qeyd edildi. Bu əlamətdar gün Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı - UNESCO-nun bu il noyabrın 3-də Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş 43-cü Baş Konfransında təsis edilib.**

Azərbaycan, türk, qazax, qırğız, türkmən və özbək dillərinin daxil olduğu türk dilində təxminən 12 milyon kvadratkilometr ərazini əhatə edən ərazidə 200 milyondan çox insan danışır. Dünya Türk Dili Ailəsi Gününün elan edilməsi türk dilinin dünya miqyasında tanınması, qorunması və təbliği baxımından mühüm tarixi hadisə kimi dəyərləndirilir.

Qeyd edək ki, 15 dekabr tarixinin seçilməsi təsadüfi deyil. Məhz bu gün - 1893-cü il dekabrın 15-də məşhur danimarkalı alim Vilhelm Tomsen Orxon-Yenisey yazılarını deşifrə edərək türk dillərinin ən qədim yazılı abidələrinin sirrini dünyaya açmışdır. Bu hadisə türk dilinin tarixi dərinliyini, zənginliyini və mədəni potensialını elmi şəkildə təsdiqləyən dönüş nöqtəsi hesab olunur.

UNESCO-nun qəbul etdiyi qərarda vurğulanır ki, türk dili ailəsinə daxil olan dillər bu gün Avrasiya məkanında geniş coğrafiyada yayılıb. Bu dillər təkcə kommunikasiya vasitəsi deyil, eyni zamanda minilliklər boyu formalaşmış sivilizasiya, dövlətçilik ənənəsi, mədəniyyət və mənəvi irsin daşıyıcısıdır.

Beynəlxalq təşkilatın bu addımı türk dünyası üçün simvolik və strateji əhəmiyyət daşıyır. Qərar türk dillərinin qorunması, gənc nəsillərə ötürülməsi, elmi-akademik tədqiqatların genişləndirilməsi və beynəlxalq mədəni dialoqda türk dilinin rolunun gücləndirilməsi baxımından yeni imkanlar açır. Beləliklə, dekabrın 15-inin Dünya Türk Dili Ailəsi Günü kimi təsis edilməsi türk dili və türk dünyası üçün qürurverici, gələcəyə ümid verən və mədəni birlik ideyasını gücləndirən əlamətdar beynəlxalq hadisədir. Bu günün qeyd edilməsi həmçinin türk dilinin qlobal səviyyədə daha yaxşı tanınmasına, türk xalqları arasında ortaq bir dil birliyinin qurulmasına xidmət edir.

Dünya Türk Dili Ailəsi Günü yalnız dilin əhəmiyyətini deyil, həm də türk mədəniyyətinin zənginliyini və müxtəlifliyini önə çıxarır. Türk dili, sadəcə, bir kommunikasiya vasitəsi deyil, həm də bir xalqın düşüncə tərzini, dünyagörüşünü və mədəniyyətini ifadə edən bir vasitədir. Türk dünyasında hər bir ölkə və toplum öz dilini fərqli şəkildə inkişaf etdirib. Ancaq bütün bunlar ortaq bir irsə, ortaq köklərə dayanır.

Dünya Türk Dili Ailəsi Günü yalnız bir günlə məhdudlaşmamalıdır. Bu günün qeyd edilməsi hər bir türk dövlətində dilin qorunması və inkişafı ilə bağlı davamlı fəaliyyətlərin təşviq edilməsi üçün bir vasitə olmalıdır. Türk dili hər bir türk xalqının mədəni irsinin təməl daşını təşkil edir və bu dili yaşatmaq, gələcək nəsillərə ötürmək hər birimiz üçün böyük bir məsuliyyətdir.

Bu gün türkdilli ölkələri birləşdirən və getdikcə qlobal təşkilata çevrilən Türk Dövlətləri Təşkilatı (TDT) qardaş ölkələri bir-birinə möhkəm bağlarla daha da yaxınlaşdırıb. TDT, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatın beynəlxalq səviyyədə nüfuzu getdikcə daha da artır. Ortaq tarixi və etnik köklər, müştərək milli-mənəvi dəyərlər qardaş ölkələri bir ailə kimi birləşdirir. Azərbaycan bu təşkilatın işinə dəstək məqsədilə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürüb. Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirib.

Bu il oktyabr ayının 7-də Qəbələdə TDT-nin Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxış edən Prezident İlham Əliyev təşkilatın yaranması, qısa zamanda formalaşması və getdikcə necə bir güc mərkəzinə çevrildiyini söyləyərək, hər zaman olduğu kimi, görülən işləri qiymətləndirdi və qarşıdakı hədəfləri göstərdi. Prezident İlham Əliyev qəbul edilən qərarları, həyata keçirilən layihələri yüksək qiymətləndirərək bildirmişdir ki, bütün bunlar təşkilatın daha da güclənməsinə xidmət edən proseslərdir. Ümumiyyətlə, TDT-nin Qəbələ zirvəsində Prezident İlham Əliyevin çıxışını həm də təşkilatın qarşıdakı dövr üçün yol xəritəsi də adlandırmaq olar.

TDT-nin 12-ci Zirvə Görüşü Azərbaycan və türk dünyası üçün əhəmiyyətli bir tarixi an oldu. Bu zirvə görüşündə Prezident İlham Əliyev yalnız regionda sülh və təhlükəsizliyin təmin edilməsi istiqamətindəki mülahizələrini açıqlamaqla kifayətlənmədi, həm də Türk Dövlətləri Təşkilatının gələcək inkişafına dair strateji hədəflərini vurğuladı.

Qəbələ Zirvə Görüşü Türk Dövlətləri Təşkilatının gələcək inkişafını təmin edəcək bir çox mühüm sənədin imzalanması ilə yadda qaldı. İmzalanan sənədlər türk dünyası ölkələri arasında sıx əlaqələrin qurulmasına, birgə strateji layihələrin həyata keçirilməsinə və regional məsələlərə qarşı birgə yanaşmanın inkişafına zəmin yaratdı. Bu sənədlər türk dünyasının siyasi, iqtisadi və mədəni inteqrasiyasını daha da irəlilətmək üçün əsaslı bir addım oldu.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Regionun ən iri batareya saxlanc sistemləri gətirilərək qurulmağa başlanıldı

## MDB məkanının ən böyük Batareya Saxlanc Mərkəzləri bir neçə aydan sonra Abşeron və Ağdaş rayonlarında istismara veriləcək





**Azərbaycanda bərpaolunan enerji mənbələrinin (BOEM) dinamik inkişafı üçün "Azərenerji" tərəfindən genişmiqyaslı Batareya Enerji Saxlanc Sistemlərinin (BESS) yaradılması prosesi sürətli şəkildə davam edir. Bütünlükdə MDB məkanında gücünə və tutumuna görə ən böyük Batareya Enerji Saxlanc Sistemləri olan bu enerji obyektləri paytaxta yaxın 500 kV-luq "Abşeron", eləcə də ölkənin mərkəz hissəsində yerləşən 220 kV-luq "Ağdaş" yarımstansiyalarının ərazilərində qurulur.**



"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, ümumi gücü 250 meqavat, enerji tutumu isə 500 meqavat-saat olan mərkəzlər üçün batareya saxlanc sistemlərinin ilk partiyası artıq bu günlərdə ölkəyə gətirilib. Çinin Great Power zavodunda sifariş əsasında yığılan avadanlıqlar gəmilərə yükləndikdən sonra Sakit okean, Hind okeanı, Ölü dəniz, Süveyş kanalı, Aralıq dənizi və Egey dənizini keçərək, Türkiyənin Gemlik Limanına, oradan isə quru yolu ilə Türkiyə və Gürcüstan üzərindən Azərbaycana gətirilib. Hər birinin çəkisi 36 ton olan batareya saxlanc sistemləri polis müşahidəsi ilə xüsusi qaydada təyinatı üzrə yerlərinə çatdırılaraq quraşdırılıb. Artıq saxlanc sistemlərinin 15 faizi ölkəyə gətirilib və qalan 85 faizi isə gələn il aprel ayına qədər gətirilərək quraşdırılacaq.

Qeyd edək ki, "Azərenerji" tərəfindən Batareya Saxlanc Mərkəzlərin yaradılması enerji sisteminin dayanıqlılığının artırılması, tezliyin sabit saxlanılması, BOEM-lərdə dəyişkənliyin balanslaşdırılması, pik yüklərin ödənilməsi, günəş enerjisinin azalması saatlarında yük qrafikinin hamarlanması və qəza hallarında enerji sisteminin sıfırdan bərpası baxımından strateji əhəmiyyət daşıyır. Bu sistemlər Azərbaycanın enerji müstəqilliyini gücləndirməklə yanaşı, enerji şəbəkəmizin həm qonşu ölkələrlə paralel, həm də müstəqil rejimdə etibarlı fəaliyyətini təmin edəcək.

***Bəhmən MİRZƏYEV,***
***"Azərbaycan"***




# Cəbrayıl rayonunun Horovlu kəndinə növbəti köç

**"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən Cəbrayıl rayonu Horovlu kəndinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşub.**




AZƏRTAC xəbər verir ki, Cəbrayıl rayonu Horovlu kəndi bu gün 22 ailə olmaqla, 85 nəfərə qucaq açıb. Ailələr yenidən qurulan kəndə sevinc göz yaşları ilə qədəm qoyub və öz doğma yurdlarına qovuşaraq yaradılan gözəlliyi seyr ediblər.

Kəndin ümumi sahəsi 248 hektardır. Birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi - su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollara asfalt döşənib. 624 şagird yerlik məktəb binasının, 220 yerlik körpələr evi-uşaq bağçasının, ikimərtəbəli inzibati binanın, bazar kompleksinin, çoxfunksiyalı iaşə obyektlərinin, tibb məntəqəsinin və idman-sağlamlıq mərkəzinin tikintisi həyata keçirilib. Kənddə tarixən istifadə olunmuş, işğal dövründə dağıdılmış "Əsgər", "Şığı", "Orta", "Gülqasım" və "Xəlifə" kəhrizləri bərpa edilib.



Horovlu kəndində 4,4 hektar ərazidə park kompleksi də inşa olunub. Eyni zamanda Bayraq meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib.

Bu gün növbəti köç karvanı ilə Horovlu kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Cəbrayıl rayonu Horovlu kəndinə köçən ailələr qarşılandıqdan sonra onlar ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumatlandırılıblar. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.





Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək öz evlərində məskunlaşıblar.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

# "İnanırıq ki, hər şey çox gözəl olacaq"













**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir.**

Horovluya qayıdan sakinlər üçün bu gün doğma yurda qovuşmaqla bərabər, həm də uzun illərin Vətən həsrətinin sona çatmasıdır. Doğma torpağa yenidən ayaq basmaq, yarımçıq qalan xatirələri davam etdirmək və ailə üzvləri ilə birlikdə yeni firavan həyata başlamaq sakinlər üçün əvəzolumaz duyğulardır. Horovlu sakinlərinin sevinc və qürur dolu hissləri onların təəssüratlarında da aydın hiss olunur.

Kəndə köçən Azad Cəfərov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, 1993-cü ildə məcburi şəkildə doğma kəndini tərk etməli olub. 32 ildən sonra isə Horovluya ailəsi ilə birlikdə sevinc göz yaşları ilə qayıdıb.

O deyib: "Şükürlər olsun, bu günə. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Allah Ali Baş Komandan İlham Əliyevin canını sağ eləsin. Onun rəhbərliyi və şanlı ordumuzun gücü sayəsində torpaqlarımız düşməndən azad olundu.

Kəndimizə baxdıqca böyük qürur hissi keçirirəm. Kəndə qayıtdığımız gün Vətənimiz bizi günəşli hava ilə qarşıladı. Məcburi köçkün düşsək də, bir an belə ümidimizi itirmədik və doğma yurda qayıdacağımız günü səbirsizliklə gözlədik. Bu gün həmin gündür. Kəndə ilk daxil olanda bir vaxtlar çalışdığım anbar binasını gözlərim axtardı. Həmin bina işğal dövründə dağıdılsa da, indi onun qalıqları tarixi abidə kimi qorunub saxlanılır.

Sevinc və həyəcan hissləri bir-birinə qarışıb. Qürur duyuram ki, yenidən doğma kəndimdəyəm. Ailəm, övladlarım və nəvələrim də artıq mənimlə birlikdə Horovluya qayıdıb".

❖ ❖ ❖

Özünü sanki yuxuda hiss etdiyini deyən Sürəyya İsmayılova da kəndlərinə qayıtmağın sevincini yaşayır.

"Horovluya qayıtmağı hər gün ümid dolu arzularla gözləmişik və bu gün ən böyük arzumuz gerçəkləşdi. Prezident İlham Əliyevə və şanlı ordumuza sonsuz təşəkkürümü bildirirəm. Horovludan çıxanda 39 yaşım var idi. Yarımçıq qalan xatirələrimiz, tamamlanmamış uşaqlıq illərimiz qalmışdı. İndi isə övladlarım ilə birlikdə Horovluya qayıdırıq. Bir vaxtlar uşaqlarımın yarım qalan arzularını sabah nəvələrim davam etdirəcək.

Bu gün həyatımızın ən xoşbəxt günüdür. Kəndimiz xeyli gözəlləşib, yeni evlər tikilib, abadlıq işləri aparılıb. Məktəb, uşaq bağçası, istirahət parkı salınıb. Xoşbəxt günlərimiz Horovluda yenidən başlayır", - deyə o vurğulayıb.

❖ ❖ ❖

Horovluya qayıdan İdris Quliyev də sanki yenidən dünyaya gəldiyini bildirib. Deyir ki, onun üçün bundan sevincli gün ola bilməz: "Bu kənddə doğulub boya-başa çatmışam, ailə qurmuşam. Horovlu mənim həyatımın bir parçasıdır. 32 il kəndimizdən uzaq düşsək də, qayıdacağımız günü ümidlə gözləmişik. Horovlu bizim üçün həm doğma yurd, həm də müqəddəs torpaqdır. Bu torpaqlar uğrunda qəhrəman oğullarımız canından keçib. Onların sayəsində biz bu gün öz elimizə qovuşmuşuq. Horovlu sakini olaraq Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan Ordusuna dərin təşəkkürümü bildirirəm. Torpaqlarımız qısa müddət ərzində azad edildiyi kimi, qısa müddətdə burada geniş tikinti-quruculuq işləri də aparılıb. Kəndimiz daha da gözəlləşib, yaşayış üçün hər cür şərait yaradılıb. Bizim xoşbəxt günlərimiz Horovluda yenidən başlayıb".

❖ ❖ ❖

"Ən sevimli günümüzdür. Bu gün doğma elimizə, obamıza qayıdırıq. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa, cansağlığı və uzun ömür arzulayırıq. Onların sayəsində bu xoşbəxt günləri yaşayırıq, hər birinə dərin minnətdarlığımızı bildiririk".

Bu fikirləri müsahibəsində Cəbrayıl rayonunun Horovlu kəndinə köç edən keçmiş məcburi köçkün Teymur Allahverdiyev deyib.

O, həmçinin gələcək barədə düşüncələrini də bölüşərək deyib: "Qarşıdakı dövrdə doğma torpağımızda əkinçiliklə, biçinçiliklə, heyvandarlıqla məşğul olmağı, zəhmətimizlə yaşamağı düşünürük. İnanırıq ki, hər şey çox gözəl olacaq. Çünki bura bizim öz yurdumuz, öz doğma torpağımızdır. İnsan hər zaman öz yurdunda, doğma torpağında daha rahat dolanar, daha gözəl ömür sürər".

**Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın ardıcıl şəkildə atdığı siyasi-hərbi-diplomatik addımlar hazırda bölgəni münaqişələrdən tamamilə uzaq və əməkdaşlıq üçün mühüm strateji əraziyə çevirib. Dünyadakı müxtəlif qütblərin bir-biriləri ilə intriqalar və çəkişmələr içərisində yaşadığı bir dövrdə ölkəmizin Şərqlə Qərbin, Şimalla Cənubun mərkəzi, mühüm nəqliyyat habı, enerji qovşağı rolunda çıxış etməsi Azərbaycanın beynəlxalq miqyasda rolunu və yerini aydın şəkildə gözlər önünə sərir.**



# Azərbaycan bölgəni əməkdaşlıq ünvanına çevirir

Ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi altında ötən iki onillik boyu qətiyyətlə və səbirlə addım-addım bu gün qərarlaşdığı və dünyanın hər yerindən görünən mövqeyinə yüksəlib və hərtərəfli inkişaf mərhələsi keçən, sosial, iqtisadi, hərbi tərəqqi yaşayan Azərbaycanın uğur konsepsiyasının əsaslarını hər zaman sülh və əməkdaşlıq təşkil edib.

## Yollar sülhə aparır

Tolerant, multikultural dəyərlərin daşıyıcısı olan ölkəmiz ərazilərinin 20 faizi işğal altında olanda belə həmişə münaqişənin dialoq yolu ilə həll olunmasına çalışırdı. Baxmayaraq ki, ilk illərdə informasiya savaşında hələ zəif idik, dünya erməniçiliyinə qarşı az qala təkbaşına mübarizə aparırdıq, ikili standartlarla tez-tez üzləşirdik. Lakin Azərbaycan heç vaxt milli mübarizəsindən və haqlı mövqeyindən geri dönmək barədə fikirləşmir, gec-tez ədalətin qalib gələcəyini bilirdi. Dövlətimizin elə bu istiqamətdə həyata keçirdiyi israrlı və qətiyyətli siyasət sonda milli maraqlarımızın təmininə və birbaşa bölgədə normallaşmaya yol açdı.

Son beş ildə Azərbaycanın normallaşma istiqamətində atdığı addımlar, bu prosesə verdiyi əməli töhfələr hazırda bölgədə müşahidə olunan faktiki sülhün səbəbidir. Bu yöndə əldə olunan uğurlar isə təkcə Cənubi Qafqazın inkişafı ilə məhdudlaşmaqla qalmır, daha geniş coğrafiyaya hərtərəfli əlaqələr üçün mühüm şərait yaradır. Bakının sülh səyləri həm bölgənin sabitliyinə mühüm töhfə verir, həm də burada investisiya imkanlarının, əməkdaşlığın artmasına geniş imkanlar açır.

Dekabrın 8-də Bratislavada Prezident İlham Əliyevin və Slovakiya Prezidenti Peter Pelleqrininin mətbuata bəyanatlarla çıxışı zamanı dövlətimizin rəhbəri söylədi ki, Azərbaycan öz xarici siyasət prioritetlərini çoxdan müəyyən edib: "Biz eyni zamanda bu gün Şərqlə Qərb arasında müəyyən bir körpü rolunu oynayırıq. İnfrastruktura, bağlantılara, nəqliyyat sektoruna qoyduğumuz sərmayə bu gün imkan verir ki, Azərbaycan "Şərq-Qərb" nəqliyyat dəhlizinin önəmli parçasına çevrilsin. Biz Orta dəhliz layihəsində fəal iştirak edirik. Orta Asiyanı Avropa ilə birləşdirən ən etibarlı və ən təhlükəsiz marşrut Azərbaycan ərazisindən keçir".

Cari il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzalayıblar. Həmçinin Ağ Ev rəhbərinin iştirakı ilə sülh sazişinin mətni paraflanıb, vacib razılaşmalar əldə edilib.

Həmin tarixdə Vaşinqton Sammitində əldə olunan mühüm razılaşmalardan biri də Azərbaycanın əsas hissəsinin Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsi üçün Zəngəzur dəhlizinin (TRIPP) işə düşməsi ilə bağlıdır. Orta dəhlizin mühüm halqasına çevriləcək TRIPP beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişləndirilməsinə böyük töhfə verəcək.

Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündəki çıxışı zamanı Prezident İlham Əliyev dəhliz barədə ətraflı məlumat verərək bildirdi ki, Azərbaycanda Zəngəzur dəhlizinin (TRIPP) tikintisi başa çatmaq üzrədir. Eyni zamanda qeyd etdi ki, ilkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta dəhlizin əsas arteriyasına çevriləcək. Həmçinin Zəngəzur dəhlizinin (TRIPP) bir hissəsi olacaq avtomagistralın tikintisi də başa çatmaq üzrədir.

## Etimad quruculuğu

Cənubi Qafqazda dayanıqlı sülhün əldə olunması üçün proseslər sadəcə siyasi müstəvidə inkişaf etdirilmir. Ölkələr və cəmiyyətlər arasında etimad quruculuğu istiqamətində də müəyyən irəliyə doğru addımlar atılır.

Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri kənar vasitəçilər olmadan görüşlər keçirirlər ki, bu uzun illər boyu münaqişə, müharibə şəraitində yaşamış tərəflər arasında qarşılıqlı etimad mühitinin formalaşdırılması üçün vacib əhəmiyyətə malikdir.

Mühüm məsələlərdən biri də Azərbaycanın Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranzit məhdudiyyətlərini aradan qaldırması ilə bağlıdır. İlk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Bununla işğal siyasəti nəticəsində özünü regional izolyasiyaya salan Ermənistanın bu vəziyyətdən qurtulması üçün tarixi fürsət yaranıb. Yəni Azərbaycanın gördüyü fundamental işlər sülhün bərqərar edilməsinə və regional əməkdaşlığa mühüm töhfələr verməs ilə diqqət çəkir.

Lakin bu mərhələdə Ermənistanın normallaşmaya zidd addımları da diqqətdən yayınmır. Belə ki, bu il dekabrın 2-də Avropa İttifaqı (Aİ) və Ermənistan arasında Brüsseldə keçirilən Tərəfdaşlıq Şurasının VI iclasının nəticəsində imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəddə postmünaqişə dövrünün reallıqları təhrif edilib və burada sülh gündəliyinə zidd olan məsələlər öz əksini tapıb. Sənədin həm giriş hissəsində, həm də bəzi bölmələrində Qarabağdan könüllü şəkildə Ermənistana miqrasiya edən sakinlərə istinadən "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri" ifadəsi işlədilib. Bununla yanaşı, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər törətməkdə ittiham olunan və məhkum edilmiş erməniəsilli şəxslər "əsir" statusunda qeyd edilib.

Azərbaycanı hədəf alan məsələlərin yer aldığı bu sənədin sülh gündəliyinə zərbə olmaqla yanaşı, Azərbaycan-Aİ münasibətlərinə də mənfi təsir edəcəyi şübhəsizdir.

Bu mənada rəsmi İrəvanın iki ölkənin tarixində həlledici sülh mərhələsinin irəlilədiyi bir məqamda belə bir addım atması suallar doğurur. Həmçinin Aİ missiyasının Ermənistan üzərindən bölgədə varlığını davam etdirməsi də Cənubi Qafqazda real təhlükə mənbəyidir.

O da bir ayrı gerçəklikdir ki, 8 avqust tarixində Vaşinqtonda sülh müqaviləsinin imzalanmamasının yeganə səbəbi də Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddiasının mövcud olmasıdır.

Onsuz da milli maraqlarını tam təmin edən və dünya nizamında möhkəm mövqelərə sahib olan Azərbaycanın bu uğurlu inkişaf konsepsiyasının onun gələcək nailiyyətlərinin də açarı olacağı şübhəsizdir.

Bu mənada İrəvan bölgənin taleyinin müsbətə doğru həll olunduğu hazırkı həssas məqamda siyasi iradə nümayiş etdirərək həyata keçirdiyi fəaliyyətlərin məsuliyyətini dərk etməli və hadisələrə adekvat davranmalıdır. Çünki bölgədə sülh və kommunikasiyaların açılması Ermənistanın özünə hava və su kimi lazımdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Maliyyə mövqelərimiz daha da möhkəmlənib

**Azərbaycan Respublikası Maliyyə Nazirliyində keçirilən növbəti kollegiya iclasında nazirliyin struktur bölmələri və tabeliyindəki qurumların cari il ərzindəki fəaliyyəti, büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların vəziyyəti, maliyyə xidmətləri və dövlət müəssisələri ilə işin təşkili, həmçinin dövlət maliyyəsinin idarə edilməsində rəqəmsal həllərin tətbiqi istiqamətlərində bu il görülən işlər və növbəti dövr üçün qarşıda duran vəzifələr müzakirə olunub.**

Kollegiyanın sədri Sahil Babayev bildirib ki, başa çatmaqda olan 2025-ci il Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tarixində yüksək nailiyyətlər, hərtərəfli inkişaf və ardıcıl tərəqqi ili kimi yadda qalacaqdır. Nazir qeyd edib ki, ilin on bir ayında sosial-iqtisadi sahədə dayanıqlı artım və makroiqtisadi sabitlik təmin olunub, maliyyə mövqelərimiz daha da möhkəmlənib, Dövlət Neft Fondunun və Mərkəzi Bankın sərəncamında olan valyuta ehtiyatları artıb.

Nazir bildirib ki, parlamentin komitə və plenar iclaslarında keçirilən geniş müzakirələrdən sonra ötən həftə Milli Məclis tərəfindən "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi və icmal büdcəyə daxil olan əsas maliyyə sənədləri qəbul edilib. Gələn ilin dövlət və icmal büdcələrinin ölkəmizin sosial-iqtisadi prioritetləri və qarşımızda duran çağırışlar nəzərə alınmaqla tərtib olunduğunu vurğulayan maliyyə naziri bildirib ki, müdafiə qabiliyyətinin daha da gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışın davam etməsi, iqtisadi inkişafın stimullaşdırılması, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi, dövlətin əsas vəzifə və funksiyalarının həyata keçirilməsi üçün 2026-cı il üzrə maliyyə təminatı tam formalaşdırılıb.

Kollegiyanın sədri 2025-ci ilin dövlət büdcəsinin 11 aylıq icrasını da müsbət qiymətləndirib və qeyd edib ki, yanvar-noyabr aylarında icmal və dövlət büdcələrinin gəlirləri proqnozu üstələyib. Belə ki, icmal büdcənin gəlirləri 11 aylıq proqnoza qarşı 2 milyard 526 milyon manat və ya 6,1 faiz çox icra olunub. Eyni dövrdə dövlət büdcəsinin gəlirləri də proqnozu 324,6 milyon manat və ya 0,9 faiz üstələyib. İcmal və dövlət büdcələrinin xərcləri isə müvafiq olaraq 36 milyard 784,3 milyon manat və 31 milyard 414,7 milyon manat səviyyəsində icra edilib.

Qeyd olunub ki, dövlət büdcəsi vəsaitlərinin daha səmərəli idarə olunması və büdcəyə əlavə gəlirlərin cəlb edilməsi məqsədilə 2025-ci ilin aprel ayından etibarən vahid xəzinə hesabının qalığının aktiv idarə edilməsinə başlanılıb. Bu çərçivədə milli valyutada olan vəsaitlərin yerli banklarda depozitə yerləşdirilməsi və Mərkəzi Bank ilə imzalanmış razılaşmaya əsasən, ABŞ dolları ilə müxbir hesabın qalığına faiz gəlirinin



hesablanması təmin edilib. Nəticədə aprel-dekabr aylarında kommersiya banklarında yerləşdirilmiş depozitlər üzrə 98,6 milyon manat, Mərkəzi Bankdakı ABŞ dolları ilə müxbir hesabın qalığı üzrə isə 20,8 milyon manat olmaqla, ümumilikdə 119,4 milyon manat əlavə gəlir dövlət büdcəsinə köçürülüb.

Müzakirələr zamanı bildirilib ki, dövlət maliyyəsinin idarə olunmasında şəffaflığın, səmərəliliyin və operativliyin artırılması məqsədilə Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən rəqəmsallaşma və idarəetmə proseslərinin təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlər davam etdirilir. Bu tədbirlər çərçivəsində sifarişlərin elektronlaşdırılması, ödəniş sənədlərinin minimallaşdırılması, təsdiqedici sənədlərin pasportlaşdırılması, eləcə də informasiya sistemlərinin müasirləşdirilməsi xüsusilə prioritet istiqamətlər kimi müəyyən edilib.

İclasda büdcə daxilolmalarının uçotu və idarə olunmasının tam elektronlaşdırılması, "İCMAL" informasiya sisteminin geniş tətbiqi, "e-mühasibat" sisteminin rəqəmsal həllərinin inkişaf etdirilməsi, beləliklə, uçotun şəffaflığının və operativliyinin daha da artırılması müzakirə olunub.

Kollegiya iclasında həmçinin maliyyə xidmətləri sahəsində və dövlət müəssisələri ilə işin təşkili istiqamətində görülmüş işlər haqqında məruzə dinlənilib. Bildirilib ki, dövlət müəssisələrinin büdcə və maliyyə göstəricilərinin monitorinqi üçün yeni Qaydalar layihəsi hazırlanıb. Dövlət müəssisələrinin büdcə və maliyyə göstəricilərinin monitorinqinin təkmilləşdirilməsinin, vahid hesabat şablonlarının tətbiqinin əhəmiyyəti vurğulanıb və bu çərçivədə həm dövlət şirkətləri, həm də publik hüquqi şəxslər üzrə vahid monitorinq mexanizminin tətbiqinin planlaşdırıldığı qeyd olunub. Bu tədbirlər dövlət vəsaitlərinin səmərəli idarəedilməsini, maliyyə şəffaflığını və hesabatlılığını daha da gücləndirəcəkdir.

İclasda "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin yaradılması və dövlət maliyyəsinin idarə edilməsində rəqəmsal həllərin tətbiqi istiqamətində görülən işlər barədə də məlumat verilib. Qeyd olunub ki, cari ildə "Büdcə Məlumat İdarəetmə" alt sisteminin yeni versiyası, "İCMAL" informasiya sistemi, "e-rüsum" sisteminin təkmilləşdirilməsi, dövlət satınalmalarında elektron müqavilə platforması və GRP konsepsiyası üzrə vahid mühasibatlıq sisteminin ilkin mərhələsi hazırlanıb. Hazırda vahid maliyyə məlumat bazasının formalaşdırılması, böyükhəcmli məlumatların emalı və analitik təhlili üçün modellərin tətbiqi, eləcə də büdcənin gəlir və xərclərinin proqnozlaşdırılmasını dəstəkləyəcək proqram təminatının inkişaf etdirilməsi üzrə işlər davam etdirilir.

Kollegiya iclasında həmçinin Maliyyə Nazirliyində tapşırıqların icra vəziyyəti və hesabatlarla bağlı məsələlər haqqında təqdimat nümayiş etdirilib və müvafiq məruzə dinlənilib, "İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun illik maliyyə hesabatlarını tərtib edən təşkilatlarda əsas fondlara tətbiq edilən amortizasiya normaları barədə Təlimat" təsdiqlənib.

*"Azərbaycan"*

# "Azərbaycan sosial sahədə dünyaya təqdim edə biləcəyi çoxsaylı uğurlu nümunələrə malikdir"

**"Azərbaycan sosial sahədə dünyaya təqdim edə biləcəyi çoxsaylı uğurlu nümunələrə malikdir. "ASAN xidmət" modeli artıq bir çox ölkələr, o cümlədən Afrika dövlətləri ilə paylaşılmış nümunəvi təcrübədir və regionlararası əməkdaşlıq üçün çox dəyərli modeldir".**

Bu fikirləri Birləşmiş Millətlər Təşkilatının Cənub-Cənub Əməkdaşlıq Ofisinin direktoru Dima Əl-Xətib AZƏRTAC-a müsahibəsi zamanı bildirib. Müsahibəni təqdim edirik.

*- Cənub və üçtərəfli əməkdaşlıq Azərbaycanının COP29 gündəliyi, eləcə də Mərkəzi Asiya və Cənubi Qafqaz üzrə təmiz enerji əlaqəliliyi kimi genişmiqyaslı regional enerji keçidi təşəbbüslərini necə dəstəkləyə bilər?*

- Sualınız üçün təşəkkür edirəm. Bu təşəbbüs Azərbaycan tərəfindən COP29 çərçivəsində Bakıda elan olunub və dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin gündəliyində gücləndirilməsi vacib olan mühüm prioritetlərdən biridir. Dənizə çıxışı olmayan ölkələr üzrə yaxınlarda Türkmənistanda keçirilmiş konfransda infrastruktur əlaqəliliyi və iqlim dəyişikliklərinə uyğunlaşma kimi bir sıra əsas istiqamətlər vurğulanıb. Bu istiqamətlər Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüsə də birbaşa uyğun gəlir. Konfransdakı müzakirələr sübutlara əsaslanan yanaşma ilə göstərdi ki, regional əməkdaşlıq həm milli məqsədlərə daha sürətli nail olunmasına, həm də ümumi regional nəticələrin əldə edilməsinə ciddi müsbət təsir göstərir. Bu, investisiya, hüquqi çərçivə, siyasət formalaşdırılması və təşəbbüslərin uzunmüddətli dayanıqlığı baxımından qarşılıqlı öyrənmə imkanlarını gücləndirir.

*- "Yaşıl Dəhliz" Alyansı Mərkəzi Asiya və Cənubi Qafqazda bərpaolunan enerji şəbəkələrinin inteqrasiyası və "yaşıl infrastruktur" layihələrinin sürətləndirilməsinə xidmət edir. BMT-nin Təhlükəsizlik və Müdafiə Komissiyası (UNOSSC) bu kimi çoxölkəli təşəbbüslərdə müxtəlif milli prioritetləri necə uzlaşdıra bilər ki, uzunmüddətli siyasi uyğunluq və davamlılıq təmin olunsun?*

- UNOSSC bunun üçün özündə mövcud olan müxtəlif platformalardan geniş şəkildə istifadə edə bilər. Biz ölkələr arasında təcrübə və ən yaxşı nümunələrin paylaşılmasını təmin edir, eləcə də BMT sisteminin hər bir ölkədəki mövcudluğuna əsaslanaraq bu təşəbbüslərin milli inkişaf planlarına inteqrasiya olunmasına dəstək göstəririk. Bundan əlavə, institusional potensialın gücləndirilməsi, siyasət dialoqlarının təşkili, interhökumət mexanizmləri, həmçinin idarə etdiyimiz etimad fondları vasitəsilə maliyyə və texniki dəstək imkanlarını səfərbər etməyə tam hazırıq.



*- 2026-2029-cu illəri əhatə edən yeni UNOSSC Strateji Çərçivəsi "Yaşıl Dəhliz" kimi regional iqlim və enerji platformalarına dəstəyi necə artıracaq?*

- Regional inteqrasiya, regioniçi əməkdaşlıq və ən yaxşı təcrübələrin paylaşılması bizim yeni Strateji Çərçivəmizin əsas sütunlarından biridir. Bu yanaşma Azərbaycanın məqsədlərinə tam uyğundur. Azərbaycan xüsusilə sosial sahədə dünyaya təqdim edə biləcəyi çoxsaylı uğurlu nümunələrə malikdir. "ASAN xidmət" modeli artıq bir çox ölkələr, o cümlədən Afrika dövlətləri ilə paylaşılmış nümunəvi təcrübədir və regionlararası əməkdaşlıq üçün çox dəyərli modeldir. Biz bu cür əməkdaşlıq nümunələrini regional platformalarda və regionlararası öyrənmə mexanizmlərində təqdim etməyə tam hazırıq.

*- Digər regionlarda həyata keçirilmiş hansı uğurlu üçtərəfli əməkdaşlıq nümunələri bu regionda bərpaolunan enerji, rəqəmsallaşdırılmış enerji şəbəkələri və təmiz nəqliyyat kimi sahələrin inkişafına uyğunlaşdırıla bilər?*

- Bir çox nümunələr mövcuddur. Lakin xüsusi olaraq birini qeyd etmək istərdim. UNOSSC-nin Koreya Respublikası ilə tərəfdaşlıq çərçivəsində dəstəklədiyi üçtərəfli əməkdaşlıq təşəbbüsü, Mekong çayı boyunca yerləşən dörd ölkədə su enerji qida ehtiyatlarının qarşılıqlı əlaqəsi. Bu təşəbbüsün ən böyük üstünlüyü həm milli, həm də regional səviyyədə fəaliyyət göstərən institutlarla əməkdaşlıqdır. Layihənin pilot mərhələdə əldə etdiyi nəticələrin ölkə miqyasında genişləndirilməsi və region daxilində paylaşılması üçün platformalar yaradılıb. Bu təcrübə icma səviyyəsində iştirakın təmin olunması, institusional əməkdaşlıq və elm texnologiyaya əsaslanan həllərin tətbiqi baxımından çox dəyərli dərslər təqdim edir. Koreya hökumətinin bu prosesdə rolu həmin yanaşmanın nə qədər faydalı olduğunu göstərir.

*- UNOSSC ölkələr arasında texnologiya, bacarıq və praktiki təcrübə mübadiləsini necə dəstəkləyə bilər ki, "yaşıl həllər" idxal edilmiş və standartlaşdırılmış modellər kimi deyil, yerli ehtiyaclardan irəli gələn uyğunlaşdırılmış həllər kimi tətbiq olunsun?*

- Biz bunun üçün müxtəlif mexanizmlərə malikik. Bilgi və təcrübə mübadiləsini təşviq edən bilik platformalarımız, geniş tədqiqat və analitik potensiala sahib düşüncə mərkəzləri şəbəkəmiz bu sahədə aparıcı rol oynayır. Eyni zamanda üzv dövlətlərlə təşkil etdiyimiz siyasət dialoqları, BMT Baş katibi və UNDP Administratoru üçün hazırladığımız yüksəksəviyyəli hesabatlar vasitəsilə əldə edilən dərsləri sistemləşdirərək paylaşırıq. Bu biliklər daha sonra etimad fondlarımız tərəfindən dəstəklənən yeni təşəbbüslərin formalaşdırılmasında tətbiq olunur. Məqsəd ölkələrə yerli kontekstə uyğunlaşdırılmış real ehtiyaclara cavab verən praktiki həllər təqdim etməkdir.

# Enerji, əməkdaşlıq və dəhliz diplomatiyası

**Son zamanlar həm Azərbaycanın, həm də bütövlükdə Cənubi Qafqazın qlobal geosiyasi proseslər çərçivəsində təhlilinə maraq daha da artıb. Burada iki tendensiya diqqət çəkir. Onlardan biri Azərbaycanın dövlət olaraq nüfuzunun daha da artmasıdır. Bunu Prezident İlham Əliyevin liderlik fəaliyyətinə müxtəlif beynəlxalq dairələr tərəfindən verilən yüksək qiymətin nəticəsi kimi dəyərləndirmək olar. Digər məqam isə geosiyasi strateqlərin Cənubi Qafqazın siyasi statusunun daha geniş miqyasda müəyyən edilməsi ilə bağlı söylədikləri fikirlərlə əlaqəlidir. Bu iki yanaşma kontekstində Azərbaycanın xarici siyasətinin bir sıra xüsusiyyətlərinin təhlili vacibdir.**




### Cənubi Qafqaz: tarixi-geosiyasi dəyişikliklər

Ekspertlər Cənubi Qafqazın dərin siyasi transformasiyalar mərhələsinə daxil olduğunu, regionda yeni strateji güc balansı və geosiyasi qüvvələr nisbətinin Azərbaycanın xeyrinə dəyişdiyini vurğulayırlar. Onların buna tam əsası var. Regionumuz həqiqi mənada geosiyasi yeniləşmənin növbəti mərhələsinə qədəm qoyub. Bununla Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi qələbənin təsiri ilə formalaşan regional geosiyasi yeniləşmənin bir mərhələsinin başa çatdığını və eyni zamanda proseslərin yeni dinamika aldığını demək olar. Ekspertlər də, əslində, postmüharibə dönəmində regional miqyasda geosiyasi transformasiyanın ikinci mərhələsindən bəhs edirlər. Bu mərhələləri politoloji olaraq belə xarakterizə etmək olar: ilk növbədə, qeyd edək ki, "birinci mərhələ" adlandırdığımız dövr 2020-2025-ci illəri əhatə edir. Regiondaxili geosiyasi mühitdə onun başlıca əlamətinə diqqət yetirməliyik. Belə ki, Azərbaycanın qalib gəldiyi 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqazda sülh, sabitlik, əməkdaşlıq və təhlükəsizliyin yeni prinsiplərinin formalaşması başa çatıb. Həmin prinsiplərə əsaslanan münasibətlərin yeni sisteminin təsiri ilə Cənubi Qafqaza yönələn kənar pozucu təsirlər, faktiki olaraq, neytrallaşdırılıb. Bununla geosiyasi kontekstdə tarixi dəyişiklik baş verib: Cənubi Qafqazın geosiyasi konfiqurasiyası regionun maraqları üzərində bərqərar olmağa başlayıb. Təşəbbüsün regiondaxili proseslərin nüfuzetmə potensialına keçməsi növbəti mərhələ üçün lazımi baza yaradıb.

İkinci mərhələ 2025-ci ilin payızından başlayıb. Hələlik onun ümumi əlamətlərindən və əsas məqsədindən danışmaq olar. İndiki mərhələnin əsas əlaməti Azərbaycanın Cənubi Qafqazın lider dövləti kimi regional təhlükəsizlik arxitekturasını regionlararası aktor statusunda daha geniş geosiyasi məkanın konfiqurasiyasına sintez etməsidir. Prosesin ümumi geosiyasi əlamətləri sırasında "C6+1" formatının yaradılması və Zəngəzur dəhlizinin (TRIPP) Orta dəhliz kontekstində regional maraqlarla qlobal maraqların uyğunlaşdırılması funksiyasını stimullaşdırmasını qeyd etmək olar.

Yuxarıda deyilənləri ümumi siyasi məntiq çərçivəsində birləşdirmək olar. Birincisi, ekspertlərin bəhs etdikləri yeni geosiyasi transformasiyanın memarı Azərbaycan Prezidenti İlham Əliyevdir. Dövlət başçısının təşəbbüsləri sayəsində həyata keçirilən müxtəlif əməkdaşlıq və təhlükəsizlik formatları beşillik gərgin mübarizədən sonra, demək olar ki, dünyanın böyük gücləri tərəfindən qəbul edilib.

İkincisi, Azərbaycan Cənubi Qafqazın müasir tarixində ilk dövlətdir ki, regional əməkdaşlıq və təhlükəsizlik aspektlərini özündə ehtiva edən vahid "Cənubi Qafqaz evi"nin arxitekturasını yaradır. İndi Gürcüstanın Azərbaycan və Ermənistana və Ermənistanın Azərbaycan və Gürcüstana münasibətinin dinamikasını hər iki dövlətin (yəni, Gürcüstan və Ermənistanın) Zəngəzur dəhlizinə və regional tranzit-nəqliyyat təşəbbüslərinə olan münasibətilə ölçülür. Bu, Azərbaycanın regionda yaratdığı yeni münasibətlər sisteminin motivəedici parametridir. Təbii ki, geosiyasi baxımdan regional münasibətlər sisteminin mərkəzi faktoru Azərbaycanın əsas rolunun təsbit edilməsidir. Bu ümumi prosesin müxtəlif aspektlərinin geosiyasi özəlliklərinə nəzər salaq.

### Mərkəzi Asiya: yeni inteqrasiya platforması

2025-ci il noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündəki çıxışında Azərbaycan Prezidenti İlham Əliyev qarşılıqlı münasibətlərə aid bir neçə strateji tezis ifadə edib. Birincisi, "Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır". Bu xüsusda dövlətimizin başçısı "çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs"i ayrıca göstərir. Bu möhkəm və sarsılmaz təməl üzərində "qardaşlıq, dostluq, həmrəylik" bərqərar olub.

İkincisi, Azərbaycan nəinki bu dəyərləri qoruyub saxlayıb, həm də "onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika" verib. Eyni zamanda "Azərbaycan Mərkəzi Asiya ölkələri ilə müttəfiqlik və strateji tərəfdaşlıq" əlaqələrini inkişaf etdirir. Nümunə kimi "birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr"i göstərmək olar.

Üçüncüsü, bütün bunların məntiqi və real nəticəsi olaraq "Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur".

Onu vurğulayaq ki, sonuncu tezis ekspertlərin böyük əksəriyyəti tərəfindən əhəmiyyətli hesab edilir. Amma onu xüsusi qeyd etmək gərəkdir ki, "Azərbaycan+C5" vahid geosiyasi və geoiqtisadi regionunun yaranması Bakının "enerji, əməkdaşlıq və dəhliz" diplomatiyasının sayəsində mümkün olub.

İllərdir ki, Azərbaycan Prezidenti diplomatiyanın bu iki aspektini birləşdirən proqram və layihələr reallaşdırır. Həmin sırada enerjidaşıyıcılarının Qərbə çatdırılmasına yönələn ortaq layihələr xüsusi rol oynayır. Məsələn, "Cənub qaz dəhlizi" (TANAP/TAP) layihəsi Mərkəzi Asiya ölkələrindən təbii qazın Avropaya çatdırılmasını nəzərdə tutur. Bundan başqa, Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan (BTC) marşrutu üzrə nəqli həyata keçirilir. Son zamanlar Mərkəzi Asiyadan gətirilən malların dəmir və avtomobil yolları ilə Gürcüstana, Ermənistana və Türkiyəyə daşınması xeyli intensivləşib.

Vahid geosiyasi və geoiqtisadi məkanın enerji aspekti ilə yanaşı, dəhliz istiqaməti də intensiv şəkildə gündəmdədir. Orta dəhliz kontekstində Mərkəzi Asiyadan Azərbaycana müxtəlif təyinatlı məhsulların nəqli ayrıca dinamika ilə genişlənir. Bu baxımdan, Prezident İlham Əliyevin Daşkənddə çıxışı zamanı səsləndirdiyi fikir xüsusi əhəmiyyət kəsb edir. Ölkə rəhbəri deyib: "Azərbaycanda Zəngəzur dəhlizinin tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta dəhlizin əsas arteriyasına çevriləcək".

### "Orta dəhlizin əsas arteriyası"

Azərbaycan Prezidentinin bu ifadəsi bir sıra maraqlı məqamları əks etdirir. İlk növbədə, Zəngəzur dəhlizi Orta dəhliz kontekstində qlobal miqyasda geosiyasi dəyərə malikdir. Buna görədir ki, ona "TRIPP" - "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" da deyilir. Yəni bu yanaşma müstəvisində Zəngəzur regionun coğrafi hüdudlarını aşaraq qlobal əlaqələr miqyasında məna kəsb edir. Bu keyfiyyətdə həmin ərazi həm "Zəngəzur", həm də "TRIPP"-dir. Lakin tarixi-siyasi baxımdan o yalnız Zəngəzurdur. Zəngəzurun bu anlamı onun nəqliyyat dəhlizi kimi özəlliyinə tam uyğundur. Çünki əsrlər öncə Zəngəzur Azərbaycan ərazisi kimi böyük İpək yoluna daxil olub. Hazırkı mərhələdə həmin funksiya yenidən bərpa edilir.

Digər tərəfdən, Zəngəzurun "Orta dəhlizin əsas arteriyası" funksiyasını alması regionda alternativlərin mövcudluğuna da dəlalət edir. Bu kontekstdə Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə ifadə etdiyi aşağıdakı fikir çox əhəmiyyətlidir. Dövlət başçısı demişdir: "Zəngəzur dəhlizi həm Orta dəhliz, həm də "Şimal-Cənub" dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb edir".

Zəngəzur dəhlizinin işə düşməsi Cənubi Qafqazda işlək tranzit marşrutlarını kənara atmır, əksinə, onlarla birlikdə daha güclü nəqliyyat dəhlizini təşkil edir. Azərbaycan Gürcüstan istiqamətində nəqliyyat-logistikanı, enerji mübadiləsini yeni səviyyəyə yüksəltməyi hədəfləyib. Məsələn, bərpaolunan enerji sferasında Xəzər hövzəsinin imkanlarından Gürcüstan istiqamətində istifadə daha geniş xarakter almaqdadır.

Geniş coğrafiyanı əhatə edən nəqliyyat-logistika sistemində Cənubi Qafqazı xüsusi infrastruktur məkanına çevirmək böyük siyasi-diplomatik hadisədir. Bu prosesi "C5" formatı ilə əlqələndirmək və əslində, onu "C6"-ya çevirmək regional əməkdaşlıqla təhlükəsizlik arxitekturasının yeniləşməsinin sintezinə nail olmaq baxımından əhəmiyyətli nümunədir.

Politoloji aspektdə vurğuladığımız xüsusiyyətlər xarici siyasətin digər istiqamətləri ilə harmoniya təşkil edir. Həmin kontekstdə bir neçə mühüm məqama nəzər salaq.

### Diplomatiya: regional miqyasdan qlobal miqyasa keçid nümunəsi

Hər hansı bir dövlətin diplomatik fəaliyyəti yalnız çoxtərəfli olduqda qlobal miqyasda təsir gücünə çevrilir. Bununla yanaşı, müasir diplomatiyada hansı dəyərə üstünlük verilməsi ilə strateji məqsəd arasında sıx bağlılıq olmalıdır. Məsələn, əgər bir dövlət çoxaspektli diplomatiya həyata keçirirsə, həmin aspektlər üçün ortaq məqsədin mahiyyəti vacib faktordur.

Qlobal miqyasda diplomatiyada danışıqlar, dialoq və kompromislər vasitəsilə münaqişələrin dinc yolla həllinə nail olmaq məqsədi qarşıya vəzifə kimi qoyula bilər. Və ya əsas məqsəd milli maraqların qorunması ola bilər. Strateji alyansların yaradılması və beynəlxalq siyasətin koordinasiyası məqsədi də bu sırada ön plana çıxarıla bilər.

Azərbaycanın qlobal miqyasda çoxşaxəli fəaliyyəti əməkdaşlıq və təhlükəsizliyi sülh naminə harmonik təmin etməyə yönəlib. Məlum Vaşinqton razılaşması məhz bu müstəvidə müxtəlif çalarları olan mühüm hadisədir. Azərbaycanın qlobal diplomatiyası sayəsində həm regional miqyasda uzun sürən münaqişəyə son qoyuldu, həm də Azərbaycanın Qərb dövlətləri ilə əməkdaşlığında yeni era başladı. Bu, ABŞ və Avropa istiqamətlərində aydın görünür.

### Azərbaycan: ABŞ və Avropanın strateji korrektələri

2025-ci ilin 8 avqustunda Vaşinqtonda Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına dair məlum razılaşmalar əldə edildikdən sonra ekspertlər tərəflər arasında yeni bir münasibətlər mərhələsinin başlandığını vurğulayan təhlillər apardılar. Bununla bağlı Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin sosial şəbəkədə paylaşdığı belə bir fikri maraq doğurdu: "Prezident İlham Əliyev müharibədə qalib gəldi - indi isə sülhü qazanır!"

Müharibədə qalib gələn tərəfin postmüharibə mərhələsində sülhü qazanması çox vacib məsələdir. Bu o deməkdir ki, hərb meydanında əldə edilən tarixi zəfəri (tam haqlı və ədalətli bir hadisə idi) diplomatiya cəbhəsində əməkdaşlıq və təhlükəsizlik naminə davamlı prosesə çevirməkdə qətiyyət nümayiş etdirilir. Keçən müddətdə müşahidə etdiyimiz proseslər Hikmət Hacıyevin haqlı olduğunu göstərir. Bu, çoxsaylı faktlarla əsaslandırılan bir hadisədir. Ancaq burada iki nümunəyə diqqət yetirək.

2025-ci ilin sentyabrında Hikmət Hacıyevin Vaşinqtona səfəri oldu. O zaman Azərbaycan Prezidentinin köməkçisi senator Stiv Deyns və Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin sədri, konqresmen Brayan Mastla görüşmüşdü. Müzakirələrdə ABŞ tərəfi "Prezident İlham Əliyevlə ABŞ Prezidenti Donald Tramp arasında avqustun 8-də Vaşinqtonda keçirilmiş sammitin strateji əhəmiyyətini" ayrıca qeyd etmişdi. Amerika konqresmenləri bununla iki dövlət arasındakı münasibətləri "907-ci düzəliş"dən başlayan böhran dönəminə son qoyub, münasibətlərdə yeni konstruktiv səhifə açmaq niyyətində olduqlarını bəyan etmişdilər. Onlar əmindirlər ki, dəyişiklik "Azərbaycan-ABŞ münasibətləri, həmçinin regional sülh üçün müsbət nəticələr" verəcəkdir.

Digər nümunə, 2025-ci il noyabrın 18-də Bakıda tarixdə ilk dəfə olaraq "Ortaq baxışlar: Strateji tərəfdaşlıq naminə Azərbaycan-ABŞ dialoqu" mövzusuna həsr edilən Azərbaycan-ABŞ Beyin Mərkəzlərinin Forumunun keçirilməsidir. Bu, birinci forumdur və təbii ki, sonuncu deyildir.

Beyin mərkəzlərinin forumunun keçirilməsi bizim üçün iki aspektdə əhəmiyyətlidir. Vaşinqton, əvvəla, uzun müddətdir Azərbaycana və bütövlükdə türk dövlətçiliyinə qarşı aparılan siyasətə strateji korrektələr edir, ikincisi, bu prosesi əsaslı şəkildə beyin mərkəzlərinin təhlilləri və proqnozları bazasında yenidən şəkilləndirməyə çalışır. Bu zaman Azərbaycanın beyin mərkəzlərinin mövqeyini ciddi surətdə nəzərə alır.

Deməli, ABŞ iki dövlət arasındakı münasibətlərin sonrakı məzmunlaşdırılmasını artıq əlaqələrin qarşı tərəfin mövqeyi fonunda reallaşması xəttinə üstünlük verir. Həmin kontekstdə forumda səsləndirilən iki fikrə nəzər salaq.

Atlantik Konsul Beyin Mərkəzinin Avrasiya şöbəsinin baş direktoru Con Herbst deyib: "Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ Prezidenti Donald Tramp arasında keçirilmiş görüşlərin nəticələri həm Azərbaycan, həm də regionun qonşu dövlətləri üçün olduqca uğurlu hesab edilir. ABŞ-Azərbaycan münasibətlərində dönüş nöqtəsi isə Prezident İlham Əliyev, Prezident Donald Tramp və Baş nazir Nikol Paşinyan arasında imzalanan vacib sənəd oldu. Bu, Ermənistan ilə Azərbaycan arasında sülh sazişinin imzalanması üçün mühüm bir zəmin yaradıb".

Avrasiya Təhlükəsizlik və Rifah Proqramının baş direktoru Kamran Bokhari isə müzakirə edilən məsələyə regional kontekstdə yanaşıb. Cənubi Qafqazda geosiyasi güc balansının ciddi şəkildə dəyişdiyini ifadə edən K.Bokhari deyib: "Azərbaycanın müharibədə qazandığı Zəfər regionda yeni reallıqlar yaradıb. Artıq Cənubi Qafqaz özü geniş geosiyasi dəhlizə çevrilə biləcək potensiala malikdir. Bu isə olduqca mühüm məsələdir".

### Cənubi Qafqaz "geniş geosiyasi dəhliz" statusunda

Azərbaycandan kənarda yerləşən bir beyin mərkəzinin bu geosiyasi qənaəti çox düşündürücüdür. Bu, hər şeydən öncə, Azərbaycan Prezidentinin postmüharibə mərhələsində həyata keçirdiyi xarici siyasətin uğurlu olduğunun etirafıdır. Yəni dövlət başçısı İlham Əliyev regional miqyasda liderliklə qlobal səviyyədə uğurlu liderliyi sintez edə bilən zəkaya və diplomatik məharətə malikdir. Bu, artıq etiraf edilməkdədir.

Digər tərəfdən, Cənubi Qafqazın "geniş geosiyasi dəhliz" kimi təsnifi yenidir və araşdırılmalıdır. Məsələnin bir tərəfi regionun hansı mənada geosiyasi dəhliz ola biləcəyinin aydınlaşdırılması ilə bağlıdır. Qısa desək, bizcə, yuxarıda adıçəkilən beyin mərkəzi Azərbaycanın Mərkəzi Asiya ilə Qafqaz arasında bütöv geosiyasi mühit yaratdığını nəzərdə tutur və bu mühitin təsiri qlobal miqyasda əhəmiyyətli sayılır. Burada Şərqdən başlayan əməkdaşlıq dəhlizinin Qərbə qədər vahid geosiyasi məkan halına gəlməsi nəzərdə tutula bilər.

Bu məqamı K.Bokharinin forumda ifadə etdiyi aşağıdakı fikrindən duymaq olur. Avrasiya Təhlükəsizlik və Rifah Proqramının (Vaşinqtondakı Nyu Lines İnstitutunun tərkibində fəaliyyət göstərir) baş direktoru vurğulayır ki, Azərbaycan regionda söz sahibi olan bir aktora çevrilib və əlavə edir: "Şimal və Cənub qonşularının strateji çətinliklərlə üzləşdiyi bir zamanda Azərbaycanın xüsusilə vasitəçilik sahəsində mühüm rol oynadığını görürük. Çünki ətraf ölkələr müharibələr və müxtəlif geosiyasi çaxnaşmalardan əziyyət çəkirlər. Azərbaycanın ətrafında proseslər sürətlə dəyişir və bu vəziyyət ölkə üçün yeni imkanlar yaradır. Düşünürəm ki, Azərbaycan bu imkanlardan uğurla istifadə edir".

Xatırladaq ki, K.Bokhari fəlsəfə doktorudur və uzun müddətdir ki, ABŞ-də strateji araşdırmalarla məşğuldur, bir neçə maraqlı əsərin müəllifidir. Geosiyasi tədqiqat sahəsində kifayət qədər təcrübəyə malikdir.

### Mühüm geosiyasi mövqe

Azərbaycan Prezidentinin fəaliyyətinin bütövlükdə Cənubi Qafqazı yeni geosiyasi status səviyyəsinə yüksəltdiyi artıq hər kəs tərəfindən etiraf olunan gerçəklikdir. Bu proses şərq, qərb, cənub və şimal istiqamətlərində böyük dövlətlər tərəfindən qəbul olunur və ona münasibətləri də ümumilikdə konstruktivdir. Bu sırada ABŞ və Avropanın Azərbaycana yönəlik siyasətində müsbətə doğru dəyişikliklər göz qabağındadır. Rusiya kifayət qədər ehtiyatlı mövqe nümayiş etdirir.

İran ümumən Azərbaycana münasibətdə daha pozitiv mövqe tutmağa meyillənib. Türkiyə isə strateji müttəfiq və tərəfdaş kimi Azərbaycanın regional miqyasda daha böyük uğurlar qazanması üçün mümkün olan hər şeyi etməkdədir. Pakistan getdikcə daha sıx şəkildə Azərbaycan-Türkiyə tandemini dəstəkləyir və bu proses yüksələn xətlə inkişaf edir.

Mərkəzi Asiya vahid "6" formatında Azərbaycanla bütövləşməklə strateji niyyətini ifadə etmiş oldu. Bu formatın Cənubi Qafqazın "genişlənmiş geosiyasi dəhliz" statusuna yüksəlməsində prinsipial əhəmiyyəti danılmazdır.

Beləliklə, Azərbaycan müasir dövlətçilik tarixində mühüm geosiyasi mərhələyə qədəm qoyub. Prezident İlham Əliyevin titanik fəaliyyətinin sintezi olan bu nəticə ölkəni növbəti uğurlara aparacaq. Azərbaycan xalqı və türk dünyası bu uğuru çox yüksək qiymətləndirir!

*Kamal ADIGÖZƏLOV,*
*siyasi analitik*

## "Biz Azərbaycanla birgə xüsusi layihələri həyata keçirə biləcəyimizi müəyyənləşdirməkdə maraqlıyıq"

**Ukraynada baş verən münaqişə qlobal ərzaq bazarlarında dərin təlatümlər yaradaraq, ərzaq təhlükəsizliyinin artıq təkcə iqtisadi deyil, həm də geosiyasi məsələ olduğunu bir daha ön plana çıxarıb. Taxıl tədarük zəncirlərinin pozulması, qiymətlərin kəskin artımı və iqlim dəyişikliyinin təsirləri, xüsusilə inkişaf etməkdə olan ölkələr üçün riskləri daha da artırıb. Belə bir mürəkkəb şəraitdə beynəlxalq əməkdaşlıq, innovativ yanaşmalar və regional potensiallardan səmərəli istifadə qlobal ərzaq təhlükəsizliyinin təmin olunmasında həlledici əhəmiyyət daşıyır. Bu kontekstdə Azərbaycan həm strateji coğrafi mövqeyi, həm də geniş kənd təsərrüfatı resursları ilə diqqət mərkəzinə çıxır. İşğaldan azad edilmiş ərazilərin bərpası, kiçik və orta fermer təsərrüfatlarının üstünlük təşkil etdiyi aqrar struktur, eləcə də Avropa və beynəlxalq tərəfdaşlarla artan əməkdaşlıq imkanları ölkənin regional və qlobal ərzaq təhlükəsizliyi gündəliyində rolunu gücləndirir.**



Qlobal Ərzaq Təhlükəsizliyi üzrə Təşəbbüsün katibi Conrad Reinin AZƏRTAC-a müsahibəsində qlobal ərzaq təhlükəsizliyi mənzərəsi, Ukrayna münaqişəsinin təsirləri, eləcə də Azərbaycanın bu çağırışlar fonunda oynaya biləcəyi rol, beynəlxalq təşəbbüslər, investisiya imkanları və kənd təsərrüfatının davamlı inkişaf perspektivləri ətraflı şəkildə müzakirə olunur.

*- İşğaldan azad olunmuş Qarabağın tarixi olaraq üzümçülük, şərabçılıq, taxılçılıq, meyvəçilik və pambıqçılıq zonası olması nəzərə alınsa, bu ərazilərdə müasir texnologiyalar və davamlı praktikalar əsasında kənd təsərrüfatını bərpa etmək üçün hansı beynəlxalq əməkdaşlıq və investisiya imkanları mövcuddur?*

- Burada iki əsas istiqamət ön plana çıxır. Birincisi, iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi və kənd təsərrüfatı üzrə İnnovasiya Komissiyasının nəticələri əsasında formalaşan və təsir imkanlarını sübut etmiş innovasiyaların geniş miqyasda tətbiqidir. Bu, yağış sularının toplanması üzrə təlimlərdən tutmuş məlumat əsaslı proqnozlaşdırma sistemlərinə qədər müxtəlif həllərdir. Bu yeniliklərin bir çoxu onsuz da mövcuddur və məqsəd onları səmərəli şəkildə genişləndirməkdir.

İkincisi, özəl sektorla əməkdaşlıqdır. Qlobal təşəbbüsün əsas dayaq nöqtələrindən biri məhz özəl sektorun prosesə cəlb edilməsidir. Bu təşəbbüsə artıq böyük çoxmillətli şirkətlər qoşulub. Biz həmçinin Azərbaycan şirkətləri ilə işləməyə və onları bu prosesə inteqrasiya etməyə böyük maraq göstəririk. Çünki kənd təsərrüfatının əsası kiçik fermerlərdir və onların dəstəklənməsi əsas hədəflərimizdən biridir.

*- Azərbaycanın 4,8 milyon hektar kənd təsərrüfatı torpağı var. Beynəlxalq əməkdaşlıq və Avropa, xüsusilə İtaliya investisiyaları bu potensialın ərzaq təhlükəsizliyi və ixrac imkanları baxımından açılmasına necə kömək edə bilər?*

- Qlobal təşəbbüs hazırda böyük beynəlxalq dinamika qazanıb və biz Afrika Buynuzu ölkələri ilə işə başlamışıq. Avropa Komissiyası və İtaliya hökuməti ilə müəyyən təşəbbüslər üzrə müzakirələr aparmışıq. Biz yaxın aylarda Azərbaycanla birgə xüsusi layihələri həyata keçirə biləcəyimizi müəyyənləşdirməkdə çox maraqlıyıq. Məqsəd Avropa İttifaqı və İtaliya kimi tərəfdaşların bu prosesə cəlb olunması və Azərbaycanda konkret kənd təsərrüfatı layihələrinin reallaşdırılmasıdır.

*- Azərbaycan kənd təsərrüfatının 90 faizi kiçik və orta fermer təsərrüfatlarının payına düşür. Bu təsərrüfatların rəqabət qabiliyyətini artırmaq, səmərəliliyi yüksəltmək və beynəlxalq standartlara uyğunlaşdırmaq üçün hansı maliyyə mexanizmləri daha effektli ola bilər?*

- Qlobal təşəbbüs çərçivəsində müxtəlif maliyyə alətlərindən istifadə mümkündür. Qrantlar, kreditlər, həmçinin startap və kiçik müəssisələrin dəstəklənməsinə yönəlmiş yeni mexanizmlər nəzərdə tutulur. Biz məhdud bir modelə bağlı deyilik. Konkret layihə üzrə detallı müzakirələr aparıldıqdan sonra ən uyğun mexanizmi seçmək mümkündür.

*- Azərbaycanın yüksəkkeyfiyyətli meyvə, tərəvəz və heyvandarlıq potensialı nəzərə alınsa, Avropa İttifaqı və digər beynəlxalq bazarlara çıxış üçün hansı investisiyalar, tərəfdaşlıqlar tələb olunur və Avropa ölkələri bu prosesdə necə rol oynaya bilər?*

- Burada əsas məsələ fermerlərin beynəlxalq tələblər barədə məlumatlandırılmasıdır. Biz bunun üçün xüsusi təlim proqramlarının yaradılmasını təklif edirik. Hazırda oxşar proqramı Cənubi Afrika hökuməti ilə müzakirə edirik və bu modeli Azərbaycan üçün də tətbiq etmək mümkündür. Çünki fermerlər üçün ən vacib məsələ bazarlara çıxış imkanıdır. Bu istiqamətdə Afrika İnkişaf Bankı ilə də əməkdaşlıq aparırıq və oxşar mexanizmləri Azərbaycan üçün də qurmağa hazırıq.

# Kiçik addımlar, böyük nəticələr

## Hər təşəbbüs iqtisadiyyata əlavə dəyər qatır

Azərbaycanda sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının dinamikasına əhəmiyyətli təsir göstərən əsas amillərdəndir. Qeyri-neft sektorunun genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, dövlət dəstəyinin artırılması və rəqəmsal iqtisadiyyatın tətbiqi sahibkarlıq fəaliyyətinə yeni nəfəs verib. Bu proses həm iqtisadi artımın sürətlənməsinə və əlavə dəyərə, həm də məşğulluğun artırılmasına xidmət edir.



Bütün bu tədbirlər nəticəsində Azərbaycanın iqtisadi inkişafı daha dayanıqlı və çoxşaxəli istiqamətlər üzrə formalaşır ki, bu da ölkənin strateji hədəflərinə çatmaq üçün möhkəm zəmin yaradır. Azərbaycanın iqtisadi mənzərəsi çevik islahatlar, biznes mühitinin yaxşılaşdırılması və qeyri-neft sektorunun gücləndirilməsi ilə xarakterizə olunur. Şaxələndirmə siyasətinin hədəfləri təkcə iqtisadi stabilliyi möhkəmləndirmir, həm də yeni istehsal sahələrinin formalaşmasına şərait yaradır. İnfrastrukturun yenilənməsi, sahibkarlığa dövlət dəstəyinin genişlənməsi və innovasiyaların iqtisadi proseslərə inteqrasiyası ümumi iqtisadi dinamikanı müsbət istiqamətdə dəyişdirir. Bu meyillər 2025-ci ilin iqtisadi göstəricilərində özünü açıq şəkildə göstərir. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-oktyabr ayları ölkə iqtisadiyyatında dinamik proseslərlə yadda qalıb. Bu dövrdə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar ümumilikdə 106,4 milyard manatlıq ümumi daxili məhsul istehsal ediblər ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyərin həcmi 2,1 faiz azalsa da, qeyri-neft-qaz sahələrində, əksinə, 3,1 faiz artım göstərilib.

Qeyd etdiyimiz iqtisadi dinamikanın fonunda qeyri-neft sektorunda müşahidə olunan artım sahibkarlığın inkişafı üçün əlverişli şəraitin formalaşdığını göstərir. Bu artım tendensiyası ölkədə biznes mühitinin liberallaşdırılması, sahibkarlıq fəaliyyətinə giriş maneələrinin azaldılması və yeni investisiya təşəbbüslərinin təşviqi üçün geniş imkanlar açır. Hazırkı mərhələdə iqtisadiyyatın real sektorunda baş verən struktur dəyişiklikləri mikro, kiçik və orta sahibkarlığın rolunu artırır və onların iqtisadi sistemdə daha fəal mövqe tutmasına şərait yaradır. Məhz bu proses isə sahibkarlığın inkişafını stimullaşdıran islahatların zəruriliyini ön plana çıxarır. Vergi yükünün azaldılması, biznes qeydiyyatının sadələşdirilməsi, lisenziyalaşdırma proseslərinin rəqəmsallaşdırılması və tənzimləyici mühitin liberallaşdırılması sahibkarlar üçün əlverişli şərait yaradıb. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Biznesin İnkişafı Fondu (BİF) və "ASAN xidmət" kimi qurumların fəaliyyəti biznes mühitinin çevikliyini artırıb. Bütün bu faktorlar iqtisadiyyatın şaxələndirilməsi strategiyasına uyğun olaraq, sahibkarlığın ölkənin uzunmüddətli inkişafında aparıcı qüvvəyə çevrildiyini təsdiqləyir.

Bu gün kiçik və orta biznes subyektləri (KOB) Azərbaycan iqtisadiyyatında mühüm paya malikdir və iqtisadiyyatın şaxələndirilməsində aparıcı rol oynayır. Ən çox da regionlarda KOB-lar istehsal potensialını gücləndirir, eləcə də əhalinin məşğulluğunun artırılmasına kömək edir. Bunun nəticəsində kənd təsərrüfatı, aqrar sənaye, turizm, xidmət sektoru və yüngül sənaye kimi sahələrdə minlərlə kiçik müəssisə fəaliyyətə başlayıb. Rəqəmsal alətlərin (məlumatların toplanması, işlənməsi, saxlanması və ötürülməsi üçün istifadə olunan elektron, proqram təminatına əsaslanan və ya internet üzərindən işləyən texnoloji vasitələr), e-ticarətin və elektron ödəniş sistemlərinin inkişafı KOB-ların bazarlara çıxış imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib. Unutmaq olmaz ki, sahibkarlıq fəaliyyəti üçün lazım olan G2B (Government to Business - dövlətin biznesə xidmətləri) və B2B (Business to Business - bir biznesin digər biznesə xidməti) xidmətlərinin vahid məkanda cəmləşdiyi KOB evləri də biznesin işini asanlaşdırır.

Bütün bu inkişaf meyilləri göstərir ki, ənənəvi biznes sahələri ilə yanaşı, müasir texnologiyalara əsaslanan yeni sahibkarlıq istiqamətlərinin də formalaşması sürətlənir. Hazırda iqtisadiyyatın rəqəmsallaşması KOB-ların fəaliyyətini genişləndirməklə yanaşı, innovativ biznes modellərinin meydana çıxmasına da zəmin yaradır ki, bu da innovasiyayönümlü sahibkarlığın, yəni startapların inkişafında mühüm rol oynayır. Startapların dövlət tərəfindən tanınması və dəstəklənməsi yeni texnoloji layihələr üçün əlverişli mühit formalaşdırıb. İnnovasiya mərkəzləri, texnoparklar, universitetlərdə fəaliyyət göstərən inkubasiya proqramları rəqəmsal iqtisadiyyatın formalaşmasına dəstək olur. Startap sertifikatı, vergi güzəştləri və investisiya cəlb etmək imkanları gənclərin bu sahəyə marağını daha da artırır. Bu isə ölkədə yeni texnoloji platformaların və rəqəmsal xidmətlərin vacibliyini göstərir.

Bütün bunlar deməyə əsas verir ki, sahibkarlıq ölkənin iqtisadi həyatında əsas hərəkətverici qüvvələrdən biridir və hər addımda əlavə dəyər gətirir. Onun iqtisadiyyata gətirdiyi əlavə dəyərdən bəhs edərkən öncə onu demək lazımdır ki, sahibkarlıq subyektlərinin fəaliyyəti ölkənin ümumi daxili məhsuluna (ÜDM) mühüm töhfə verir. Qeyri-neft sektorunun sürətlə inkişafı, yerli istehsalın güclənməsi və ixrac imkanlarının genişlənməsi iqtisadi dayanıqlılığın möhkəmlənməsinə xidmət edir. Bu proses yeni iş yerlərinin təsis olunmasına, istehsal və xidmət sahələrində rəqabətin artmasına, regionlar arasında iqtisadi tarazlığın bərqərar olmasına yol açır. Sahibkarlığın aktiv iştirakı ixrac strukturlarının şaxələndirilməsini də mümkün edir və ölkəmizi beynəlxalq bazarlarda daha rəqabətqabiliyyətli mövqeyə çıxarır. Əlavə edək ki, sahibkarlığın genişlənməsi xarici investorlar üçün də cəlbedicidir və bu, iqtisadiyyatın açıq, dinamik, innovativ olmasına təkan verir. Beləliklə, hər yeni biznes təşəbbüsü ölkəmizin iqtisadi gələcəyinə əlavə dəyər qatır.

Göründüyü kimi, qeyri-neft sektorunun inkişafı, yeni iş yerlərinin fəaliyyətə başlaması, rəqabətin artırılması və regionlararası iqtisadi balansın təmin olunması ölkənin dayanıqlı və dinamik iqtisadi mühitinin formalaşmasına xidmət edir. Üstəlik də daxili bazarın və beynəlxalq investisiya imkanlarının artmasına şərait yaradır. Beləliklə, hər yeni biznes təşəbbüsü yalnız sahibinə deyil, bütövlükdə ölkənin iqtisadi gələcəyinə əlavə dəyər gətirir və innovativ, rəqabətqabiliyyətli iqtisadiyyatın əsas dayağına çevrilir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Sosial xidmətçilər onlar üçün əsl dostlardır

Ölkəmizin sosial müdafiə sisteminin mühüm komponentlərindən biri olan sosial xidmətlərin təkmilləşdirilməsi və əhatə dairəsinin genişləndirilməsi üçün son illər mühüm addımlar atılıb.





Dövlətin sosial xidmətlər sistemi çətin həyat şəraitinə məruz qalan insanların daim yanında olaraq, onlara öz dəstəyini göstərən əvəzsiz xidmət sahəsidir. Bu xidmətlər çətin həyat şəraitinə düşənləri, həyat fəaliyyətini obyektiv surətdə pozan, təkbaşına aradan qaldıra bilmədiyi hallarla qarşılaşan şəxsləri, ailələri əhatə edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum şəxslər, əlilliyi olan şəxslər, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslər, məişət zorakılığından zərərçəkmişlər, insan alverinin qurbanları, müəyyən yaşayış yeri olmayanları və sair kateqoriyadan olan insanlar bu xidmətdən istifadə edir.

Əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə Bakı şəhəri üzrə eyni inzibati ərazi vahidində, digər şəhər və rayonlar üzrə eyni inzibati ərazi dairəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllar, ahıl ər-arvadlar, əlilliyi olan şəxslər isə evdə (səyyar) sosial-məişət xidməti ilə əhatə olunurlar. Sosial xidmətçilər həmin şəxslərin (ailələrin) evinə gedərək onlara ev təsərrüfatında, əsas tələbat mallarının alınması və s. işlərdə köməklik göstərirlər. Hazırda Sosial Xidmətlər Agentliyi və DOST mərkəzləri tərəfindən ümumilikdə 4 minədək tənha ahıl və əlilliyi olan şəxsə evlərində (səyyar) sosial-məişət xidməti göstərilir.

Evdə sosial xidmət göstərilənlərin bir qismi də şəhid ailələridir. Onlardan biri olan Cəlilabad rayon sakini, şəhid anası Turə Şahbazovanın dediklərindən: "Sosial Xidmətlər Agentliyi tərəfindən mənə təyin olunmuş sosial xidmətçi Afət Ağazadə sayəsində ev işlərim, həyat fəaliyyətim xeyli asan olur. Şəhid anası kimi diqqət və qayğı ilə əhatə olunmuşam. Öz evimdəcə gəlib mənə xidmət göstərməkləri də dövlət başçımızın bizlərə olan daha bir qayğının nümunəsidir. Biz hər zaman dövlətimizin dəstəyini hiss edirik".



Sosial xidmət əməkdaşları tənha ahılların ad günlərində də onların yanında olurlar. Elə bu günlər agentliyin əməkdaşları Şirvan şəhər sakini, evində sosial xidmətlə təmin edilən Kvitkova Vera Kirilovnanı 100 yaşının tamam olduğu gün ziyarət edərək onu təbrik etdilər. Vera Kirilovna deyir: "Sosial xidmətçiyə mən artıq dost kimi baxıram. O mənim dostumdur. Çünki mən ondan yalnız dost münasibətini görürəm. 100 yaşım tamam olanda da sosial xidmətçimlə birgə agentliyin əməkdaşları məni təbrik etməyə gəlmişdilər. Bu doğma münasibət mənim üçün çox dəyərlidir".

Digər tənha ahıl şəxs, Gədəbəy rayon sakini Gülzə İlqar qızı Hüseynova da şəhid nənəsidir. Deyir ki, bu gün heç də özünü tək hiss etmir: "Çünki güclü, qüdrətli dövlətimiz, böyük Qələbə qazanmış dövlətimiz mənim kimi tənha ahıl insanlara daim dayaq olur, dəstək olur. Bu dəstəyi görəndə hiss edirsən ki, bəli, sən tək deyilsən, arxanda dövlət dayanıb!"

Agentlik tərəfindən həssas qruplara stasionar və yarımstasionar formalarda da sosial-məişət, sosial-hüquqi, sosial reabilitasiya, tibbi-sosial, sosial-pedaqoji və sosial-psixoloji xidmətlər göstərilir. Qurumun əlilliyi olan uşaqlar üçün, eləcə də psixonevroloji sosial xidmət müəssisələri, Ahıl Şəxslər üçün Sosial Xidmət Müəssisəsi, Əlilliyi Olan Şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzi, İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi, həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi, uşaq evləri və digər müəssisələri fəaliyyət göstərir. Bu müəssisələrdə hazırda 2272 şəxs daimi dövlət himayəsində sosial və reabilitasiya yönümlü xidmətlərlə təmin edilir.

Qurumun tabeliyindəki uşaq evləri sosial xidmət müəssisələrində həssas əhali qruplarından olan uşaqlara yaşayış yeri, qida, geyim və tibbi xidmətlə yanaşı, psixoloji dəstək, sosial reabilitasiya və təhsil imkanları təqdim edilir. Uşaqların müəssisəyə düşməsinin qarşısının alınması, çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi, həmin uşaqların psixo-sosial reabilitasiyası, onların cəmiyyətə inteqrasiyası və ailələrə psixo-sosial dəstəyin gücləndirilməsi işləri də aparılır.

Bu məqsədlə əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisələrinin nəzdində yarımstasionar formada xidmət göstərən daimi Günərzi Qayğı mərkəzləri, həmçinin agentliyin sifarişi ilə icra olunan layihələr əsasında ölkəmizin bölgələrində (Sumqayıt, Mingəçevir və Naftalan şəhərlərində və Abşeron, Cəlilabad, Ağdaş, Xaçmaz, Ağstafa, Yardımlı, Masallı, Samux, Goranboy, Lənkəran, Bərdə, Şəmkir, Zaqatala və s.) 30 Günərzi Qayğı mərkəzi fəaliyyət göstərir. Qeyd edilən mərkəzlərdə həssas qruplara aid, o cümlədən əlilliyi olan uşaqların korreksiya, abilitasiya, reabilitasiya və s. xidmətlərlə, psixoloji dəstəklə təminatı həyata keçirilir.

Məişət zorakılığından zərərçəkmiş şəxslər də sosial xidmətlər çərçivəsində dəstəklə təmin olunanlar sırasındadır. Agentliyin müvafiq müəssisəsindəki sosial reabilitasiya şöbəsində müasir tələblərə uyğun şəraitlə həmin şəxslərin sosial reabilitasiyası, sosial statuslarının bərpası ilə bağlı fərdi iş planı üzrə tədbirlər görülür. Bu il qurum məişət zorakılığından zərərçəkmiş 66 nəfəri reabilitasiya yönümlü sosial xidmətlərlə təmin edib.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

**Mütəxəssis təklif edir**

# Toxumçuluq: real vəziyyət, problemlər və onların həlli yolları

**Ölkəmizdə aparılan aqrar islahatlar sayəsində torpaqların özəlləşdirilməsi başa çatmış, yeni qurumlar- fermer təsərrüfatları, torpaq mülkiyyətçiləri və s. yaranmışdır. İlk dövrlər müəyyən çətinliklər olsa da, son vaxtlar iri təsərrüfatlar formalaşmağa başlamış, imkanlı şirkətlər, fermerlər əmələ gəlmişdir. Onlar nümunəvi təsərrüfatlar yaradaraq ölkənin sızaq təhlükəsizliyinin təminatına sanballı töhfə verirlər.**

Buna baxmayaraq, hələ də bu sahədə istənilən nəticəni əldə etmək mümkün olmur. Başlıca səbəbi isə fermerlərin yüksəkkeyfiyyətli səpin materialına - toxuma malik olmamalarıdır. Əksər hallarda onlar toxumla deyil, əldə etdikləri məhsulla səpin aparırlar. Bir qisim fermerlər isə xaricdən gətirilmiş toxumlara üstünlük verirlər ki, bu da həm baha başa gəlir, həm də onların riskləri - genetik quruluşu, özləri ilə xəstəlik, zərərverici və s. gətirmələri xeyli çətinliklər yaradır. Üstəlik, həmin sortlar fərqli torpaq-iqlim şəraiti üçün yaradıldığından özlərini çox vaxt doğrultmurlar.

Məlumdur ki, toxum kənd təsərrüfatında bitkilərin məhsuldarlığının bünövrəsi hesab olunur. Toxumun keyfiyyəti nə qədər yüksəkdirsə, ondan inkişaf edən bitkilər də bir o qədər güclü və məhsuldar olur. Buna görə də hər bir təsərrüfat yetişdirəcəyi toxumun yüksəkkeyfiyyətli olması üçün bütün tədbirləri vaxtında görməli, məhsuldarlıqda toxumun əhəmiyyətini nəzərə alaraq onun təmiz, cücərmə qabiliyyətinin yüksək, dolğun, sağlam və cins olmasına diqqət verməlidir. Elmi araşdırmalar və təcrübələr göstərir ki, düzgün qurulmuş toxumçuluq sistemində yetişdirilmiş yüksəkkeyfiyyətli toxumlarla səpin aparılarkən müvafiq aqrotexniki tədbirlərin həyata keçirildiyi şəraitdə məhsuldarlığı ən azı 20-30 faiz artırmaq mümkündür.

Toxumçuluğun vəzifəsi dövlət reyestrinə daxil edilən bitki sortlarının sort təmizliyini, bioloji və məhsuldarlıq keyfiyyətlərini saxlamaq üçün sort dəyişmə və sort təzələməni həyata keçirməklə toxumların məhsuldarlığını artırmaqdır. Təəssüf ki, ölkəmizdə bu məsələ uzun müddət diqqətdən kənarda qalmışdı. Hazırda isə toxumçuluğun inkişafına ciddi fikir verilir - subsidiyalar ayrılır və digər dövlət dəstəyi göstərilir. Son dövr yaradılmış Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti uzun illərin problemlərini həll etməyə çalışır. Bu sahədə yeni təlimatlar, tövsiyələr işlənir, qanunlar qəbul edilir. Lakin yerlərdə yaradılan toxumçuluq qurumlarının demək olar ki, əksəriyyətinin sahibi toxumçuluq üzrə ixtisaslaşmış mütəxəssislər deyillər. Bu problem Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin işində xeyli çətinliklər yaradır.

Mütəxəssislər tərəfindən aparılan araşdırmalar göstərir ki, keyfiyyətli toxumun əldə edilməsi və onun uzun illər qorunub saxlanılması yerlərdə mövcud olan əsas problemlərdəndir. İndinin özündə də toxumun əldə olunmasında kortəbiilik var. Fermerlər toxumu çox vaxt sertifikatsız və qarantiyasız alırlar. Ona görə də hər bir fermerin toxumçuluğun əsas şərtlərini öyrənməsi vacibdir.

Fermer təsərrüfatlarında yüksək gəlir əldə etmək üçün tətbiq olunan aqrotexniki tədbirlərlə yanaşı, keyfiyyətli sort toxumlar əkilməlidir. Torpaq-iqlim şəraitindən asılı olaraq, toxumun genetik və irsi xüsusiyyətlərini saxlaması, yəni uzun illər boyu məhsul verməsi üçün tələb olunan aqrotexniki tədbirlərə düzgün əməl edilməlidir. Yaddan çıxarılmamalıdır ki, toxum strateji əhəmiyyətli məhsul olub çox baha başa gəlir. Amma nə edəsən ki, bəzən fermer hər hansı bitki toxumunu baha qiymətə alıb gətirsə də, ona lazım olan aqrotexniki tədbirləri düzgün bilmədiyindən, lazımı nəticə əldə edə bilmir. Çox vaxt unudulur ki, toxum sınaqdan keçirilməmiş, yoxlanılmamış səpilərsə, böyük ziyan verə bilər. Toxumu yoxlamaqda məqsəd toxum və cücərtilərinin əlamətlərinə görə sortluluğunu müəyyən etməkdir. Bu üsul toxum qrupunun əlavə yoxlanmasına imkan verir. Söz düşmüşkən bildirək ki, ölkəmizdə son illər ayrı-ayrı regionlarda toxumları analiz etmək üçün müasir laboratoriyalar yaradılır.

Kənd təsərrüfatı ilə məşğul olan torpaq mülkiyyətçiləri yaxşı bilirlər ki, yüksək məhsul yalnız yaxşı seçmə toxumdan yetişdirilə bilər. Toxum nə qədər keyfiyyətlidirsə, ondan inkişaf edən bitkilər də bir o qədər güclü, məhsuldarlıq isə yüksək olur. Amma fermerlərin adını qeyd etdiyimiz Dövlət Xidməti ilə əlaqələri zəifdir. Bu səbəbdən onlar toxumu haradan gəldi alır, analiz etmədən səpin aparır və təbii ki. yekunda ziyana düşürlər. Odur ki, Bitki Sortlarının Qeydiyyatı və toxum Nəzarəti üzrə Dövlət Xidmətinə böyük səlahiyyətlər verilməsi vacibdir.

Yaxşı toxum yüksək məhsulun rəhnidir. Ona görə də hər bir təsərrüfat səpin üçün tədarük etdiyi toxumun yüksəkkeyfiyyətli olması üçün mümkün olan bütün tədbirləri görməlidir. Səpin üçün ayrılan bütün toxumlar tələbata uyğun gəlməlidir. Daha doğrusu, səpin üçün hazırlanan toxum təmiz, yüksək cücərmə qabiliyyətinə malik, iriliyinə və formasına görə bərabər, normal rütubətli və sağlam olmalıdır. Belə keyfiyyətlərə malik toxum əldə etmək üçün səpindən qabaq toxumları qarışıqlardan təmizləmək, çəkisinə və iriliyinə görə çeşidləmək, mütləq çəkisini təyin etmək, təsərrüfat yararlılığını, xəstəlik və ziyanvericilərə, karantin alaqlara tutulma dərəcəsini yoxlamaq lazımdır. Toxum kondisiyaya uyğun olmazsa, tədbirlər görülməli, qabaqcıl fermer və ya toxumçuluq sahəsinin mütəxəssislərinə müraciət olunmalıdır. Nəzərə alınmalıdır ki, toxumun keyfiyyəti toxum nəzarəti laboratoriyalarında təyin edilir və keyfiyyətə dair sənəd verilir.

Toxumçuluğun əsas prinsipləri sortun səciyyəvi xüsusiyyətlərini təyin etməyə imkan verən fərqlilik, oxşarlıq, sabitlik və digər əlamətlərin qorunub saxlanması, toxum istehsalında təsdiq edilmiş becərilmə sxemlərinə riayət olunması, istifadə olunan sort üzərində müəllifin və patent sahibinin hüquqlarının qorunması, toxumların sertifikatlaşdırılmasının məcburiliyi, sortun rayonlaşma qaydalarına əməl edilməsidir. Təəssüf ki, deyilənlərin böyük əksəriyyəti yerinə yetirilmir və bu da sonda məhsuldarlığa təsir edir.

Toxumçuluq subyektlərinin vəzifələri isə toxumçuluğa dair Azərbaycan Respublikasının qanunvericiliyinə əməl və toxumçuluğun əsas prinsiplərinə riayət etmək, patent sahibi ilə müəyyən olunmuş qaydada bitki sortlarının toxumlarından istifadəyə görə haqq ödənilməsini nəzərdə tutan lisenziya müqaviləsi bağlamaq, ticarət dövriyyəsinə daxil edilən toxumların sənədlərində göstərilmiş sortluq və səpin keyfiyyətlərinə təminat vermək, dövlət standartları ilə müəyyən edilmiş müddətdə toxum nümunələrini saxlamaq, hər bir sort üzrə müəyyən edilmiş formada, toxumların sortluq və səpin keyfiyyətlərinin sənədləşdirilməsini aparmaq və onları bir il müddətində saxlamaq, bitki karantini tələblərinə əməl etmək, müəyyən edilmiş qaydada uçot-hesabat işləri aparmaq və müvafiq orqanlara məlumat vermək, qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirməkdən ibarətdir. Bu məsələlər sözügedən Dövlət Xidməti tərəfindən yüksək səviyyədə hazırlanmışdır. Təəssüflər olsun ki, yerlərdə bu qaydalara da əməl olunmur. Fermerlər həmin məsələlərə səthi yanaşır, müqavilə bağlamır, patent ödəmir, əksər hallarda isə heç bir sənədləşmə aparmırlar.

Problemin son dərəcə ciddiliyini nəzərə alaraq, onun həlli yollarını təsərrüfat rəhbərlərinin maarifləndirilməsində görürük. Bu işlərdə fermerlərimizə Azərbaycan Dövlət Aqrar Universitetinin imkanlarından istifadə etmək, lazımi təlimatlar almaq məqsədəuyğun olardı. Toxumçular üçün təlimlərin, seminarların keçirilməsi də müsbət nəticələr verə bilər. Bundan başqa, özəl toxumçuların bilik və bacarıqlarının artırılması vacibdir. Onu da qeyd edək ki, bu sahə böyük kapital qoyuluşu tələb etmir. Ancaq gəlirləri yüksəkdir. Ümumiyyətlə, toxumçuluq həmişə gəlirli sahə olub. Başqa sözlə, hər hansı bir fermer təsərrüfatı əsasən bitkiçiliklə məşğuldursa, onun toxumçuluqla məşğul olması məsələsi də qalxacaq. Çünki fermer xaricdən gətirilən toxumdan asılı olmaq istəmir. Çünki bu sahədə hökm sürən inhisarçılıq böyük çətinliklərə yol açır, dünya bazarında baş verən dəyişikliklər və digər görünməyən səbəblər təsərrüfatları problemlərlə üzləşdirir. Ona görə də fermer istəyir ki, özünün toxum bazası olsun və bu sahədə riskləri aşağı endirsin. Belə olan halda ADAU-nun imkanlarından istifadə edərək özəl toxumçuların bilik və bacarıqlarının artırılması, yeni, innovativ üsullarla tanışlıq, ilkin toxum təmizləmə avadanlıqlarının alınmasında maliyyə dəstəyi göstərilməsi çox vacibdir.

Azərbaycan Dövlət Aqrar Universitetinin əməkdaşları tərəfindən alınmış və rayonlaşdırılaraq rəsmi Dövlət Reyestrinə salınmış "Nurcahan" və "ADAU-100" yumşaq buğda, "ADAU - 80", "Gəncə" və "Məhsuldar" qarğıdalı sortlarının, "Qismət" tritikale sortunun, həmçinin Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasına təqdim olunmuş "Mübariz" - bərk buğda və "Qırmızı buğda 2" - yumşaq buğda sortlarının toxum fondunun yaradılması istiqamətində geniş tədqiqat işləri aparılmışdır.

Ölkənin yeganə ali aqrar təhsil müəssisəsinin bazasında seleksiyanın "Qızıl fondu" hesab edilən 24 başlanğıc material pitomniki yaradılmışdır. Bu pitomnikdən 445 nümunə seçilmiş və araşdırılmışdır. Həmin nümunələr kolleksiya, hibrid və seleksiya pitomniklərində səpilmiş, onlar üzərində fenoloji müşahidələr, sünbül və dərz analizləri aparılmışdır.

Hesab edirik ki, ADAU-da kolleksiya pitomnikinin yaradılması, mövcud olan formaların əkib-becərilməklə öyrənilməsi, qorunub saxlanılması, toplanmış genefond nümunələrinin genetik əsaslarla tədqiqata cəlb edilməsi vacib və aktualdır. Həm də bu genefond nümunələri yeni sort və hibrid almanın əsasını təşkil edir. Dəyişən iqlim şəraitində kənd təsərrüfatı bitkilərinin sort və hibridlərinin yaradılması, seçilməsi, əsaslandırılması və davamlı məhsul istehsalını təmin edən becərmə texnologiyaları və inteqrir mübarizə üsullarının işlənib hazırlanması aqrar sahənin qarşısında duran ən vacib məsələlərdəndir.

Hazırda ekoloji vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq, hər cür stresə (quraqlığa, şaxtaya və s.) davamlı yeni sortların yaradılmasının mövcud yollarının mümkünlüyü diqqət mərkəzindədir. Yeni yaradılan sortların toxumçuluq bazasının təşkili isə əsas şərtdir. Çünki toxumçuluq kənd təsərrüfatının əsas yaradıcı qüvvəsidir.

***Firudin QURBANOV,***
***ADAU-nun laboratoriya müdiri,***
***Əməkdar kənd təsərrüfatı işçisi***

## İlə yekun vurulur

# Qeyri-neft sənaye məhsullarının istehsalında 5 faizə yaxın artım qeydə alınıb

**Cari ilin yanvar-noyabr aylarında ölkə üzrə qeyri-neft-qaz sənaye məhsullarının istehsalı 4,8 faiz artıb. Ümumilikdə 11 ay ərzində 57,5 milyard manatlıq sənaye məhsulları istehsal edilib.**



Dövlət Statistika Komitəsindən verilən məlumata görə, sənaye məhsullarının 60,6 faizi mədənçıxarma, 33 faizi emal, 5,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,7 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 1,1 faiz artıb.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 94,9, ağacın emalı və ağacdan məmulatların istehsalı 60,9, kompüter, elektron və optik məhsulların istehsalı 49,9, toxuculuq sənayesi məhsullarının istehsalı 27,1, rezin və plastik kütlə məmulatlarının istehsalı 13,7, tütün məmulatlarının istehsalı 13,2, qida məhsullarının istehsalı 9,8, neft məhsullarının istehsalı 9,6, kimya sənayesi məhsullarının istehsalı 8,7 faiz artıb. Bununla yanaşı, içkilərin istehsalı 1,6, tikinti materiallarının istehsalı 3,4, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 4,3, metallurgiya sənayesi məhsullarının istehsalı 8,6, maşın və avadanlıqların istehsalı 8,7, hazır metal məmulatlarının istehsalı 9,7, mebel istehsalı 10, elektrik avadanlıqlarının istehsalı 11,2, poliqrafiya məhsullarının istehsalı 18,7, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 19,9, geyim istehsalı 20, kağız və karton istehsalı 26,2, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 33,9 faiz azalıb.

Hesabat dövründə sənayedə qeyri-dövlət sektorunun payı 82,2 faiz olub. İstehsalın ümumi həcmində sənaye məhsullarının çəkisi 88,8, sənaye xarakterli xidmətlərin göstərilməsi 11,2 faiz təşkil edib.

Cari ilin 11 ayında Naxçıvan Muxtar Respublikasında 441 milyon 468 min manatlıq sənaye məhsulları istehsal edilib ki, bu da 2024-cü ilin müvafiq dövründəkindən 14,1 faiz çoxdur. Bakıda isə 10 ayda 43 milyard manatlığa yaxın sənaye məhsulları istehsal edilib. Bu dövrdə paytaxtda istehsal olunan sənaye məhsullarının 73 faizi mədənçıxarma, 23,5 faizi emal, 2,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarının payına düşüb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Xarici dövlətlərlə Azərbaycanın iqtisadi əlaqələrində xidmətlərin həcmi 14 milyard dollar olub

**2025-ci ilin 9 ayı üzrə xarici dövlətlərlə Azərbaycanın iqtisadi əlaqələrində xidmətlərin ümumi həcmi 14 milyard dollar təşkil edib.**

Bunun 7,7 milyard dolları qeyri-rezidentlər tərəfindən Azərbaycanın rezidentlərinə, 6,3 milyard dolları isə Azərbaycan rezidentləri tərəfindən xarici ölkələrin rezidentlərinə göstərilən xidmətlərdir. AZƏRTAC Mərkəzi Banka istinadla xəbər verir ki, ümumilikdə xidmətlər balansında yaranan kəsir 12,8 faiz azalaraq 1,4 milyard dollar olub. Bu da onu göstərir ki, son illər xidmətlər balansında tarazlığın formalaşması meyilləri güclənir. Neft-qaz sektoru üzrə xidmətlər balansının (əsasən tikinti xidmətləri və digər işgüzar xidmətlər) kəsiri 1,1 milyard dollar olub. Qeyri-neft-qaz sektoru üzrə xidmətlər balansının kəsiri isə 280,7 milyon dollar olub.

Qarşılıqlı xidmətlər dövriyyəsinin 28.2 faizi nəqliyyat xidmətləri üzrə aparılan əməliyyatların payına düşür. Ümumi dəyəri 4 milyard dollar olan nəqliyyat xidmətlərinin 66,3 faizi qeyri-rezidentlərin Azərbaycanın nəqliyyat xidmətlərindən istifadəsi ilə əlaqədar olub.

Azərbaycan rezidentlərinin qeyri-rezidentlərə göstərdikləri nəqliyyat xidmətlərinin dəyəri 2,6 milyard dollar, qeyri-rezidentlərin Azərbaycan rezidentlərinə göstərdikləri nəqliyyat xidmətlərinin dəyəri isə 1,4 milyard dollar təşkil edib.

Dövr ərzində qeyri-neft-qaz sektoru üzrə nəqliyyat xidmətlərinin ixracı 22,9 faiz artıb, idxalı isə 7,4 faiz azalıb. Nəticədə nəqliyyat xidmətləri üzrə profisit 50,2 faiz artaraq 1,3 milyard dollar olub.

Qeyd edək ki, nəqliyyat xidmətləri üzrə profisit 2024-cü ilin 9 ayında 0,9 milyard dollar təşkil edib.

2025-ci ilin 9 ayında qarşılıqlı turizm xidmətlərinin dövriyyəsi cüzi (0,5 faiz) azalaraq 2,7 milyard dollar təşkil edib. Hesabat dövründə turizm xidmətləri üzrə ixracın (1,5 milyard dollar) idxalı (1,2 milyard dollar) üstələməsi nəticəsində 0,3 milyard dollar həcmində profisit yaranıb. Bu dövrdə xaricə səfər edən Azərbaycan vətəndaşlarının sayı 2,6 faiz, Azərbaycana gələn xarici vətəndaşların sayı isə 1,8 faiz azalıb. Xarici ölkələr tərəfindən Azərbaycan rezidentlərinə turizmlə bağlı göstərilən xidmətlərin həcmi 1,2 milyard dollar olub. Bunun 75,1 faizi Azərbaycan vətəndaşlarının şəxsi səfərləri ilə bağlı olub (məkik idxal üçün vəsaitlər istisna olmaqla).

Hesabat dövründə qeyri-neft-qaz sektoru üzrə qeyri-rezidentlərə göstərilən tikinti xidmətlərinin həcmi 2,4 milyon dollar təşkil edib. Qeyri-neft-qaz sektoru üzrə qeyri-rezidentlərə ödənilən digər işgüzar xidmətlərin həcmi isə 12,1 faiz artaraq 1,6 milyard dollar olub.

# İsveçrə Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunu 6 dəfə artırıb

**Bu ilin yanvar-sentyabr ayları ərzində İsveçrədən Azərbaycana birbaşa xarici investisiyaların həcmi 283,982 milyon ABŞ dolları təşkil edib. "Trend" bu barədə Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir.**



Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 236,331 milyon dollar və ya 6 dəfə çoxdur.

Hesabat ilində Azərbaycana birbaşa xarici investisiyaların ümumi həcmində İsveçrədən olan investisiyaların payı 6 faiz təşkil edib.

Azərbaycan isə öz növbəsində cari ilin ilk 9 ayı ərzində İsveçrə iqtisadiyyatına 28,822 milyon dollar sərmayə qoyub ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 18,921 milyon dollar və ya 39,6 faiz azdır.

Birbaşa xarici investisiyaların ümumi həcmində İsveçrəyə yatırılan Azərbaycan investisiyalarının xüsusi çəkisi 1,4 faizdir.

2024-cü ilin ilk 9 ayı ərzində İsveçrədən Azərbaycana birbaşa xarici investisiyaların ümumi həcmi 47,651 milyon, Azərbaycandan isə bu ölkəyə yatırımların həcmi 47,743 milyon dollar təşkil etmişdi.

Qeyd edək ki, 2025-ci ilin ilk 9 ayında Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar 4,736 milyard ABŞ dollarından çox olub. Bu isə 2024-cü ilin eyni dövründəki göstəriciyə nisbətən 213,485 milyon ABŞ dolları və ya 4,7 faiz artım deməkdir.

Eyni zamanda hesabat dövrü ərzində Azərbaycandan xarici iqtisadiyyata yönəldilmiş birbaşa xarici investisiyaların həcmi 2,039 milyard ABŞ dolları olub ki, bu da 2024-cü ilin ilk 9 ayındakı göstərici ilə müqayisədə 658,090 milyon ABŞ dolları və ya 47,7 faiz çoxdur.

# Türkmənistandan Azərbaycana təbii qaz idxalının həcmi azalıb

**Cari ilin yanvar-oktyabr aylarında Türkmənistandan Azərbaycana 230,9 milyon kubmetr həcmində təbii qaz idxal olunub. "Trend" bu barədə Azərbaycan Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.**

Qeyd olunan müddət ərzində Türkmənistandan idxal olunan qazın həcmi ümumilikdə 35,2 milyon ABŞ dolları dəyərində olub.

Məlumata görə, ötən ilin eyni dövrü ilə müqayisədə bu göstərici dəyər ifadəsində 17,9 milyon ABŞ dolları və ya 33,7 faiz, həcm baxımından isə 123,2 milyon kubmetr və ya 34,8 faiz azalıb.

Qeyd edək ki, 2025-ci ilin yanvar-oktyabr aylarında Azərbaycandan ölkə xaricinə ümumilikdə 20,649 milyard kubmetr təbii qaz ixrac edilib. İxracın ümumi dəyəri 7,418 milyard ABŞ dolları təşkil edib. Ötən ilin eyni dövrü ilə müqayisədə bu, dəyər ifadəsində 569,3 milyon ABŞ dolları və ya 8,3 faiz artım deməkdir, həcm baxımından isə ixrac 690,003 milyon kubmetr və ya 3,2 faiz azalıb.



Eyni zamanda cari ilin ilk 10 ayında Azərbaycana 39,151 milyon ABŞ dolları dəyərində 252,158 milyon kubmetr təbii qaz idxal edilib. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə dəyər ifadəsində 40,2 milyon ABŞ dolları və ya iki dəfə, həcm ifadəsində isə 243,6 milyon kubmetr və ya 49,1 faiz azdır.

# Dənizdən güclü...

## PEŞƏSİNDƏN QÜRURLU XƏZƏR NEFTÇİSİ

**Onlara nə qar təsir edir, nə də boran. Yayın qızmarında olduğu kimi, qışın şaxtasında da açıq dənizin qoynundadırlar. Bax indi bu yağmurlu, sazaqlı günlərdə də Xəzərdəki adalarda, polad estakadalar üstündə, özül və platformalarda əmək növbəsindədirlər. Onlar dəniz neftçiləridir.**

Dəniz neftçiləri cəsur və qorxmaz insanlardır. Belə ki, bu xüsusiyyətlərə malik olmayanlar Xəzərin qoynunda çox az qala bilirlər. Deyilənlərə görə, bəziləri buraya həvəslə gəlir, lakin elə birinci qasırğadan sonra həmişəlik çıxıb gedirlər.

Xəzərlə ülfət bağlayanlar isə daha da möhkəmlənir, mətinləşirlər. Belələri üçün Xəzər daimi iş yerinə, çörək teknəsinə, hünər meydanına çevrilir. Hünər demişkən, Azərbaycanın dəniz neftçisi peşəsinə könül verən neçə-neçə hünərvər oğlunun adı tariximizin şanlı səhifələrinə yazılıb. Təkcə neft tariximizin deyil, bütövlükdə xalqımızın qəhrəmanlıq salnaməsinin səhifələrində onlarca belə şərəfli ada rast gəlmək mümkündür.

Xəzər neftçisinin həyatı bəzən nağıllaşıb da - neftçi Qurban Abbasov haqqında rəvayət danışıb, usta Mixail Kaveroçkin haqqında heyrətlə söhbət açıb, qazmaçı İsrafil Hüseynov haqqında nəğmələr qoşublar. Xoşbəxt Yusifzadənin geoloq intuisiyası onilliklər boyu heyrətə səbəb olub.

Lakin Xəzər neftçisinin hünəri, işi-əməli nə qədər əfsanəyə, nağıla bənzəsə də, reallıqdır, həqiqətdir. Bu da bir həqiqətdir ki, hələ sovetlər dönəmində neçə-neçə Xəzər neftçisi dövlət mükafatı, əmək qəhrəmanı adını alıb, şan-şöhrət qazanıb, yüksək vəzifələrə irəli çəkilib.

Dənizimiz həmişə olub, neftçi də Azərbaycanda çoxdankı peşədir. Lakin "dəniz neftçisi" söz birləşməsi xalqımızın leksikonuna ötən əsrin ortalarında daxil olub. Yəni bu peşə həmin dövrdən - "Neft Daşları" kəşf olunandan, burada polad dirəklər üstündə şəhər salınmağa başlayandan sonra formalaşıb. Dənizdə kəşf edilən yataqlar artdıqca, Xəzər neftçilərinin sıraları da genişlənib. İllər keçdikcə "dənizdə işləyirəm" sözləri artıq heç kəsə qəribə görünməyib.

Xəzərin "üzü nə qədər boz olsa da", səxavəti də böyükdür. Onun bərkdən-boşdan çıxardığı mərd oğullarına bəxş etdiyi təkcə hörmət-izzət deyil, həm də xoş duyğular, kövrək hisslərdir. Maraqlıdır ki, dəniz neftçiləri insanlarla tez ünsiyyət qurmağı bacarır, sözübütöv və dostluqda möhkəm olurlar. Bununla yanaşı, onlara bir romantiklik də xasdır, şeiri, musiqini çox sevirlər.

Bu yaxınlarda təsadüfən bir köhnə jurnalı vərəqləyərkən keçən əsrin 60-cı illərinin ikinci yarısında Azərbaycanın neftçıxarma sənayesi naziri olmuş, bu vəzifəyə fəhləlikdən başlayaraq, pillə-pillə gəlib çatmış, dövrünün Sosialist Əməyi Qəhrəmanı kimi yüksək adına layiq görülmüş Bəxtiyar Məmmədovun "Bizim gözlərimiz qarşısında tamamilə yeni peşə - dəniz neftçisi peşəsi yaranır" adlı qeydlərinə rast gəldim. Neftçi qələmindən çıxsa da, əsl publisist duyğularla "yoğrulmuş" bu qeydləri olduğu kimi təqdim edərək yuxarıda söylədiyim fikirlərə söykək tuturam: "Bəşəriyyət minillər ərzində gəmilər yaratmış və onları təkmilləşdirmiş, minillər ərzində dənizçilik ustalığını cilalamışdır. Lakin dənizdə, qazma vışkasının polad əsasları üzərində, tufanla və böyük dalğaların zərbəsi ilə mübarizə aparmağa, sərt şəraitdə yaşamağa və işləməyə yalnız fövqəladə insanlar qadirdirlər. Mənə Neft Daşlarında dəniz neftçıxarma veteranları ilə işləmək şərəfi nəsib olmuşdur və mən bu insanları yaxşı tanıyıram.

Bugünkü dəniz neftçisi xarakteri nədən yaranır?

Hər şeydən əvvəl, məşğul olduqları işin onların xüsusi, şəxsi işi olduğunu dərk etməsindən. Həqiqətən də, bu dərketmədən başqa insanı həftələrlə dəniz vaxtını tərk etməməyə nə vadar edə bilər? Bu yüksək şüurdan başqa nə? Bəlkə məhəbbət... Biz neftçilər deyirik: insan öz işini sevir, işdən sonra biri ovla, digəri poçt markası, üçüncüsü isə idmanla məşğul olur. Bizim işimiz həm məhəbbət, iş, həm də vurğunluğumuzdur. Belə qəhrəman işə insan özünü bütövlüklə həsr etməyə bilməz.

Nəsil hisslərini, ənənə hisslərini də qeyd etmək olar. Əgər mədənləri gəzsəniz görərsiniz ki, burada atası, babası və ulu babası da neftçıxaran olmuş fəhlələr işləyirlər. Bizdə "neft" və "həyat" sözlərini vahid anlayış kimi qəbul edən nəsillər vardır. Və bu, rədd edilə bilməz. Bu gözəl varislik tükənməzdir.







Fotolar Ağəli MƏMMƏDOVUNDUR

Siz bəlkə də deyərsiniz: nazir obyektiv deyildir, o öz peşəsini, neftçilərini tərifləyir. Etiraz edə bilmərəm, siz haqlısınız. Lakin mənə elə bir adam göstərin ki, o, həyatda ona ən əziz olan, həyatının əsas amili haqda kənar adam obyektivliyi ilə, soyuq ürəklə danışsın. İnanmıram ki, belə bir adam ola bilsin".

Bir neçə kəlmə də bu sözlərin müəllifi Bəxtiyar Məmmədovun özü haqqında: çünki o, əsl dəniz neftçisi idi, bu peşəyə məhəbbət qanına-iliyinə hopmuşdu. Azərbaycan Sənaye İnstitutunda (indiki Azərbaycan Dövlət Neft Akademiyası) oxuya-oxuya mədəndə işləmişdi. Sonra gənc mütəxəssis Qaraçuxurda usta, "Umbakı" mədənində rəis olmuşdu. Dənizə artıq püxtələşmiş mütəxəssis və səriştəli təşkilatçı kimi gəlmişdi. 27 yaşında o, Neft Daşlarında böyük bir mədənin müdiri, 30 yaşında isə neft-mədən idarəsinin rəisi olmuşdu. Bundan sonra "Başdənizneft"in rəisi vəzifəsinə irəli çəkilmişdi. Albaniya, Almaniya, Kolumbiya, Venesuellaya ezamiyyətə göndərilmiş, üç il layihə rəhbəri kimi Nigeriyada işləmişdi. 1965-1970-ci illərdə nazir kimi Azərbaycanın neftçıxarma sənayesinə rəhbərlik etmişdi.

Amma dəniz neftçisi heç vaxt tutduğu vəzifənin böyük-kiçikliyinə varmaz. Onun üçün ən böyük vəzifə kürsüsü də, fəaliyyət meydanı da elə dənizin özüdür. Odur ki, Bəxtiyar Məmmədov nazir postundan sonra idarə rəisi vəzifəsinə keçəndə də işə qəlbinin bütün odunu sərf edirdi. Bibiheybətdə köhnə quyuları həyata qaytarır, gücdən düşmüş laylarda ehtiyatlar axtarıb tapır, istehsalata yeniliklər tətbiq edirdi.

Belə idi onların hamısı - Azərbaycanın dəniz neftçilərinin ilk dəstələrinə daxil olan Ağaqurban Əliyev, Yusif Səfərov, Sabit Orucov, Süleyman Vəzirov, Əli Əmirov, Bəhmən Hacıyev və onlarla digərləri.

Ümummilli Lider Heydər Əliyev dəniz neftçilərinin böyük dostu idi, onların əməyini yüksək qiymətləndirirdi: "Azərbaycan neftçiləri Xəzər dənizinin neft-qaz yataqlarının kəşf edilməsində böyük xidmətlər göstərmiş və həmişə irəlidə getmişlər". Ulu Öndər dəfələrlə dəniz mədənlərində, özüllərində olmuş, buradakı görüş və söhbətlərində Azərbaycanın neft-qaz sənayesinin sabahının Xəzərlə bağlı olduğunu söyləmişdir.

Ümidlər doğrulur. Bu gün də mətin neftçilərimiz az deyil. XXI əsrin neftçisi yüksəkixtisaslı, savadlı, ən mürəkkəb qurğulardan baş çıxaran, ən müasir dəniz platformalarında çalışan mütəxəssisdir. Bu gün müasirlik ənənələrlə çulğalaşaraq dəniz mədənlərinə yeni bir əhvali-ruhiyyə və işgüzarlıq, yeni bir həyat gətirib.

Neçə-neçə dəniz neftçisinin həyatı canlanır gözüm önündə. Onlarla müxtəlif illərdə jurnalist taleyinin məni gətirib çıxardığı Pirallahı, Qum, Çilov adalarında, Neft Daşlarında, "Günəşli" və "Bahar" yataqlarındakı özüllərdə həmsöhbət olmuşam. Çox adlar qalıb yaddaşımda: Kamal Salahov, Zeynal Abdullayev, Azər Rüstəmov, Azər Aşurov, Firat Əliyev, Murad Adıgözəlov, Adil Abdullayev, Namiq Səmədov...

Müsahibim olan dəniz neftçisi İlqar Ağayev danışırdı ki, bir dəfə əmək növbəsi zamanı küləklər onu birbaşa coşan dalğaların qoynuna atıb. Qasırğanın vurub-uçurduğu polad qurğunun əyilmiş küncündən yapışaraq neçə saat Xəzərlə əlbəyaxa döyüşə girib və ondan güclü olduğunu sübut edib...

Bütün bunlarla belə, dəniz eşqini, peşəyə bağlılığı heç nə qopara bilmir bu insanların qəlbindən. Ömürlərinin yarısını Xəzərin qoynunda keçirirlər. Vaxt-vədə çatanda isə növbəni cavanlara verib ürəklərində də dəniz boyda bir sevgi aparırlar həyatlarının növbəti illərinə.

Bu günün Xəzər neftçisi həm də dünyaşöhrətli xarici neft şirkətləri ilə birlikdə yaradılan konsorsiumların həyata keçirdiyi qlobal layihələrdə çalışan, səriştəsini daim artıran, qabaqcıl təcrübələri əxz edən dünya səviyyəli mütəxəssisdir. Xəzərin Azərbaycan bölməsindəki "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarında belələri onlarladır. İndi bu yataqlardakı platformaların hamısına azərbaycanlı mütəxəssislər rəhbərlik edir. Siyahı bir qədər uzun olsa da, ürəyimdən onların hər birini təqdim etmək keçir. Çünki bu qürurludur. Beləliklə, "Çıraq" platformasına növbə ilə Vüqar Məmmədov və İlqar Qulubəyov, "Qərbi Çıraq"a Ruslan Dövlətov və Amal İbadzadə, "Şərqi Azəri"yə Fərman Ağaquliyev və Namiq Əliyev rəhbərlik edirlər. "Mərkəzi Azəri"də rəhbər Cavid İsgəndərli, "Qərbi Azəri"də Emin İbrahimov, "Dərinsulu Günəşli"də Emin Abdullazadədir. "Azəri Mərkəzi Şərqi" platformasına rəhbərlikdə isə Rəşad İsgəndərov və Bəhmən Quliyev növbələşirlər. "Şahdəniz Alfa" platformasına Fuad İsmayılov, "Şahdəniz Bravo" platformasına isə Cəlal Xalıqov rəhbərlik edir.

Dənizi seçən (və dənizin seçdiyi), "neft" və "həyat" sözlərini qoşa səsləndirən bu fədakar insanların Azərbaycanın inkişafına verdikləri töhfə ölçülməzdir. Ölkənin bugünkü yüksəlişində onların rolunu dövlət başçısı İlham Əliyev belə dəyərləndirir: "Bütün bunların təməlində, bir daha demək istəyirəm ki, neft sənayesidir, Azərbaycan neftçiləridir. Həmişə olduğu kimi, Azərbaycan neftçiləri çox böyük hörmətə malikdirlər. Bu hörməti onlar öz zəhməti hesabına, çətin, ağır şəraitdə Azərbaycanın inkişafı üçün çəkilən zəhmət hesabına qazanmışlar".

Şərəfli peşədir - qəlbi sular kimi təmiz, yaşamaq, qurub-yaratmaq eşqi Xəzərin özü qədər coşqun və dərin olan dəniz neftçisinin peşəsi!

*Flora SADIQLI,*
*"Azərbaycan"*



# Mədəniyyət



● Kino xadimləri

# Sənət yolunda fədakarlıq

**Onun uşaqlıq illəri İkinci Dünya müharibəsi illərinə təsadüf etməmişdi. Ancaq sonralar ekran ömrü verəcəyi "Bizim Cəbiş müəllim" filmindəkinə bənzər köhnə məhəllədə böyümüşdü...**



Əslən bakılı idi Həsən Seyidbəyli. Atası Mehdi nardaranlı, anası Rübabənin bir tərəfi buzovnalı, bir tərəfi maştağalı idi. Atası dövlət qulluğunda çalışırdı. Anası isə evdar qadın idi. Bolşeviklər qırmızı ordu ilə gəlib Azərbaycanda hakimiyyəti ələ keçirəndə çox varlı ailələrdən biri idilər. Sovet hökuməti yerini möhkəmlədib öz qayda-qanunlarını bərqərar etdikcə varlıları müflisləşdirdi. Onların da var-dövlətlərini, evlərini müsadirə etdi. Atasının evləri şəhərin yuxarı məhəllələrində idi. Yeni hökumət mal-mülklərini əllərindən alandan sonra onlara Lermantov küçəsində ev verdi. 1920-ci il dekabrın 22-də dünyaya gələn Həsən Seyidbəylinin uşaqlığı həmin evdə keçdi.

O, üç qardaşın ortancılı idi. Üçü də kiçik yaşlarından idmana meyil göstərirdi. Evin böyük oğlu Kamil voleybolla, Həsən akrobatika ilə, sonbeşikləri Adil isə gimnastikayla məşğul olurdu. Sonralar hərbçi olan Kamil podpolkovnik rütbəsinədək yüksəldi. Adil idmana yaxın sənət seçdi. Jurnalist kimi Azərbaycan Dövlət Televiziyasında idman verilişlərində çalışdı. Həsən isə rejissor, ssenarist kimi fəaliyyət göstərdi.

Evlərinin ən nadinc, sözə baxmayan uşağı o, idi. "Bizim Cəbiş müəllim" filmində olduğu kimi, köhnə məhəllənin uşaqları bir yerə yığışıb müxtəlif oyunlar oynayırdılar. Pişiyin quyruğuna boş bankalar bağlayırdılar. Səs-küy aləmi başına götürərdi.

Beləcə, uşaqlıq illəri ömrünə həsrətlə anacağı xatirələrlə iz sala-sala ötüb keçirdi. Xəyallar və arzular uşaqlıq çağlarında insanı gələcəyə aparan qoşa qanada bənzəyir. Ancaq bütün arzuları insanla birlikdə böyümür, bir çoxu yarı yolda qalır. Həsən Seyidbəylinin kino ilə bağlı arzusu və sevgisi isə onunla birlikdə böyüyürdü. Bakıda kinofilmlər dəbə düşəndə o, hələ balaca idi. Elə o zamanlar kino aləminə heyran olmuşdu.

Orta məktəbi 1938-ci ildə bitirdi. Ailə üzvlərinə Leninqrada (indiki Sankt-Peterburq şəhəri) oxumağa gedəcəyini dedi. Həmin il Leninqraddakı Kino Mühəndisləri İnstitutuna qəbul edildi. 1939-cu ildə isə Moskvaya yollandı. Moskvadakı Ümumittifaq Kinematoqrafiya İnstitutunun Kinorejissorluq fakültəsində təhsil almağa başladı.

Həsən Seyidbəylinin tələbəlik illəri alman faşist ordusunun Sovet İttifaqına hücum etdiyi, qanlı-qadalı müharibə dövrünə düşdü. Moskva şəhərinin də başının üstünü təhlükə aldı. Vəziyyətlə bağlı olaraq onların institutunu Alma-Ata şəhərinə köçürdülər. Qarlı, şaxtalı günlərdə soyuq vaqonlarda böyük çətinliklərlə Alma-Ataya yetişdilər. Həsən Seyidbəyli institutun son illərini orada oxudu. 1943-cü ildə təhsilini başa vurub vətəninə döndü. "Azərbaycanfilm" Kinostudiyasında rejissor kimi fəaliyyətə başladı. Gənc rejissora ilk vaxtlar kino çəkməyə imkan vermədilər. Kinostudiyanın bəzi qocaman rejissorları cavanlara maneələr yaradırdılar.

O, hələ tələbəlik illərində bədii yaradıcılığa başlamışdı. 1944-cü ildən hekayələri, novellaları mətbuat orqanlarında işıq üzü görürdü. Həsən Seyidbəyli sonralar Moskvada ikiillik ali ssenaristlər kursunda da təhsil aldı.

Sovet dövrünün qaydalarına uyğun olaraq, o da cibində Kommunist Partiyasının biletini gəzdirirdi. Çünki həmin vaxtlar bunsuz iş görmək, elə rejissor kimi də fəaliyyət göstərmək asan deyildi. Ancaq Həsən Seyidbəyli seyid nəslindən idi. O da ata-babaları kimi Allaha inanan adam idi. Görünür, sovet hakimiyyətinin məsul şəxsləri də bunu unutmamışdılar...

Bəy, xan, seyid soyadı olanların özlərini daim təhlükədə hiss etdikləri vaxtlar idi. Bir gün o da Mərkəzi Komitəyə çağırıldı. Azərbaycanın ozamankı rəhbəri Mircəfər Bağırov gənc rejissordan haralı olduğunu xəbər aldı. "Bakılıyam", - Həsən Seyidbəyli dedi. Sonradan öyrəndi ki, hansısa rayondan olan Seyidbəylilərlə bağlı Mərkəzi Komitəyə məlumat çatdırılıb. Mircəfər Bağırovun göstərişi ilə sənədlər araşdırılıb. Həsən Seyidbəylinin həmin Seyidbəylilərlə əlaqəsi olmadığı məlum oldu. Və onu sərbəst buraxdılar. O vaxtdan Həsən Seyidbəyli soyadına görə narahat edilmədi.

Oğlu Ziya Seyidbəylinin söylədiyinə görə, atası xasiyyətcə yumşaq, mülayim olduğu qədər də tələbkar idi: "Əvvəllər yaşlı rejissorlar onu kino çəkməyə qoymasalar da, işləri tədricən yoluna düşdü. Atam tələbkar rejissor idi. Amma o, heç vaxt aktyorları sıxmazdı. Çəkilişlərdən qabaq məşqlərə çox ciddi yanaşırdı. Ona görə də aktyorlar çəkilişlər zamanı kameranın qarşısında hazırlıqlı olurdular. "Nəsimi" filminə dəvət olunanda Rasim Balayev gənc idi. Nəsimi kimi mürəkkəb surəti canlandırmaq o yaşda aktyor üçün asan deyildi. Atam bu rol üçün uzun müddət məşq etdi. Çox maraqlı ifası alındı".

İstedadlı rejissor aktyorlar qarşı tələbkar olmaqla yanaşı, onlara sərbəstlik də verir, bacarıqlarını göstərmək imkanı yaradırdı. "Bizim Cəbiş müəllim" filminin çəkilişləri zamanı Ziya Seyidbəyli özü də bunun şahididi. Çünki rejissorun böyük oğlu həmin filmdəki Namiq obrazının ifaçısı olub: "Filmdə müxtəlif səviyyəli, müxtəlif yaşlı adamlar iştirak edirdilər. Uşaqlarla işləmək çətin idi. Bir də görürdün çəkiliş gedə-gedə biri kameraya baxır. Bizi başa salırdılar: "Kameraya tərəf baxmayın. Elə təsəvvür eləyin, kamera yoxdur". Makedon rolunun ifaçısı Aqillə məşqlər olmuşdu. O, digər uşaqlarla müqayisədə hazırlıqlıydı. Mənim müsbət cəhətim o idi ki, uşaq yaşlarımdan kino çəkilişlərini müşahidə etmək fürsətim olmuşdu. Nəsibə Zeynalovanın oğlu Cahangir də mənim kimi. Filmdə bu cür üç-dörd əsas uşaq rolu vardı. Qalanları o qədər də diqqət mərkəzində olmurdular. Onları başa salıb üç-dörd dubla çəkirdilər. Çəkilişlər zamanı atamın mənə də acıqlandığı məqamlar olurdu. Bir də görürdün nəsə onun istədiyi kimi alınmırdı. Filmin bir yerində Makedona şillə vurmalıydım. Rejissor, yəni atam deyirdi ki, bərkdən vur. Mən vurmağa utanırdım. Çəkiliş alınmırdı. Əlağa Ağayevlə Nəsibə Zeynalova çəkiləndə heyranlıqla tamaşa edirdik. Onlar peşəkar aktyorlarıydılar. Nəyi isə deyirdilər, başa salırdılar ki, belə olmalıdır. Sözləri ifadə etmək, özlərini aparmaq artıq onların özlərinə məxsusuydu. Atam mane olmurdu. Çünki peşəkarlara şərait yaradılmalıydı".

Düzgün aktyor seçimi Həsən Seyidbəylinin çəkdiyi filmlərin uğurlu alınmasının əsas səbəblərindən idi. "Bizim Cəbiş müəllim" filminin məşhur Makedon rolunun ifaçısı aktyorluq sənətindən uzaq gənc oğlan idi. Bu, Həsən Seyidbəylinin tapıntısı olub. Ziya Seyidbəylinin xatirələrində həmin günlər belə qalıb: "Pirşağıdaydıq. Yayda orada dincəlirdik. Atam "Bizim Cəbiş müəllim" filmini çəkməyə hazırlaşırdı. Aqili də o zaman gördü. Tipajı, görünüşü xoşuna gəldi. Yayda Pirşağıda qaldığı üç-dörd ay müddətində onunla məşq etdi. Aqil Makedon rolunu elə ifa etdi ki, sanki peşəkar aktyor idi".

"Bizim Cəbiş müəllim" filmində Həsən Seyidbəylinin digər övladları - Məryəm və Mehdi də Cəbiş müəllimin uşaqları rollarında oynayıblar. Məryəm bundan əvvəl "Telefonçu qız" filmində Mehribanın uşaqlığını canlandırmışdı.

Filmlərində uşaqlarını çəksə də, onların nə rejissor, nə də aktyor olmalarını istəyib. Böyük oğlu Namiq rolunu uğurla oynasa da, bu sənəti seçməyib. Məryəm əvvəlcə aktirisa olmaq istəsə də, sonralar bu istəyi ötüb-keçib. Ziya Seyidbəyli səbəblərini belə izah edib: "Çünki görürdük bu necə çətin, zəhmət tələb edən sənətdir. Bir də biz arzulasaydıq da, inanmırdıq ki, atam bu sənətin ardınca getməyimizə icazə verəydi. Özü çox əzab-əziyyət gördü. Əvvəla başqa rejissorlar kimi o da sovet rejimindən çəkirdi. O vaxtlar digər sovet respublikaları kimi Azərbaycanla bağlı əksər məsələlər də Moskvada həll olunurdu. Hər ssenari qəbul olunmurdu. Rejissorlara sərbəstlik verilmirdi. Bir çoxları kimi atam da iki filmini Moskvadan göndərilən rejissorlarla qoşa çəkməli oldu. İstedadlı adamlar azadlığı sevirlər. Atam da beləydi. O elə adamlardan idi ki, təzyiq göstəriləndə heç nə eləmirdi. Öz içinə qapanırdı. Sifarişlə ola bilər ki, sənədli film çəkdi, amma bədii film yox. Onların bir çoxunu öz əsəri əsasında ekranlaşdırırdı. "Qızmar günəş altında", "Uzaq sahillərdə" filmlərinin ssenari müəllifiydi. "Telefonçu qız", "Kimi daha çox sevirik", "Möcüzələr adası", "Sən niyə susursan", "O qızı tapın", "Xoşbəxtlik qayğıları" filmlərinin həm ssenari müəllifi, həm də rejissoru oldu. "Bizim Cəbiş müəllim" və "Nəsimi" filmlərinin isə yalnız rejissor idi".

Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri olduğu dövrün qaydasına görə, o, həm də SSRİ Kinematoqrafçılar İttifaqında rəhbər vəzifə tuturdu. Bir çox istedadlı aktyorun kino sənətinə gəlməsində Həsən Seyidbəylinin xidməti böyük olub.

Həsən Seyidbəyliyə qarşı haqsızlıqlar da çox olub. Ziya Seyidbəyli danışırdı: "1963-cü ildə çəkdiyi "Möcüzələr adası" filmində bir hissə var idi: neft buruğunda hansısa bir cihaz xarab olur, işçi onu düzəltmək istəmir. Atama Mərkəzi Komitədə məsul işçilərdən biri dedi ki, bizdə Neft Daşlarında belə insanlar yoxdur. Yəni ordakıların hamısı işləyən insanlardır. Atam soruşub: "Bu sizin fikrinizdir?" Aldığı cavab belə olub: "Yox, Mərkəzi Komitənin". Atamı filmdəki həmin hissəni kəsməyə məcbur etmişdilər. O zaman göstəriş verənlər özləri sənətkar olmadıqlarından, onların sözləri bəzən atamın xoşuna gəlmirdi. Buna görə bəzən mübahisələr etməli olurdu. Elə belə məsələlərin, söz-söhbətlərin biri də onun infarkt keçirməsinə səbəb oldu. Onda atamın əlli səkkiz yaşı var idi".

Görkəmli kinorejissor, kinodramaturq, nasir, Xalq artisti Həsən Seyidbəyli 1980-ci il iyunun 25-də gözlərini əbədi yumub. O, həmin gün ikinci dəfə Ali Sovetə deputat seçilmişdi. Deputat biletini vəfatından sonra simvolik olaraq ailəsinə veriblər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Yeni nəşrlər

**Bu il müstəqilliyimizin bərpasının 34 ili tamam oldu. Son beş ilin bu tarixdə öz yeri var və həmin dövrün tədqiq edilməsi, yazılması xüsusi əhəmiyyət daşıyır. Yeni tariximiz haqqında aparılan elmi araşdırmalar hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir. Hesab edirik ki, belə tədqiqat işlərinin qiymətləndirilməsində alimlərimiz fəal mövqe tutmalı, bu cür dəyərli əsərlərə öz münasibətlərini bildirməlidirlər.**




# Suverenliyin zəfər yolu: *reallaşmış ideyalar*

Hüquq və İnsan Haqları İnstitutu 2025-ci ildə hüquq elmləri üzrə fəlsəfə doktoru Vəfaddin İbayevin "Suverenliyin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" kitabını nəşr etdirmişdir. 466 səhifədən ibarət kitabda Azərbaycan Prezidentinin 44 günlük Vətən müharibəsi zamanı xalqa müraciətləri, müsahibə və çıxışlarında səslənmiş fikirlər tədqiqata cəlb edilmiş və üç fərqli istiqamətdə təhlil edilmişdir. Həmin istiqamətlərdən biri "reallaşan ideyalar" adlandırılmışdır. "Reallaşan ideyalar" xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanın inkişaf strategiyasında müxtəlif istiqamətlərdə həyata keçirilməsi nəzərdə tutulan işləri əhatə edir. Bu strategiyanın özəyində duran əsas ideya isə Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma ocaqlarına qayıtmasıdır. Nəzərdə tutulmuş işlərin, ideyaların əsas hissəsi artıq reallaşmış, bir sırası isə reallaşmaq üzrədir. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi də bu ideyaların mərkəzində dayanır.

Prezident İlham Əliyev bu il noyabrın 8-də 44 günlük Vətən müharibəsində qazanılmış Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paraddakı çıxışında gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasının vacibliyinə toxunaraq demişdir: "Biz gənc nəsli vətənpərvərlik ruhunda, Vətənə sevgi ruhunda tərbiyə etmişik və bizim gənclərimiz 44 gün ərzində öz sinələrini qabağa verərək, güllə altına gedərək tarixi torpaqlarımızı işğalçılardan azad etdilər. Vətənpərvərlik, mənəvi keyfiyyətlərimiz şanlı Zəfərimizin əsas amillərindən biridir".

Vətən sevgisi, vətənpərvərlik xalqımıza tarixən xas olan mənəvi keyfiyyətlərdən biridir. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi ideyasının həyata keçirilməsində Olimpiya Hərəkatı və idman sahəsində görülən ardıcıl işlərin xüsusi rolu olmuşdur. Azərbaycanda idmanın sürətli inkişafı isə 1997-ci ildə cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra başlamış və bu inkişaf getdikcə daha da güclənmişdir.

Cənab İlham Əliyev 1998-ci ildə gənc idmançılar qarşısındakı çıxışında demişdir: "İdman mübarizədir. ...Sizin hər birinizin mübariz ruhda tərbiyə olunması bizim istəyimizdir. Əminəm ki, bu işdə idman sizə çox şey verəcəkdir. Mübarizə aparmaq, qələbə çalmaq, qarşıya qoyduğunuz məqsədə çatmaq üçün daim çalışmaq sizin əsas vəzifəniz olmalıdır. Vətənə bu cür övladlar lazımdır. Vətən bu cür övladları ilə daim ucalır".

Milli Olimpiya Komitəsinin prezidenti kimi idman və Olimpiya Hərəkatına rəhbərlik edən cənab İlham Əliyev 1997-ci ildən mübariz gənc nəslin hazırlanması ideyasını irəli sürmüş, məqsədə çatmaq vasitələrindən birini - yeniyetmə və gənclərin idmana cəlb edilməsi, onların idman mübarizəsində uğurlar qazanması üçün hər cür əsasların yaradılmasını komitənin fəaliyyətində ön plana çəkmişdir.

Sidney Olimpidası ərəfəsində Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev idmançılara dəyərli tövsiyələr verərək demişdir: "2000-ci ildə keçiriləcək Olimpiya Oyunlarında medalların sayı daha da çox olacaqdır. Bizim milli komandamız bu yarışlarda daha geniş tərkibdə çıxış edəcək və biz hamımız arzulayırıq ki, Vətənə medallarla qayıtsınlar, Azərbaycanın idman şöhrətini ucaltsınlar. Sidneydə yarışacaq idmançılarımıza tövsiyəm budur ki, bir anda yaddan çıxarmasınlar ki, onların uğurları, onların əldə edəcəyi medallar təkcə özlərinə yox, həm də bütün Azərbaycan xalqına məxsusdur. Onların uğurları Azərbaycanın uğurlarıdır. Onların qələbəsi Azərbaycanın qələbəsi olacaqdır".

"Suverenliyin zəfər yolu" kitabında Müzəffər Ali Baş Komandanımızın müsahibələrindən birində qəti şəkildə "Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq!" deməsi xüsusi qeyd olunmuşdur. Prezident İlham Əliyev işğal olunmuş bütün Azərbaycan torpaqlarında Azərbaycan bayrağını qaldırmazdan əvvəl onu dünyanın çox ölkəsində yüksəltməyə nail oldu.

"Suverenliyin zəfər yolu" kitabında oxuyuruq: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində "Cənab Prezident, Siz artıq qələbəni dadmısınız?" sualına cavab verərkən bildirdi ki, "Biz ərazi bütövlüyünün bərpasını demək olar ki, 30 il idi gözləyirdik… Biz onu danışıqlar masasında həll etmək istəyirdik. Lakin biz bunu döyüş meydanında etməyə hər zaman hazır idik və bunu da edirik".

Cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti kimi hələ 1998-ci ildən başlayaraq, Azərbaycanda Olimpiya və qeyri-Olimpiya növü sayılmasından asılı olmayaraq, idmanın bütün növlərinin inkişaf etdirilməsinin vacibliyini vurğulayır, onlar arasında fərq qoymamağı tövsiyə edirdi.

Prezident İlham Əliyevin rəhbərliyi, diqqət və qayğısı altında yarışlara hazırlaşan idmançılar Vətən müharibəsi günlərində idmanda qazandıqları vərdişlər hesabına böyük qəhrəmanlıqlar nümayiş etdirərək adlarını xalqın igidləri sırasına yazdılar. İdman sahəsində əldə edilmiş uğurlar dövlətimizin başçısını bir daha əmin etdi ki, xalqının övladları döyüş meydanlarında da qalib gəlməyə hazırdırlar.

26 fevral 2021-ci ildə xarici ölkələrin media nümayəndələri üçün mətbuat konfransında Prezident İlham Əliyev Ukraynanın "İnter" telekanalı müxbirinin sualını cavablandırarkən demişdir: "…biz onların bizi haradan gözlədiklərini və nə edəcəklərini təxminən bilirdik. Buna görə də elə yerdən gedirdik ki, onların ağlına belə gəlməzdi. Onlar bizim Şuşaya necə gedib çıxmağımızı hələ də başa düşə bilmirlər. Başa düşə bilmirlər, bir-birindən soruşurlar. Bəzən bu məsələ mətbuata çıxır. Lakin haçansa başa düşəcəklər, bu da Azərbaycanın xüsusi təyinatlılarının və digər xüsusi hərbi birləşmələrinin misilsiz mərdliyi, qəhrəmanlığı, fədakarlığı ilə bağlı ayrıca bir əhvalatdır. Lakin bu gün artıq sirr deyil ki, döyüş əməliyyatlarında sərhəd xidmətinin xüsusi təyinatlı qüvvələri, daxili qoşunlar, təhlükəsizlik xidməti, kəşfiyyat xidməti, Naxçıvan ordusunun xüsusi qüvvələri iştirak edirdilər. Onlardan hər birinin vahid komandanlıq altında öz vəzifəsi var idi".

Ümummilli Lider Heydər Əliyev və Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın dünyaya bəxş etdiyi və dünyanın ən böyük dühaları ilə eyni sırada dayanan şəxsiyyətlərdir. Onların ömür yolları, fəaliyyətləri, uzaqgörənlikləri yalnız Azərbaycan üçün deyil, bütün türk dünyası, həmçinin bundan sonra hansı millətdən olmasından asılı olmayaraq, öz adını, fərqi yoxdur, dövlət başçısı, sərkərdə, ümumiyyətlə, dahi kimi tarixə yazdırmaq istəyən hər bir kəs üçün olduqca dəyərli və qiymətli bir örnəkdir.

***Çingiz HÜSEYNZADƏ,***
***Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti, filologiya elmləri doktoru, professor***

# İstanbul Beynəlxalq Kitab Sərgisində "Leyli və Məcnun" əsərinin Türkiyə türkcəsində təqdimatı keçirilib

**Dahi Azərbaycan şairi Nizami Gəncəvinin Türkiyə türkcəsində nəşr olunan "Leyli və Məcnun" əsəri İstanbulda keçirilən 42-ci Beynəlxalq Kitab Sərgisində ictimaiyyətə təqdim edilib.**

AZƏRTAC xəbər verir ki, kitab Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin Türk dünyasının tanınmış mütəfəkkiri Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan bütün əsərlərin orijinaldan Türkiyə türkcəsinə tərcümə və nəşr edilməsinə dair layihəsi əsasında hazırlanıb. Layihəyə əsasən, "Xəmsə"yə daxil olan bütün əsərlərin orijinaldan Türkiyə türkcəsinə tərcüməsi nəzərdə tutulur. Əsərlər Türkiyənin Ərzurum Atatürk Universitetinin professoru, tərcüməçi Nimet Yıldırım tərəfindən tərcümə edilir.

Kitabın sərgidə baş tutan təqdimat proqramı çərçivəsində panel iclas keçirilib.




İclasın moderatoru, Nizamişünas-alim, dosent Təhminə Bədəlova məruzəsində Azərbaycan ədəbiyyatının zirvəsi olan Nizami Gəncəvi yaradıcılığının türk dünyasına daha yaxından təqdim edilməsinin əhəmiyyətini vurğulayıb.

O, milli mədəniyyətimizin və ədəbiyyatımızın tanıdılması ilə əlaqədar Azərbaycan Mədəniyyət Mərkəzinin sistemli fəaliyyətini, klassik irsimizin araşdırılması və təbliği ilə bağlı layihələrini yüksək dəyərləndirib. Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov məruzəsində Nizami Gəncəvinin Azərbaycan, eləcə də bütün türk dünyası ədəbiyyatının inkişafındakı əvəzsiz rolundan danışaraq, əsrlər keçməsinə baxmayaraq, bu, dahi şairin ədəbiyyatın zirvəsində olduğunu və yaratdığı əsərlərlə mədəniyyətimizə mühüm töhfələr verdiyini bildirib.

Samir Abbasov rəhbərlik etdiyi Mədəniyyət Mərkəzinin Azərbaycan klassik irsinin təbliği məqsədilə bu günə kimi dahi Nizami Gəncəvinin "İskəndərnamə" və "Sirlər xəzinəsi" əsərlərini Türkiyə türkcəsinə tərcümə və nəşr edildiyini, "Leyli və Məcnun" əsərinin çap olunmasının bu layihənin davamı olduğunu söyləyib.

İstanbul Yıldız Texnik Universitetinin professoru, Nizami irsinin tədqiqatçısı Süleyman Doğan Nizami Gəncəvinin "Xəmsə"si ilə epik poeziyanın əbədi incilərini yaratdığını, zəngin yaradıcılıq xəzinəsi ilə bəşər ədəbiyyatının zirvəsini fəth etdiyini bildirib. O, Nizami Gəncəvi irsinin türk dünyası ədəbiyyatını zənginləşdirdiyini, Azərbaycan ədəbiyyatının isə ümumtürk mədəniyyətinin ən qiymətli xəzinəsi olduğunu bildirib.

Əsəri Türkiyə türkcəsinə tərcümə edən professor Nimet Yıldırım dahi mütəfəkkir Nizami Gəncəvinin yaradıcılığı haqqında danışıb, onun Şərqin ilk məhəbbət poemasını yaradaraq dünya ədəbiyyatında ölməz iz qoyduğunu deyib.




Sonda tərcüməçi yeni nəşr olunan "Leyli və Məcnun" kitabını imzalayaraq oxuculara hədiyyə edib.

Qeyd edək ki, Nizami Gəncəvinin Türkiyə türkcəsində nəşr edilən "Leyli və Məcnun" əsəri Türkiyənin "Dergah yayınları" nəşriyyatında çapdan çıxıb. Kitabın Türkiyənin aparıcı kitabxanalarına, elmi-tədqiqat müəssisələrinə və universitet kitabxanalarına hədiyyə olunması planlaşdırılır.

# İsti ürəklərin qış nağılı

**Paytaxtımızda artıq Yeni ilin nəfəsi duyulmağa başlayır. Dənizkənarı Milli Parkdan tutmuş İçərişəhərin dar dolanbaclarına qədər hər yerdə gözə dəyən rəngli işıqlar, nəhəng şam ağacları və bayram rəmzləri şəhərin qış geyiminə isti ab-hava qatır. Hər kəs - uşaqlar, gənclər, yaşlılar bu nağıl aləminin bir parçasına çevrilir, Yeni ilin sehrinə düşürlər.**



Bakının sərt küləyi qışın ən soyuq günlərində belə izdihamın azalmadığı, insanların yorğunluğunu unutduğu Fəvvarələr meydanından sanki yan keçir. Hər il olduğu kimi, bu il də meydanda qurulan bayram yarmarkasının xoş ovqatı dekabrın soyuğunu unutdurur. Bərq vuran şam ağacının yanında dayanıb uşaqların sevincli səslərinə qulaq asan valideynlər, əllərində isti qəhvə ilə gəzərək söhbət edən gənclər, çəkdikləri fotolarla hər anı əbədiləşdirmək istəyən turistlər buraya xüsusi ruh qatır. Uşaqların qaçışaraq şam ağacının oyuncaqlarına toxunması, Şaxta babanın qarşısında uzanan növbədə gözləri işıldayan balacaların həyəcanı bu məkanı böyük bir ailə şənliyinə çevirir. Elə bu an anlayırsan ki, Fəvvarələr meydanında hər kəs öz uşaqlığını yenidən yaşayır - istər gənc olsun, istərsə də yaşlı. Burada hər addım, hər baxış insanı gündəlik qayğılardan uzaqlaşdırıb qış nağılına aparır.





Uzun illərdir Yeni ilin gəlişini müjdələyən "Soyuq əllər, isti ürək"dəyik...

### Rəngarəng kostyumlar, dekorativ fiqurlar, canlı şoular

Yarmarkanın ən cəlbedici tərəflərindən biri onun fərqli mədəniyyətləri eyni məkanda birləşdirməsidir. Bir tərəfdə xarici mətbəxin isti təamlarının qoxusu havaya qarışır, digər tərəfdə milli yeməklərimizin tanış, ana yeməyi kimi doğma ətri duyulur. Köşklərdən birində qovrulmuş şabalıdın ətri gəlir, digərində isti qarğıdalı buxarlanır, yaxınlıqda qəhvə üyüdülməsinin səsi eşidilir.

Artıq 12 ildir ki, Fəvvarələr meydanında təşkil olunan yarmarka bu il öz formatını daha da zənginləşdirərək sirk tematikası ilə təşkil edilib. Rəngbərəng kostyumlar, iri dekorativ fiqurlar, canlı şoular və musiqilər meydanı bir növ səyyar teatr səhnəsinə çevirib. Hər addımda müxtəlif personajlara, animatorlara, Santa Klausa və Qar qıza rast gəlmək mümkündür. Şəhərin ən gur yerində quraşdırılan 60 böyük və 20 kiçik ev, ikimərtəbəli restoranlar, xüsusi oyun tuneli və foto zonaları isə qonaqların sayını artırmaqla yanaşı, yarmarkanın özünəməxsus təsvirini də yaradır. Bu mənzərəyə, sadəcə, baxmaq belə insanın qəlbindəki bayram işığını yandırır.

"Soyuq əllər, isti ürəy"ə yalnız ölkə sakinləri deyil, xarici qonaqlar da böyük maraq göstərirlər. Bir çoxları üçün bu yarmarka təkcə şənlik deyil, ölkəmizin qonaqpərvərliyinin canlı nümunəsidir. Burada turistlərin pavilyonlar arasında gəzib yerli təamları daddıqca heyranlıqlarını ifadə etmələri Bakının mədəni rəngarəngliyini bir daha ortaya qoyur. İşi ilə əlaqədar Bakıya gələn qazaxıstanlı Gulnar Abişeva deyir ki, illərdir ölkəmizin mədhini eşitsə də, gəlmək bu il ona qismət olub: "Həmişə düşünmüşəm ki, bir ölkəni, onun insanlarını tanımaq üçün mütləq bayramı birlikdə keçirməlisən. Buna görə də səyahətlərimi məhz belə dövrlərə salıram. Yarmarkanı gəzdikcə, yeni insanlarla tanış olduqca doğru düşündüyümə bir daha əmin oldum. Gələnilki bayramda valideynlərimi və övladımı da gətirəcəm ki, onlar da Azərbaycanın təbiətinin, mədəniyyətinin gözəlliyinə, xalqımızın qonaqpərvərliyinə canlı şahid olsunlar".



Milli yeməklər satılan köşklərdən birinin əməkdaşı aşpaz Ruhiyyə Əliyeva deyir ki, məqsədi milli yeməklərimizi layiqincə nümayiş etdirməkdir. Onun sözlərinə görə, yarmarkada nə qədər çox xarici təamlar olsa da, qutab, ləvəngi, dolma yeyənlər yenidən bu köşkün qarşısına qayıdırlar. Turistlər milli yeməklərin adlarını, reseptlərini öyrənib qeyd etdiklərini və bunları evdə də hazırlayacaqlarını söyləyirlər. Bu isə ömrünü milli dadlarımızın hazırlanmasına sərf edən bir xanım üçün böyük qürurdur.

### Xeyriyyə bayramı

Meydanı gəzərkən Santa evinin qarşısındakı uzun növbə diqqətimizi çəkir. Şaxta baba ilə şəkil çəkdirmək üçün gözləyən balacaların həyəcanı gözlərindən oxunur. Əlləri, yanaqları soyuqdan qızarmış olsa da, duyduqları sevinc onları isidir. Nəvələri ilə növbədə gözləyən Eldar kişi deyir ki, Elnurla Turqay ilboyu bu günü gözləyirlər: "Burada hər büdcəyə uyğun yeməklər, oyuncaqlar var. Başqa yerdə satılmayan, fərqli görünüşlü, dadlı "fast-food"lar uşaqlara maraqlı gəlir. Bu il bir neçə fərqli yemək köşkləri də əlavə olunub. Yarmarkada hər büdcəyə uyğun alış-veriş etmək mümkündür. Heç kim əliboş qayıtmır. Uşaqlı ailələr üçün ən əsası da elə budur".

"Soyuq əllər, isti ürəy"i dolaşdıqca köşklərin heç birinin boş qalmadığını görmək mümkündür. Oyuncaqlar satılan köşk də bunlardan biridir. Satıcı Səbinə Talıbova deyir ki, uşaqlar bu al-əlvan oyuncaqları seçərkən əməllicə çətinlik çəkirlər: "Köşkə daxil olan kimi gözlərini sevinclə açıb "Bura elə bil nağıldır" deyirlər. Ürəklərincə olan oyuncağı tapanda isə elə sevinirlər ki, o anı izləmək belə insana xoş təsir bağışlayır".

Fəvvarələr meydanında qurulan yarmarkanın şənliyi, əyləncəsi və bəzəyi nə qədər gözəldirsə, onun arxasındakı məqsəd də bir o qədər dəyərlidir. "Soyuq əllər, isti ürək" layihəsi təkcə bayram ovqatı yaratmaqla kifayətlənmir, həm də yüzlərlə uşağa ümid olan xeyriyyə missiyası daşıyır. 2013-cü ildən başlayaraq "Nargis" Fondunun təşkilatçılığı ilə keçirilən bu layihə regionun ən böyük xeyriyyə yarmarkalarından biri hesab olunur. Yarmarkanın sponsorları və kirayəçiləri tərəfindən toplanan vəsait müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicəsinə yönəldilir. Bu səbəbdən burada qurulan hər köşk, seçilən hər oyuncaq, oynanan hər oyun kiçik bədənləri xəstəliklərlə mübarizə aparan uşaqların sağlamlıqlarına qovuşması üçün bir vəsilədir. Valideynlərinin əllərindən tutub meydanı gəzən uşaqlar gələcəkdə də bu ənənəni davam etdirən böyüklərə çevrilirlər.



*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*


OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Ukrayna ilə bağlı sülh planı: tamam, yoxsa davam

**ABŞ Prezidenti Donald Tramp bildirib ki, Vaşinqtonun Ukraynadakı müharibəyə son qoymaq üçün təklif etdiyi plan Volodimir Zelenski istisna olmaqla Ukrayna danışıqlar qrupunun dəstəyini alıb. Lakin Ukrayna nümayəndə heyəti Prezidentin göstərişlərinə sadiqdir və ölkə lideri özü də deyib ki, Moskvanın əsas tələbi - bütün Donbasın Rusiyanın nəzarətinə verilməsi Kiyev üçün qəbuledilməz olaraq qalır.**



Hələ dekabrın 11-də keçirilən mətbuat konfransında V.Zelenski Ukraynanın Vaşinqtona 20 bənddən ibarət sülh planının yeni versiyasını təqdim etdiyini təsdiqləmişdi. Xatırladaq ki, 28 bəndlik əvvəlki layihə Amerika diplomatları tərəfindən Rusiyanın təklifləri əsasında hazırlanmış və əsasən, Moskvanın tələblərinə cavab verirdi. Digər məsələlərlə yanaşı, plan Rusiyanın Ukrayna ərazisini ilhaq etməsini, Kiyevin NATO-ya qoşulmaqdan imtinasını, müharibə cinayətlərinə görə Rusiyanın əfv olunmasını və Ukrayna Silahlı Qüvvələrinin sayına məhdudiyyət qoyulmasını da əhatə edirdi. Bu sənəd daha sonra Florida və Cenevrədə keçirilən Ukrayna və Avropa ölkələri ilə bağlı bir neçə danışıqlar raundu zamanı yenidən nəzərdən keçirildi. Sülh planının yeni versiyası Kremlə şəxsən D.Trampın xüsusi nümayəndəsi Stiv Uitkoff və kürəkəni Cared Kuşner tərəfindən təqdim edildi. Bunun ardınca sənədin sonrakı versiyası (rəsmi olaraq dərc olunmamışdı) Floridada keçirilən Ukrayna-Amerika danışıqlarında yenidən müzakirə olundu. Sonra Ukrayna rəsmi olaraq yeni versiyasını Vaşinqtona qaytardı.

V.Zelenski bildirib ki, Amerika komandasına təqdim edilən versiya son plan deyil: "Bu, bir sıra sənədlərdir. Onların bir çoxu hələ yekunlaşdırılmayıb, çünki məzmunu 20 bəndlik əsas sənədin təsdiqlənmə formasından asılıdır. Bu sənəd müharibədən sonrakı iqtisadiyyatı və yenidənqurmanı, təhlükəsizlik zəmanətlərini və digər məsələləri müəyyən edir. Bəzi məqamlar əlavə detallar tələb edir və bunun üçün ayrıca sənəd yaradılacaq". ABŞ-nin planla bağlı razılaşmaq üçün hər hansı son tarix müəyyən edib-etmədiyi soruşulduqda, Ukrayna lideri konkret ultimatum və ya tarix olmadığını deyib. Bununla belə, o əlavə edib ki, ABŞ-nin Milad bayramına qədər bu razılaşma ilə bağlı mövqeyimizi tam şəkildə anlamaq istədiyini düşünür.

Cümə axşamı D.Tramp yenidən ABŞ-nin Kiyev və Moskva ilə razılaşmaya çox yaxın olduğunu bildirib. "Fikrimcə, Rusiya ilə, demək olar, razılığa gəlmişik. Ukrayna ilə də, demək olar, razılığa gəlmişik. Əslində, Prezident Zelenskinin özündən başqa onun komandasındakı hər kəs razılaşma layihəsini bəyənir", - deyə Tramp bildirib. O həmçinin qeyd edib ki, Amerika planı 4 və ya 5 əsas hissədən ibarətdir: "Bildiyiniz kimi, bu, bir az mürəkkəbdir, çünki ərazini müəyyən bir şəkildə bölmək lazımdır. Bu, asan iş deyil... "

Bu arada ABŞ ilə danışıqlarda Ukrayna nümayəndə heyətinin rəhbəri, Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov komandasının ilk prioritetinin Amerika tərəfindən Moskva ilə söhbətlərin və mövcud təkliflərin bütün layihələri haqqında tam məlumat almaq və onları Ukrayna Prezidenti ilə ətraflı müzakirə etmək olduğunu yazıb.

ABŞ lideri isə Ukraynaya həsr olunmuş görüşün dekabrın 13-də Avropada keçiriləcəyini təsdiqləmişdi. Lakin qeyd etmişdi ki, Vaşinqton yalnız sülhün bərqərar olması üçün "real şans" olduğu halda iştirak edəcək.

Amerikanın "Axios" nəşrinin məlumatına görə, ABŞ və Ukrayna arasında müzakirələr iki əsas məsələyə yönəlib: ərazi və Vaşinqtondan təhlükəsizlik zəmanəti. Jurnalistlərin fikrincə, ABŞ Ukraynaya Rusiyanın hərbi nəzarəti altında olmayan ərazilərdən belə, yəni bütün Donetsk bölgəsindən qoşunlarını çıxarmağa razılıq verməsi üçün təzyiq göstərməyə çalışır. Kiyev isə bunu qəbuledilməz hesab edir. Çünki bu, ərazi bütövlüyü ilə bağlı Ukraynanın mövqeyinə ziddir, həm də Rusiyanın bu torpaqlardan sonrakı hücum üçün platsdarm kimi istifadə edə biləcəyi ilə bağlı narahatlıqları var.

Cümə axşamı V.Zelenski təsdiqləmişdi ki, plana Donbasın bir hissəsinin nə Ukrayna, nə də Rusiya qoşunlarının girəcəyi, yəni "demilitarizasiya zonası"na çevrilə biləcəyi variant daxildir. "Ruslar bütün Donbası istəyirlər, amma biz, əlbəttə ki, bunu qəbul etmirik. Amerikalılar isə bir növ format axtarırlar", - deyə Ukrayna Prezidenti bildirib. "Onlar amerikalıların azad iqtisadi zona, rusların isə demilitarizasiya zonası adlandırdığı ərazi məsələsini müzakirə ediblər, yəni Ukrayna qoşunları Donetsk bölgəsinin ərazisindən çıxmalı, lakin Rusiya qoşunları bu əraziyə girməməlidirlər".

Bazar günü Ukrayna Prezidenti Volodimir Zelenski şəxsən Almaniya paytaxtında amerikalılarla mürəkkəb danışıqlara qoşulub. ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff və Cared Kuşnerlə keçirilən görüşdə Ukrayna lideri Donetsk bölgəsindən birtərəfli geri çəkilmə məsələsini müzakirə etməkdən imtina edib.

Eyni zamanda Almaniyanın "Bild" nəşrinin məlumatına görə, Kiyev cəbhədə müvəqqəti atəşkəsə və Moskvanın işğal etdiyi ərazilər üzərində nəzarətin faktiki olaraq itirilməsinə hazırdır, lakin Ukrayna Silahlı Qüvvələrinin Donetsk bölgəsinin öz nəzarəti altında olan hissəsindən geri çəkilməyə qəti şəkildə qarşıdır. Qəzet əlavə edir ki, V.Zelenski cəbhədə atəşi dondurmağa və beləliklə, Krım, Luqansk, Donetsk və Zaporojye və Xerson bölgələrinin bir hissəsini faktiki olaraq Rusiyaya güzəştə getməyə hazır olsa da (Kiyevin vurğuladığı kimi, yalnız müvəqqəti olaraq), onun üçün Donetsk bölgəsindən geri çəkilmək barədə söhbət gedə bilməz. Bununla belə, nəşrin məlumatına görə, bundan sonra ABŞ Ukrayna ordusunun Donetsk vilayətinin təxminən 5600 kvadratkilometrlik ərazisindən çəkilməsini təklif edib. Bu ərazi Rusiya ordusu tərəfindən ələ keçirilməyəcək, yalnız "silahsızlaşdırılmış iqtisadi zona" olacaq. V.Zelenski isə öz növbəsində əraziləri yalnız Rusiyanın nəzarəti altında qoymamaq üçün hər iki tərəfin qarşılıqlı geri çəkilməsində israr edib.

Yerli media xəbər verir ki, Berlindəki danışıqlar çətin keçib: ABŞ layihə sazişi üzrə güzəştə getmək istəmir. "Reuters" qeyd edir ki, ərazilər mövzusundan əlavə, Ukrayna Prezidenti Amerika nümayəndə heyətinə başqa bir əks təklif irəli sürüb: Qərbdən təhlükəsizlik zəmanətləri əvəzində NATO üzvlüyündən imtina etmək. ABŞ həm də Ukraynada təcili prezident seçkilərinin keçirilməsini tələb edib.

RBC-Ukrayna agentliyinin verdiyi məlumata görə, dekabrın 14-də Berlində keçirilən danışıqlardan sonra V.Zelenski hərbi vəziyyət dövründə seçkilərin keçirilməsi ehtimalı ilə bağlı qanun layihəsinin hazırlanmasını tapşırıb. Səsvermənin bir neçə gün davam etməsi və bütün seçki prosesinin 60 gün ərzində başa çatması gözlənilir.

ABŞ Prezidentinin elçisi Stiv Uitkoff sosial mediada Ukrayna Prezidenti Volodimir Zelenski ilə Berlində keçirilən görüşdə "əhəmiyyətli irəliləyiş əldə edildiyini" bildirib. Deyib ki, Ukrayna və Amerika nümayəndə heyətləri arasında 5 saatdan çox çəkən danışıqlar bazar ertəsi də davam edib.

Alman xəbər agentliyi "Handelsblatt" da Berlində Ukrayna və ABŞ nümayəndə heyətləri arasında sülh danışıqlarının dekabrın 15-də davam etdiyini bildirib. Almaniya kansleri Fridrix Merts, Fransa prezidenti Emmanuel Makron və Böyük Britaniyanın Baş naziri Kir Starmer isə axşam saatlarında danışıqlara qoşulublar. Finlandiya Prezidenti Aleksandr Stubb isə danışıqlarda Ukrayna və ABŞ arasında neytral vasitəçi kimi iştirak edib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Bakıda hava əsasən yağmursuz keçəcək, bəzi rayonlarda qar yağacaq

**Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin gecə və axşam bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Şimal-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 3-5, gündüz 6-9 dərəcə isti olacaq. Atmosfer təzyiqi 766 millimetr civə sütunundan 771 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 7-10 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, yüksək dağlıq ərazilərdə 10-13 dərəcə şaxta, gündüz 2-6 dərəcə şaxta olacaq.

Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlaması ehtimalı var.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev və administrasiyanın əməkdaşları

**VAHİD AXUNDOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Əməkdar elm xadimi və Əməkdar dövlət qulluqçusu

**VAHİD AXUNDOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi

**VAHİD CÜMŞÜD OĞLU AXUNDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Əməkdar elm xadimi

**VAHİD AXUNDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Onkologiya Mərkəzinin kollektivi mərkəzin əməkdaşı Rufa Hüseynovaya qardaşı

**VAQİF ƏBDÜL OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4120
Sifariş 2538

Qiyməti 60 qəpik